**SÜBHAN ABASBƏYLİ**

# AXIRINCI GÜLLƏ

**ADİLOĞLU**
**Bakı – 2019**

**Redaktor:** **Nəcibə İlkin**
*Şair-publisist,*
*AYB-nin, AJB-nin, İraq-Türkmən*
*Yazarlar Birliyinin üzvü,*
*Prezident mükafatçısı*

**Sübhan ABASBƏYLİ. Axırıncı güllə.**
**Bakı, «ADİLOĞLU» nəşriyyatı, 2019, 160+(8 şəkil) səh.**

$\frac{4722110018}{121 - 2019}$ qrifli nəşr

© S.Abasbəyli, 2019

## ÖN SÖZ

Hər bir insanın qəlbində öz xalqının miniatür portreti var. Bu portretdə vətənə olan sevgi, xalqa olan məhəbbət öz əksini tapır. Və zaman keçdikcə o məhəbbət insanın əməllərində əks olunmağa başlayır. Şəhid şəhidliyi ilə, qəhrəmanlar döyüş şücaəti ilə... Şair və yazıçılar isə əlindəki qələmini süngüyə çevirməklə. Qəhrəmanlarn keçdiyi yolu və vətənin başına gətirilən faciələri qələmə almaqla tarix yaradaraq, bunları özündən sonrakı nəsillərə miras qoyur. Mənə elə gəlir ki, qəhrəmanlar və yazıçılar eyni qəbildəndir. Biri döyüşür, biri də onu tarixə salır. Bu mənada vətən tarixini yazıb yaradan  qələm sahiblərindən biri şair-publisist Sübhan Abasbəylini alqışlayır və dediklərimin bariz nümunəsi kimi qəbul edirəm.

Onu sosial şəbəkədən tanıdım. Qürbətdən vətən səsini eşitdim. Vətənə olan böyük sevgisini duydum. Vətənə olan məhəbbəti keçmişindən bu günə qədər başına gələn faciələr əsərlərində şahə qalxmışdı. Bəlkə də onun tarix müəllimi olması da vətənin bu olaylarını qələmə almasında yardımçı olmuşdur, deyə bilmərəm. Amma kim olursansa ol, özünü vətəndaş hesab edən şəxs onun tarixinə, başına gələn faciələrə biganə qalmamalıdır.

Sübhan müəllimi fərqləndirən cəhət ondan ibarətdir ki, o, vətəndə də vətəndir, qəriblikdə də vətəndir. Qələmə aldığı hər bir əsərində vətən harayı var, haqsızlığa qarşı üsyan var. Üsyankar şair kimi söz-söz ağlayır, misra-misra haray çəkir.

Bu olayları qələmə alan şair uzun müddətdir ki, Tatarıstanda yaşayır. Yaşadığı müddət ərzində ictimai təşkilati və diaspor işlərində fəallıq göstərməklə bərabər, milli-mənəvi dəyərlərimizin qorunmasında böyük işlər görmüşdür.

S.Abasbəyli 2007-ci ildən Tatarıstanda Azərbaycan Milli-Mədəni Muxtariyyatın təftiş-nəzarət komissiyasının sədri, 2012-ci ilin dekabr ayından 2017-ci ilə qədər Tatarıstanda Pegional İctimai Təşkilatı Azərbaycan Milli-Mədəni Muxtariyyatın sədri vəzifəsində çalışır. Diasporaya rəhbərlik etdiyi müddətdə Azərbaycan Diasporası Tatarıstanda 35 diaspor təşkilatları içərisndə ən yuxarı pilləyə yüksəlmişdir (rus diasporasından sonra ikinci yerdə) və bir çox tədbirlərin ilk təşkilatçısı olmuşdur. 2013-cü ildə Azərbaycan xalqının böyük şəxsiyyəti olan Nəriman Nərimanovun Kazan şəhərində eyni adlı küçədə xatirə lövhəsinin açılışını təşkil edilməsində böyük fədakarlıq göstərmişdir. Həmin ildə Kazan şəhərində Azərbaycan diaspor təşkilatı tərəfindən 400 dən çox ağac əkilmişdir.

2013-cü ildə Tatarıstanın "Mir" kinoteatrında ilk dəfə Azərbaycan kino günləri, Xocalı soyqırımı faciə qurbanlarının anım günü və şəhidlərimizin xatirəsinə qanvermə aksiyası keçirilmişdir. Bir təşkilat sədri kimi azərbaycançılığı yaşatmaqla xeyirxah işlərin görülməsində, Azərbaycan həqiqətlərinin təbliğatında böyük rol oynayan S.Abasbəyli vətəndən kənar vətən mübarizəsini davam etdirmiş və çox önəmli məsəslələrin həllində öndə olmuşdur. Bundan başqa Kazanda bir uşaq evini hamiyə götürən diaspor təşkilatı bir daha xeyirxahlığın, insanlığın nümunəsini ortaya qoya bilmişlər.

Kazanın "Mir" kinoteatrında ilk dəfə Xocalı soyqırım qurbanlarını yerli camaatın iştirakıyla yad edilməsi, "Xoca" filminin və Xocalı faktlarının filmlərdə göstərilməsi, Xocalı faciəsinin yerli qəzet və jurnallarda, saytlarda işıqlandırılması kimi fəal işlər S.Abasbəyli başda olmaqla mərd oğullarımızın mübarizliyini, vətənpərvərliyini bir daha sübut edir. 2014-cü ildə V.V Putinə Xocalı Soyqırımı haqqında bəyannamə qəbul edilməsi millətin, xalqın haqq səsinin ucaldılması diasporun fəallığından xəbər verir.

Bundan başqa Kazan Federal Universitetində Azərbaycan xalqının böyük şəxsiyyəti olan Mühəmməd Əli Mirzə Kazım bəyin xatirə lövhəsinin açılışı, mütəmadi olaraq Azərbaycan tələbələrinin problemlərinin həlli yolları ilə məşğul olunması kimi böyük işlərin həyata keçirilməsində diaspor təşkilatının müsbət işləri kimi alqışlanmağa dəyər.

S.Abasbəylinin bütün kitabları Tatarıstanda nəşr olunub və soydaşlarımıza o cümlədən Tatarıstanın dəyərli şəxslərinə paylanılıb. Bu dəfə doğma ölkəsində kitab nəşr etdirən Sübhan müəllim həmin əsərlərin üzərində yenidən işləyərək təkrar nəşrini çap etdirməklə bizləri də sevindirdi. "Axırıncı güllə" kitabında 5 poeması və bir neçə şeirləri dərc olunmuşdur. Onun əsərləri haqqında qısa şərh demək mənim üçün yalnışlıq olardı. Çünki bu əsərlərdə vətən mübarizəsi, onun qanlı tarixi var. S.Abasbəylinin içindəki qaysaq bağlamayan vətən yaraları şeirlərində söz-söz ağlayır, misra-misra nalə çəkir. Hər nalədə vətən azadlığına üz tutan, dərlərinə son qoymaq arzusu dilə gəlir.

"Ana fəryadı" poemasında yoldaşı Qarabagda şəhid olan bir qadının ahı-fəryadı, çəkdiyi əzabları əks olunub.

Yenicə ailə quran qadının sevincinə, xoşbəxtliyinə son qoyan müharibə ona acı həyat yaşadır. Sevə-sevə, çox çətinliklə gözünün ağı-qarası böyütdüyü bircə oğlu arzularının arxasınca gedir. Ali məktəbə qəbul olur, lakin vətən darda olduğu üçün cəbhəyə getməyi qərara alır. Vətən borcunu yerinə yetirmək, kişilik məktəbini keçmək, şəhidlərimizin qisasını almaq onun amalına çevrilir. Anasından halallıq alıb cəbhəyə yollanır. Komandir təyin olunan Cahandar düşmənlərə qan uddudur. Onun şücaəti, fədakarlığı tezliklə cəbhə yoldaşları arasında böyük səs-küy yaradır. Dövlət tərəfindən qiymətləndirilir. Qarlı bir gündə dostları ilə xeyli düşməni əsir götürərək geri qayıdan Cahandar arxadan vurulur, lakin döyüş dostları onu yaralı vəziyyətdə götürə bilir. Ölümlə üz-üzə olan Cahandarı hospitala yerlşdirilir və Türkiyəyə göndərilir. Orda uzun müddət müalicə alır. Ən ağır əməliyyatdan keçən igid əsgər həkimlərin sayəsində sağalaraq vətənə qayıdır. Oğul yoluna göz tikən, ondan xəbər gözləyən ana yumağa dönür.

Müəllif oxucunu həyacanlandıran, düşmənə nifrət hissini artıran, döyüş ruhunu yaşadan səhnələri gözəl qələmə alıb. Sonda dövlət tərəfindən sağalaması və böyük qiymət alması, qəhrəman kimi vətənə dönərək sağ-salamat anasına qovuşması epizodları insana xoş təsir bağışlayır. Bu bir qəhrəmanlıq salnaməsidir. Belə əsərlərin yazılması bir tarixi hadisədir.

“Nəsihətnamə” əsərində Nizami ruhu var. İnsanlıq məktəbi, isanlıq elmi bu əsərdə gözəl təsvir olunub. Həzrəti Davudun qardaşlarla söhbətində böyük bir nəsihətin, elmin mücəssiməsi var.

*Heç kimsədən rüşvət alıb ağlatma.*
*Heç vaxt əqidəni paraya satma.*
*Ticarət işində olmalısan saf*
*Alanda, satanda olasan şəffaf,*
*"Ağac bar verəndə başını əyər",*
*Təkəbbürlü insan özünü öyər.*
*"Əsil insan əsilliyin itirməz,*
*Biəsillər ömrü başa yetirməz".*

Əsərdə dəyərli nəsihətlər çoxdur. Bu ibrətamiz məsələlər insanı duyğulandırır, onu həyatın gözəlliyini dərk etməyə sövq edir. Əslində həyati dərk insanlıq elminin təcəssümüdür. Hər bir misrasında kamil insanın yetişməsi üçün fikrin və düşüncənin aliliyi önə çəkilir. İnsanlıq məktəbinin, əxlaqi dəyərlərin bu əsərdə özünə yer tapması müəllifin mükəmməl biliyə, dərin düşüncəyə, uzaqgörənliyinə malik olmasına bir sübutdur.

"Bir tikə çörək" əsərində müharibə illərinin ağrılı, əzablı günləri təsvir olunur. İnsanların çörəkdən koruq çəkməsini, müharibənin insanlara verdiyi acı nəticələri, xəstəlikdən, aclıqdan ölüm anlarını nənəsinin danışıqlarından bəhrələnən müəllif oxucuya çatdıra bilib. Vətənin ağrılı, acınacaqlı günlərini ürəkağrısıyla qələmə alıb. Nənəsinin müharibə dövründən bəhs etdiyi bir söhbəti qələmə alan müəllif bir daha xalqımızın müharibə zamanı çəkdiyi zülm-zilləti önə çəkib. Bir neçə qadının kənardan çörək bilib talanın üstünə yüyürdüyü səhnəni ürək yanğısıyla təsvir edib. Müharibə milyonlarla insanın ölümünə fərman verdi, milyonlarla insanların sevgisini, arzusunu, ömrünü yarım-

çıq qoydu. Məhz bu olayları əsərində şərh edən S.Abasbəyli nənəsinin diliylə çörəyə hörmət, onun qədrini bilmək prinsiplərini önə çəkib.

"Axırıncı güllə" əsərindəki süjet xətləri danışıq əsasında verilib. Babasıın və onun dostlarının sövet hökuməti qurulan zaman xalqın etiraz səsindən, narazılığından, onların bu quruluşa qarşı üsyanından bəhs etməklə bərabər ermənilərin ruslarla birləşərək torpaqlarımızda etdiyi soyqırımdan ətraflı və olduğu kimi danışması tariximizin qanlı safifəsidir. O zaman azadlığını, müstəqilliyini heç nəyə dəyişmək, imperiyanın qulu olmaq istəməyən xalqın üsyanı babaların dilindən gözəl verilib. Vətənin azad nəfəsini qoruyan, onun müstəqilliyini əldən vermək istəməyən xalqın bir çox mərd oğulları qaçaq düşdü. Nikolayın devrilməsi, inqilabın başlanması dövründə ermənilərin ruslarla yaxşı vəzifələrdə yer tutaraq daxildə Azərbaycan türklərinə qarşı antikompaniyası, iyrənc hərəkətləri aydın təsvir olunub. Tariximizin qısa xronologiyasında bunu aydın şərh etmək istəyirəm.

Hər brimizə gün kimi aydındı ki, 200 ildən artıqdır erməni siyasətbazlarının, insanlıqlarını itirmiş erməni-rus hərbi birləşməsi "Böyük ermənistan" yaratmaq uğrunda mənfur ideyalarını həyata keçirmək üçün Azərbaycan torpaqlarında Qafqaz türklərinə misli görünməmiş faciələr törətmişlər. Onlar dənizdən dənizə "Böyük Ermənistan" yaratmaq niyyətini reallaşdırmaq üçün Çar Rusiaysının vasitəsi ilə İrandan və Türkiyədən erməniləri kütləvi şəkildə köçürmüş, Qafqazda, o cümlədən Azərbaycanda onların məskunlaşamasına nail olmuşdur. Məhz 1 milyon 300 min ermənininin Qafqazda yerləşdirilməsi mərhələnin başlanğıcı

idi. 1905-ci ildə onların yaratdığı “daşnaksutyun” partiyası erməni əhalisi arasında geniş təbliğat aparmaq məqsədi ilə Qafqaz türklərinə qarşı nifrət hissi oyadır, öz mənfi məqsədlərinə çatmaq üçün hər cür plandan istifadə edliridi. Bu məqsədlə 1905-ci ildə Bakıda, Gəncə, Qarabağ, Zəngəzur, İrəvan, Şirvan, Naxçıvan mahallarında bu qırğınlar davam etdi.

Beləlikə, 75 kənd yandırıldı,3431 ailə hadisələrin qurbanı oldu. Yaxşı silahlanmış erməni daşnakları 1915-1918-1920-ci ilədək Bakıda, Qubada, Şamaxıda, Naxçıvanda, Gəncədə, İrəvanda bu soyqırımı həyata keçirməyə davam etmişlər.

Tarixin hansı səhifəsini varaqlasaq ermənilərin Anadolu və Azərbaycan türklərinə qarşı apardığı terrorla rastlaşarıq. 1918-ci ildə isə Azərbaycanda ilk demokratik dövlət qurulan zaman ermənilər Qarabağda üsyan qaldırmış, dinc əhalini öz yuvalarından didərgin salmışdır. O zaman Ağdam-Əsgəran-Şuşa yolunu ermənilər bağlaya bilmişdir. Müstəqil dövlətin hərbi generalı Həbib bəy Səlimov beş polku birləşdirərərk Ağdam istiqamətində ermənilərin üstünə yeritmişdir. Onlar yalnız bundan sonra qorxaraq geriyə çəkilmişdi.

1988-ci ildə ermənilər Qarabağda yenidən üsyan qaldırdı. Bu üsyan dalğası sürətlə böyüməyə başladı. Və bütün Qarabağı cənginə aldı. Minlərlə oğullarımız vətənin müdafiəsinə qalxdı. 1994-cü ildə “Atəşkəs” elan olunana qədər doğma torpaqlarımızda oğullarımızın qanı töküldü, soydaşlarımız öz dədə-baba yurdundan qaçqın-köçkün oldu.

Bütün bu faciələri, soyqırım siyasətini həyata keçirən

daxili və xarici düşmənlərimiz, ermənipərəst qüvvələr xalqın, millətin qanına susamaqla onların məhvinə durdu. Məhz bu olan qanlı tarixi hadisələri yana-yana qələmə alan şair haqsılığa qarşı öz haqq səsini ucaldır, vətəndə olan bu olaylara son qoyulmasını tələb edir.

Onun Qarabağa, işğal olunmuş torpaqlarımıza həsr olunmuş şeirlərində bir ziyalı harayı var. "Torpaqları işğal olan Qarabağ" adlı şeirində sanki ana şəhid balasına laylay çalır, agu deyir. "İnsanlar sevincdən ağlayaydı kaş" adlı şeirində hər kəsi haqqa-ədalətə çağırması qəlbinin üsyanı olmaqla bərabər insanları qəflət yuxusundan oyanmağa səsləməsi dediklərimizə əyani sübutdur. Kaş ki, hər bir insanın qəlbində bu arzular cücərəydi...

Mən S.Abasbəyli haqqında, onun insanlığını, mədəniyyətini, yaradıcılığı ilə şəxsiyyəti arasındakı bütövlüyü birmənalı olaraq qeyd edirəm. Bu hər yaradıcıda özünü doğrultmur. Belə ziyalı yazarlarımızla fəxr edirik. Arzu edirəm ki, onun qürbətdən gələn səsi vətəndə özünü doğrultsun. Onun səsinə səs verilsin. Həyatın amansızlıqlarını yaşayan və ona sinə gərən şairimizin qəriblikdə döyünən vətən səsli ürəyi qarşısında baş əyir, ona sağlam yaradıcılıq ömrü arzulayıram.

**Nəcibə İLKİN**

*"Azad qələm" qəzetinin və "Ali Ziya" jurnalının baş redaktoru, AYB-nin, AJB-nin üzvü, şair-publisist, Prezident mükafatçısı*

# ŞEİRLƏR

# Əziz Allah

Danışanda sözlərimdən irəli,
Dünyaların həm axırı, əzəli,
Həyatımın son anları, əvvəli,
Əziz Allah, ya Mühəmməd, ya Əli.

Dünyaya gətirdi islamiyyəti,
Yaydı aləmlərə ilahiyyəti,
Bəxş etdi bizlərə imamiyyəti,
Əziz Allah, ya Müəmməd, ya Əli.

Qurani-Kərimi yetirdi bizə,
Namazı, orucu hər birimizə,
Özün yaxın etdi ürəyimizə,
Əziz Allah, ya Müəhmməd, ya Əli.

Həmzə idi orda aslan biləkli,
Zənci Bilal, Abuzərdi ürəkli,
Əmmar Yasir Pəygəmbərə gərəkli,
Əziz Allah, ya Mühəmməd, ya Əli.

İmam Həsən məzlumlarin rəhbəri,
İmam Hüseyn həqq yolunun sərvəri,
Hər ikisi Peygəmbərin bənzəri,
Əziz Allah, ya Mühəmməd, ya Əli.

Peygəmbərin ürəyilə döyünən,
Öz canını fəda edən, söyünən,
Əli idi həqq donuna bürünən,
Əziz Allah, ya Mühəmməd, ya Əli.

Sübhan haqdan dilər yaxşı dünyanı,
Gözləyir düzələ həqqin səhmanı,
Qalib gələr Peygəmbərin imanı,
Əziz Allah, ya Mühəmməd, ya Əli!

# QARABAĞ

Əsir oldun torpağında, elində,
İnləyirsən düşmənlərin əlində,
Uzaq düşdü Vətənin də, dilin də,
Vətənimdə yanan, solan Qarabağ!
Torpaqları işğal olan Qarabağ!

Bazarda hərraca qoydular səni,
Çox asan yollarla tutdular səni,
İşgəncə, əzabla soydular səni,
Şərəfsiz satqınla dolan Qarabağ!
Torpaqları işğal olan Qarabağ!

Torpağını tamam tutdu düşmanlar,
Getdi əlimizdən kəndlər, rayonlar,
Didərgin salındı minlər, milyonlar,
Gülşənləri viran qalan Qarabağ!
Torpaqları işğal olan Qarabağ!

Məktəblər dağıldı, evlər söküldü,
Məsçidlər, kümbəzlər yerə töküldü,
Tarix saxtalaşdı, bir-bir gömüldü,
Muzeyləri yerlə yeksan Qarabağ!
Torpaqları işğal olan Qarabağ!

Qəbristan qazılır, əkilir "haylar"
Köhnə qəbirlərə çəkilir "xaçlar",
Sonra Avropadan qışqırır haylar,
"Bizik ibtidai insan!" Qarabağ!
Torpaqları işğal olan Qarabağ!

Gül-çiçək bitirən o torpaqlarda,
Şöhrəti yayılan buz bulaqlarda,
Qartallar oylağı uca dağlarda,
Yadlar edir səni talan Qarabağ!
Torpaqları işğal olan Qarabağ!

Xankəndi, Laçınım, Şuşam, Xocalım,
Xocavənd, Kəlbəcər, gözəl Qubadlım,
Ağdamım, Fizulim, əsir Əsgəran,
Cəbrayıl, Quşçular, bir də Zəngilan,
Çəkilsin başından duman Qarabağ!
Torpaqları işğal olan Qarabağ!

Meşələr qırılır Laçın, Şuşanda,
Aparıb satırlar qonşu məkanda,
Torpaqlarım qalıb, qalıbdır darda,
Vətənimin yurdu viran Qarabağ!
Torpaqları işğal olan Qarabağ!

Şərurla, Zəngəzur, əvvəl İrəvan,
Aldılar, oldular bu işdən rəvan,
Mehri ilə ayrı düşdü Naxçıvan,
Dığalar əlində yanan Qarabağ!
Torpaqları işğal olan Qarabağ!

Naxçıvana diş atdılar, tutmadı,
Vuruşdular, qüvvələrı çatmadı,
Qıcıdılar dişlərini, batmadı...
Türklər əl uzatdı haman, Qarabağ!
Torpaqları işğal olan Qarabağ!

Adın dəyişdilər öncə Xankəndin,
Dəyişildi şəhər, rayon, həm kəndin!
Məkirli bir siyasətlə üzləşdin!
Güzəşt etdin, getdi zaman Qarabağ!
Torpaqları işğal olan Qarabağ!

İtə yal atarsan quyruq bulayar,
Dilini çıxardar, ayaq yalayar,
Verməsən mırtdanıb sənə ulayar,
Daha bəsdir oyan, oyan Qarabağ!
Torpaqları işğal olan Qarabağ!

Gəzdim Qarabağın Cıdır düzünü,
Yada saldım Natəvanın sözünü,
Xatırladım mən Vaqifin özünü,
Zakirin vətəni sınan, Qarabağ,
Torpaqları işğal olan Qarabağ!

Şairlər məskəni, o Qarabağda,
Böyük şəxsiyyətlər yetişib orda,
Üzeyirin ruhu qalıbdı darda,
Köçərlini yada salan Qarabağ!
Torpaqları işğal olan Qarabağ!

Seyr etdim Şuşanı, uca dağını,
Vurğunun gəzdiyi saf bulağını,
Meyvəli, çiçəkli, barlı bağını,
Haylar indi gəzir, aman Qarabağ!
Torpaqları işğal olan Qarabağ!

Şəhid oldu yüzlər, minlər, axdı qan,
Qalx ayağa Oğuz elim! – Qalx, oyan!
Zəlil olsun torpağımda qoy düşman!
Buxovlardan azad olsun Qarabağ!
Ucalsın Şuşamda üç rəngli Bayrağ!

**2012, Kazan**

# YALAN AYAQ AÇIR GƏZİR DÜNYANI

Yalan ayaq açır, gəzir dünyanı,
Dost dostu aldadır, ogul atanı,
Əldə peşə edib çoxu yalanı,
Öldürür ürəkdə olan gümanı,
Yalan ayaq açır, gəzir dünyanı!

Azalıb ürəkdə inam, etibar,
Üzlərində həya, abır, ismət, ar,
Fikirləri qara, düşüncəsi dar,
Sözü düz insanlar söylə bəs hanı?
Yalan ayaq açır, gəzir dünyanı!

Kimə göstərirsən hormət ürəkdən,
Pis məna anlayır bunu gerçəkdən,
Papaqdan yan keçib tutur ləçəkdən,
Zamanın Sahibi qurar divanı,
Yalan ayaq açir, gəzir dünyani!

Xahişlə, minnətlə borc alır, gedir,
And içir qaytarram, inamla deyir,
Vaxt tamam olanda yox olur, itir,
Borc verən tapammır gedib ünvanı,
Yalan ayaq açır, gəzir dünyanı.

Düz söz eşidilmir, verilmir qiymət,
Dolaşır dillərdə, sevilir qeybət,
Təkəbbür, nadanlıq, bu bir müsibət,
Yalanlar bürüyüb hey asimanı,
Yalan ayaq açır, gəzir dünyanı!

Çəkilir aradan, gedir gözəllik,
Uzaqlaşıb, itib, qədim özəllik,
Yoxdu içimizdə daha əzəllik,
Satılıb insanlıq, yox din-imanı,
Yalan ayaq açır, gəzir dünyanı!

Çətindir ayırmaq düzü yalandan,
Hamısı eyni çür, hamısı insan,
Dilində, sözündə yoxdur bir nişan,
Unudublar vallah abır-həyanı,
Yalan ayaq açır, gəzir dünyanı!

Namərd tələsinə doğru tuş gələr,
Mərd çəkər əziyyət, o isə gülər,
Aldadıb “atmasa “sanki o, ölər,
Dost edib özünə onlar şeytanı,
Yalan ayaq açır, gəzir dünyanı!

Hər gün bir kədərlə görüşür ürək,
Ya da kor olasan həyatda gərək,
Yaramazlıq görüb biz necə dözək?
Bazarda hərraca qoyublar canı,
Yalan ayaq açır, gəzir dünyanı!

Şair! – Qartal uçar dağ zirvəsinə,
Enməyək nadanlıq səviyyəsinə,
Səs ver yaxşıların haray səsinə,
Allahım! – Zalıma vermə amanı,
Yalan ayaq açır, gəzir dünyanı!

# ADAM VAR Kİ...

Adam var ki, ürəklərdən silinməz,
Adam da var gələr, gedər bilinməz,
Adam var ki, adamlığın itirməz,
Adam da var, adamlıqdan naşıdır.

Adam var ki, unutmaz düz ilqarı,
Adam da var, tez atar dostu, yarı,
Adam var ki, könül açır vüqarı,
Adam da var, uzaq olsan yaxşıdır.

Adam var ki, heç vaxt yalan danışmaz,
Adam da var, nahaq söylər, utanmaz,
Adam var ki, verdiyi sözdən qaçmaz,
Adam da var, saxta işin naxşıdır.

Adam var ki, dilində söyüş olmaz,
Adam da var söyüşsüz bir an qalmaz,
Adam var ki, pay verər, geri almaz,
Adam da var şər, böhtanın başıdır.

Adam var ki, dürr tökülür dilindən,
Adam da var ki, beziyirsən əlindən,
Adam var ki, alqış alır elindən,
Adam da var pisə təməl daşıdır.

Adam var ki, səhər-axşam işləyir,
Adam da var işləmədən dişləyir,
Adam var ki, halalına baş əyir,
Adam da var haramlar sirdaşıdır!

# Mətərə çayı

Yazın axır ayında,
Gözəl səhər çağında,
Yolum düşdü dağlara,
Yaraşıqlı bağlara,
Gah əyləşdim, uzandım,
Özümü xoşbəxt sandım...
Təmiz dağ havasını,
Quşların yuvasını,
Körpəcə balasını,
Daşını, qayasını,
Bülbülün avazını,
Zümrüddonlu yazını,
Çiçəklərin ətrini,
Ağacların çətrini,
Gözəl səhər mehini,
Göy çəmənin şehini,
Ürəyimlə hiss etdim,
Gözəlliyı çox sevdim.
Gözlərim oldu rəssam
Ruhum da rəngli fırçam,
Meşəıələri, dağları,
Nə gözəl yaz çağları,
Bulaqları saf, gözəl,
Şəlalələr həm özəl.
Axır, şaqraq səsləşir,
Mətərədə* birləşir.

*Mətərə - kiçik dağ çayı

Çayın o tay, bu tayı,
Çətirlənib hər payı,
Ağacların xolları,
Çəpərləyib yolları,
Balıqlar çayda üzür,
Şair də gendən süzür...
Gözəldir hər bir ayı,
Payız, qışı, yaz, yayı,
Yoxdur elə bir məkan,
Gözəllikdə tay olan,
Razdal, fısdıq, tozağac*,
Qızlgöz, vən, dəmirağac,
İynəyarpaq, palıd, nil,
Göz oxşayır hey sahil,
Qəndələş, ulas, motal,
Can dərmanı dağda bal,
Portaxal, feyxoa, çay,
Çoxlu meyvə, xeyli say,
İstisu, Viləşçay da,
Yerləşir Masallıda...
Viləşçay su anbarı,
Sulayır rayonları,
Can verir yanan cana,
Gözəl Azərbaycana!!!

*Ağacların adları

# Uşaq gülüşləri

Kazan şəhərindən yetirdim salam,
Sizlərə ən şirin, ən duzli kəlam,
Ürəyimdə hər gün görürəm sizi,
Aygülü, Gülayı, bir də Çingizi.

Ananız Gülnarın eşidin sözün,
Atanız Rahidçün beşləri düzün.
Əsmərim, Xədicəm çağırır qonaq,
Hamımız sevinək, xeyli şad olaq.

Əliynən Fatimə gözləyir sizi,
Zeynəb də soruşur hər birinizi, .
Günəş də üfüqdən boylanır sizə,
Heç vaxt gəlməyəsiz nəzərə, gözə.

Gözəl təhsil alın, öyrənin sənət,
Nadanlıq, təkəbbür böyük qəbahət
Pislikdən, yalandan siz olun uzaq,
Qurmayın kimsəyə nə kələk, duzaq.

Həsənim, Leylamın, Zəhranın sizə,
Çox-çox salamı var hər birinizə,
Dədəniz Sübhanı dövrəyə alın,
Nənənin yanında sevinin, qalın.

Sizin səsinizlə quşların səsi,
Qarışsın, yüksəlsin qoy zənguləsi,
Uşaq gülüşünün qəhqəhəsindən,
Utansın bülbüllər öz nəğməsindən.

# Ay haramzada

Təhsil ocağını yoxlayan zaman,
Nöqsana göz yumub, ay rüşvət alan!
Qəbrini qazırsan təhsilin haman.
Sızlamır ürəyin, yanmır azca da,
Məhv etmə milləti, ay haramzada!

Tələbəyə pulla qiymətlər yazan,
Ağıl dünyasının quyusun qazan,
Şərəf-ləyaqəti paraya satan,
Alırsan rüşvəti tamam azada,
Məhv etmə milləti, ay haramzada!

Milləti məhv edib əzmək istəsən,
Əvvəl təhsilini gərək üzəsən,
Daxilin saxlayıb çölün bəzəsən...
Gəlin ey insanlar, yetişin dada!
Məhv etmə milləti, ay haramzada!

Olaydı hər yerdə kaş, “Asan Xidmət”
Özünə qazanıb milyonlar hörmət,
Onda içimizdən gedərdi rüşvət,
Güldürmə bizləri, güldürmə yada!
Məhv etmə milləti, ay haramzada!

Ürək sözlərini söylədi Sübhan,
Kamala yüksələr biliklə cahan,
Zülmətli gecədə yol, cığır salan,
Savadla çatarıq məqsədə, ada,
Məhv etmə milləti ay haramzada!

# Həkim

Xəstəyə şəfadır məlhəm ürəyin,
Ümidsiz gözlərə çıraqsan həkim.
Gülümsər gözlərin ümid yandırır,
Sən həyat çeşməsi, bulaqsan həkim.

Sən də bir əsgərsən əlində silah,
Dilindən düşməyir heç zaman Allah,
İşə tələsirsən hər gün, hər sabah,
Ürəklər qızdıran ocaqsan həkim.

Sənsiz bu dünyanın hər günü kədər,
Ölüm tüğyan edər, yaşamaq hədər,
Sevinc bəxş edirsən, hər axşam, səhər,
Bütün insanlara dayaqsan həkim!

Şirin sözlərindir xəstəyə dərman,
Xəstənin gülüşü sənə ərməğan,
Səni çox hörmətlə yad edir Sübhan,
Xalqın keşiyində oyaqsan həkim.

# Gətir

*(deyişmə)*

**Kirman Rüstəmli**
“Qara quzu” kababını soy gətir,
Pomidoru yanan oda qoy gətir,
Acı bibər şişdə qalsa tez yanar,
Sən bu üçün bir dəfəyə boy gətir.

**Z.Rüstəmov**
Ləzzət olur kabab, çayın qırağı,
Acı bibər, bir də sərin arağı,
Yığışıb dostlarla bir axşamçağı,
İsti fətir, bir azca da şor gətir.

**S.Abasbəyli**
Şair, ağsaqqalsan, içmə arağı,
Gəlib yetişibdir qocalıq çağı,
Sevinər düşmənlər, sevinər yağı,
Bulaq suyu, isti kabab, doy, gətir.

**Z.Rüstəmov**
Bulaq başı olsa meysiz, məzəsiz,
Dağlar da inciyib küsərlər mənsiz,
Dostları dəvət et, olma çarəsiz,
Hər birinin əhvalını sor gətir.

**S.Abasbəyli**
Məclislərdə yerim, izim, öz sözüm,
Vardır ürəyimdə hələ ki, dözüm,
Kimsənin yanında utanmır üzüm,
Beş quzunu birdəfəlik say gətir.

**Z.Rüstəmov**
Bulaq başı, sərin suyu, meşəsi,
Qırqovullu, maraqlı hər guşəsi,
Şairlərin yeyib içmək peşəsi,
Soyuq hava, dağ başından qar gətir.

**S.Abasbəyli**
Dünya etibarsız, yoxdur vəfası,
Günlər gəlib keçib, qalıb cəfası,
Araqdan korlanır insan kafası,
İçməyəni qardaşına tay gətir.

**Z.Rüstəmov**
Şərabla dostluğun yoxdur vəfası,
Bizə dəyər, ancaq onun xətası,
Gedir əldən insan əqli zəkası,
"Rusiyadan sarışın bir yar", – gətir,

**S.Abasbəyli**
At belində çox gəzmişəm dağları,
Gözəl yaraşıqlı yaşıl bağları,
Daha gedib, o cavanlıq çağları,
Şərabı yox, dostum mənə çay gətir.

**Z.Rüstəmov**
Əmlik quzu kababını çəkməyən,
Qartal kimi qayalara səkməyən,
Zamin kimi dost əzabı çəkməyən,
Öz bağından qardaşına bar gətir.

**S.Abasbəyli**
Dağ havası, isti kabab tanışdır,
Manqal üstə odun, ocaq alışdır,
Şair Zamin, yaş da ki, ahıl yaşdır,
Dağ havasın Sübhana sən pay gətir.

# Apardı getdi

Sevgilim inciyib getdi yanımdan,
Ruhum da ayrıldı qopdu canımdan,
Eşitmədi heç nə söz dəhanımdan,
Məni məndən alıb qopardı getdi,
Ürəyimi çəkdi, apardı getdi.

Məhəbbət olmasa yaşamaq çətin,
Əriyər ürəklər, olsa da mətin,
Sevgisiz önəmi yoxdur cənnətin,
Sevgi payımızı ayırdı, getdi,
Ürəyimi çəkdi, apardı getdi.

Yanında olanda vermirik qiymət,
Xırda qüsurlardan yaranır söhbət,
Əriyib yox olur, solur məhəbbət,
Məhəbbət dənizin o yardı, getdi,
Ürəyimi çəkdi, apardı getdi.

Hər gün axtarıram onu özümdə,
Sözləri canlanır, dinir sözümdə,
Gözünün izləri mənim gözümdə,
Sevgi dastanımı o cırdı, getdi,
Ürəyimi çəkdi, apardı getdi.

Onunla gəzməyə çıxırdıq qoşa,
Ürək sevinirdi, gəlirdi xoşa,
Tələbəlik dövrü çatanda başa,
Məhəbbət romanım qurtardı, getdi,
Ürəyimi çəkdi, apardı getdi.

**1976-Bakı, (arxiv)**

# Görüş anları

Necə də əzizdir, necə də şirin,
Sevdiyin gözəllə görüş anları.
Ürək döyüntüsü gəlir cövlana,
Sözlərim sözündə gülüş anları.

Gerçəyə çevrilir qurduğun xəyal,
Gözlər dilə gəlir, dilin olur lal,
Gözünə görünmür heç bir cah-cəlal,
Ruhum da özündə, gülüş anları.

Can alan işvəsi susdurur canı,
Baxışı, duruşu coşdurur qanı,
Gəl gəzək əl-ələ Azərbaycanı,
Gözlərim gözündə, görüş anları!

**Kazan-2006-ci il!**

# Gedəcək gözəlliyin

Gözəl! – Öyünmə gəl gözəlliyinlə!
Qaşların yay, kaman, dartılıb dara.
Başları döndərən özəlliyinlə,
Kipriyin ox olub, tuşlanıb hara?

Qapqara gözlərin çox gəlir xoşa,
O gözəl saçların, hey mənəm, mənəm.
Yanaqda xalların dayanıb qoşa,
Hay-həşir qopardır gərdəndə, sənəm.

Mirvari dişlərin bərq vurur öndə,
Yanağın oxşayır dağda laləyə.
Lal olur baxışlar, susur önündə,
Gülüşün bənzəyir bir şəlaləyə.

Bir mələksən, enmisən yer üzünə,
Çox da qurrələnmə, fanidir zaman.
Görənlər aşiqdir gözəl hüsnünə,
Gedəcək gözəllik, solacaq haman!

# Sənsiz

Sən getdin, günlərim zindanə döndü sənsiz,
Gülşənlərim soldu, viranə döndü sənsiz.

Sənli günlərimin bilmədim mən qədrini,
Həyatım dəyişdi, fəqanə döndü sənsiz.

Gecə-gündüz axtarıram, sorağındayam,
Göz yaşları həmdəm, leysanə döndü sənsiz.

Gül kimi açıldın, ətir saçdın hər yana,
Bir gün soldun, bağçam xəzanə döndü sənsiz.

Tərk etdin bizləri, çəkildin tənhaliga,
Dərd verdin Sübhanə, məcnunə döndü sənsiz.

# MƏNMİ GÜNAHKARAM, YOXSA Kİ, ZAMAN

***(İlk övladım İlkinin vaxtsız vəfatına! 28.07.2011.saat 11, 30-həyatımda ən amansız, ən qorxulu gün, 32-yaşı təzəcə tamam olmuşdu, xeyriyyəçi bir iş adamı idi)***

Ürəyim od tutur, yanır ocaqsız,
İşığım qaraldı, qaldım çıraqsız,
Dayağım qırıldı, qaldım dayaqsız,
Sənsiz tarimardı həyatım, aman!
Mənmi günahkaram, yoxsa ki zaman?

Dinclik nədi biləmmədim, gülmədim,
Bu ayrılıq hardan oldu, bilmədim,
Axı niyə həmin gecə ölmədim?
Həyatımi yazıb O böyük Rəhman!
Mənmi günahkaram, yoxsa ki zaman?

Sən idin ümidim, köməyim, arxam,
Nadanlar əlində qalıbdır yaxam,
Gəzirəm quruca, artıq mən yoxam,
Qaçıram hamıdan, oluram pünhan,
Mənmi günahkaram, yoxsa ki zaman?

Yaxşı əməllərin ellərdə gəzdi,
Bəlkə bəd nəzərlər üstünə əsdi?
Fələk həyatını büsbütün əzdi,
Günlərim dəyişib olubdur duman,
Mənmi günahkaram, yoxsa ki zaman?

Namazı, orucu ötürmədin sən,
Kimsənin minnətin götürmədin sən,
Həyatın olmuşdu laləzar, gülşən!
Bəlkə, plan qurdu hiyləgər düşman?
Mənmi günahkaram, yoxsa ki zaman?

Vağzalda namaza həmyoldaş oldun!
Gecikdin qatara, maşını buldun!
Bir anın içində dəyişdin, soldun!
Başıma daş yağdı, əzildim, haman,
Mənmi günahkaram, yoxsa ki zaman?

Körpə uşaqların atasız qaldı!
Başımın üstünü çən-duman aldı,
Zəhərli ilanlar, ürəkdən çaldı,
Üç körpənə kömək olsun Yaradan!
Mənmi günahkaram, yoxsa ki zaman?

# MƏNZUM MƏKTUB

**Çox hörmətli Sübhan müəllim!**

Sizin yüksək arzularınızın nəticəsi olan **"Peyğəmbərlər"** kitabınızı aldım. Kitabınızı şəxsən mənə ünvanladığınıza və öz dəsti xəttinizlə imza etdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

Uzun illər Peyğəmbərlərin həyatı ilə bağlı tarixi ədəbiyyatları və məqalələri mütaliə etdiyimə görə, Sizin böyük zəhmətin məhsulu olan "Peyğəmbərlər" əsəriniz mənim üçün çox maraqlı oldu. Etiraf etmək lazımdır ki, bu qədər böyük bir tarixi tarixi zamanları əhatə edən tarixi əsəri nəzmlə qələmə almaq üçün, qələm sahibindən bilik və istedadla yanaşı, eyni zamanda tükənməz səbr və təmkin, dözüm və hövsələ tələb olunur. Cənabı – Həqqin əvəzsiz rəhm və kəramətinə güvənməklə Siz, bu yaradıcılıq işini başa çatdıra bilmisiniz. Mən buna ürəkdən sevinirəm və Sizi səmimi qəlbdən təbrik edirəm.

Sübhan müəllim! Əlbəttə, mən "Peyğəmbərlər" kitabı haqqında olan sözümü və fikirlərimi ikinci məktubda Allahımızın mənə verəcəyi möhlət zamanı Sizə hökmən yazacağam. Ona görə də bu məktubda mən Sizə poetik və duyğusal düşüncələrdən söhbət açmaq istəyindəyəm.

Kitabınızın **442-ci** səhifəsində çap edilmiş **"Ünvanına yetişməyən məktub"** başlıqlı yazınız məni doğrudan da həyacanlandırdı. Ata qəlbinin bu qədər amansız dərdlərlə keçən illər ərzində mümkünsüz və mümkünlü çarpışmaları sözün əsl mənasında mənim özümü də sarsıtdı. Sizin keçirdiyiniz dözülməz hissləri bir anlığa ürəyimə, ciyərlərimə çəkəndə, özümün halsızlaşdığımı, çilik-çilik olduğumu hiss etdim. Düşündüm ki, mən Sübhanam... sətirləriniz gözlərimdə aləm zərrələri təki məni çulğadı, elə sandım ki, fəzaların boşluğundayam, xeyli müddət özümə gələ bilmədim...

Allah Sizə və Sizin yaxınlarınıza səbr və təmkin əta etsin.

Kitabınızı oxuyub qurtaran günün səhərn axşamı isə Sizə **“Günahkar mənəm, ya zaman”** şeirinizə cavab olaraq bir mənzumə yazdım. O mənzuməni yadigar saxlamağı Sizdən xahiş edirəm:

Sözlərin qəlbimdə od aldı yalqız,
Məni də yandırıb-yaxdı ocaqsız,
Dünyamı günahkar, bəşərmi haqsız?
Varlıq yaranandan sirləri ümman,
Günahkar nə sənsən, nə də ki zaman!

Kainat hüdudsuz – bilinməz səddi,
Olumlu ölümün de varmı həddi?
İlkini yanına çağırıb cəddi,
O ki cənnətlikdi, bilsən a Sübhan,
Günahkar nə sənsən, nə də ki zaman!

Səngiməz cahanın çərxi, təkəri,
Ürəyə sığarmı dərdi, kədəri?
Qəzadan zamanın yoxdu xəbəri,
Oğul itirməksə yamandır, yaman,
Günahkar nə sənsən, nə də ki zaman!

Gəlimli-gedimli dünya düzəldən,
Sirlərə vaqifdir bil ki, əzəldən,
Fələk dəyirmandır, insansa bir dən,
Ömrün başı üstün alırsa duman,
Günahkar nə sənsən, nə də ki zaman!

İlkin kərəm əhli olub həyatda,
İz qoyub qəlblərdə toyda, büsatda,
Peyğəmbər yatırsa torpağın altda,
Düşün ki, fanidən-fanidir cahan,
Günahkar nə sənsən, nə də ki zaman!

Min-min şah gedibdir, min-min hökmdar,
Fəqət əməlləri qalıb yadigar,
Dizi bükülməyən nərdi ruzigar,
Günəşin altından keçibsə oğlan,
Günahkar nə sənsən, nə də ki zaman!

Belədir təbiət, belədir haqdan,
Bir gün yarpaq solur, düşür budaqdan,
Çölləri ağzına alan sazaqdan,
Güllər nalə çəkir, qoparır tufan,
Günahkar nə sənsən, nə də ki zaman!

Deyirlər; Ay yerə enəcək bir gün,
İsrafil Suruyla dönəcək bir gün,
Günəş də axırı sönəcək bir gün,
Heç kəsin əqlində gülməsin güman,
Günahkar nə sənsən, nə də ki zaman!

Əşrəfin bəxtinə yetimlik düşüb,
Yel vurub, zirvədən düzə sürüşüb,
Gözlər dumanlanıb, qatlar bürüşüb,
İndisə ay Sübhan, qədd olub kaman,
Günahkar nə bizik, nə də ki zaman!!!

***Tarix elmləri doktoru, şair-yazıçı***
***Əşrəf Hüseynli Moskva şəhəri***
***06.11.2014-cü il***

**Haşiyə:** ***İlkin seydlər nəslindən olmasa da yazıdakı sətrlərdən mənə belə məlum oldu ki, öz rəhminə görə çox yüksək məqam sahibi olub. Belə şəxsləri Rəbb əl Aləm seyyidlərə bərabər tutar inşallah!***

# İNSANLAR SEVİNCDƏN AĞLAYAYDI KAŞ

Müəllim sinifdə edərək söhbət,
Söylədi bizlərə, nümünə, ibrət.
Dedi:-Uşaqlıqdan danışım sizə,
Qoy nəsihət olsun hər birinizə.
Yaşca məndən böyük idi qardaşım,
Mənim etibarlı dostum, sirdaşım.
Atamız da orta boylu bir kişi,
Sevərdi həmişə zəhməti, işi.
Təhsilə verərdi diqqət və dəyər,
Halallıqla yaşar, hər gün işləyər.
Atamın sözünə etmədi hörmət,
Qardaşım qazandı özünə töhmət.
Tənqiddən sonra da, edərək inad,
Baxmadı sözünə, ey dadi-bidad.
Atam əsəbləşdi, alaraq ağac,
Başladı vurmağa, olmadı əlac.
Qardaşım yıxıldı həmən torpağa,
Papağını qalxan etdi çomağa.
Atam xeyli vurdu, o da dinmədi,
Ata zərbəsinə o, hirslənmədi.
Anamız ağlayıb gəldi haraya,
Qollarını açıb girdi araya.
Agacı ataraq atamız getdi,
Həyətdə mərəkə qurtardı, bitdi.
Qardaşım hələ də, uzanıb səssiz,
Tərpənmir, qalmışdı o, hərəkətsiz.
Birdən papağını qaldırdı üzdən,
Gülüş çağlayırdı üzündən, gözdən.

Hamımız təəccüblə baxaraq ona,
O, da gülə-gülə öz papağına.
– Papaq xilas etdi inan, canımı,
Yoxsa yeyirdiniz siz ehsanımı.
Deyə, xeyli güldü, anam sevindi,
Hamının qəlbinə şadlıq ələndi.
O, güclü, qüvvəli, hündür bədənli,
İyirmi bir yaşda, kürəyi enli,
Məhəllədə hamı qorxardı ondan,
Bəs niyə o özü qorxur atamdan?
Qardaşımdan yenə orda soruşdum!
Atamın ardınca bir xeyli coşdum.
– Bəs niyə ağacı ondan almadın?!
– Niyə atamızın qolun burmadın?!
Qardaşım burnuma vuraraq çırtma,
Dedi: – Sən burnunu hər yerə soxma!
– Hələ ki, uşaqsan, böyü, bilərsən!
Atanın gücünü onda görərsən!"
Qonşular, anam da, hamı gülüşdü,
Bu hadisə sonra yadıma düşdü.
Qardaş böyüklüyün sonra anladım,
Onun hərəkətin nümunə sandım.
...Ərkivan kəndinin təhsil ocağı,
Hamıya açmışdı geniş qucağı,
Əli müəllimin müdrik sözləri, *

---

**Masallı, Ərkivan orta məktəbin müəllimi işləmiş, "Qırmızı Əmək Bayrağı" və "Şərəf Nişanı" ordenli, SSRİ Maarif əlaçısı, Azərbaycan Respublikasının Maarif əlaçısı Əli Bağırzadənin biz şagirdlərə danışdığı əhvalatdan, 1971*

Köçdü yaddaşlara, qaldı izləri.
Mövzunu dəyişək, kənara çıxaq,
Bu gün ki, zamana, həyata baxaq.

***

Söyləyim sizlərə gerçək bir həyat,
Hazırki zamanda, olmuş əhvalat.
Ata öz oğlunu danlayıb durur,
Dözməyib üzünə bir sillə vurur.
Oğul əsəbləşir, hey coşub-daşır,
Hərəkət, sözləri sərhəddi aşır.
Qapını çırparaq, evin tərk edir,
Qatara minərək xeyli yol gedir.
Atasi, oğluna göndərir xəbər,
-Qayıt gəl evinə, ay oğul yetər!
Atanın sözləri cavabsız qalır,
Başının üstünü çən-duman alır.
Günlər, illər keçir, dəyişir zaman,
Ata lap qocalır, bel olur kaman.
Ana çox darıxır, ağlayır hər gün,
Oğul həsrətiylə yanır büsbütün.
Yenə də edirlər, sifariş, soraq,
Oğlunun yerini verirlər uzaq.
Sifariş göndərir taniş-bilişdən,
Etina etmir o, qaçır görüşdən.
Atanın əlindən düşür ağacı,
Ana xəstələnir, oğul möhtacı.
Gözləri qapıda, hey verir soraq,
Oğul atasına yazmır bir varaq.
İşləyir, evlənir, ailə qurur,
Uşaq gülüşləri evinə dolur.

Maşın da alır, sevinir, gülür!
İçindən ataya nifrət süzülür!
Cavankən atanın vurduğu sillə,
Getdikcə alışır, sanki bir güllə.
Getmir yaddaşından ata silləsi,
Unudulub çoxdan ananın səsi.
Oğul rus qızıyla olaraq həmdəm,
Ailə qurmuşdu onunla bu dəm.
Bir oğlu var idi, pasportda, İvan,
Atası oğlunu çağırır: – Aycan!

* * *

Ata xəstələnir, düşür yatağa,
Durub gəzə bilmir, qalxmır ayağa.
Gözlər zəifləyir, açılmır daha,
Ana, hey yalvarır gözəl Allaha.
Eşitmir kimsəni, dinləmir xahiş!
Dəyişir hərəkət, dəyişir yeriş!
Məclisdə danışır ana Vətəndən,
Valideyn-övlad məhəbbətindən.
Bir ata, bir ana orda can verir,
Oğlun soraqlayir, ürək qan verir.
Dedilər: – Kinli olma, yubanma get!
Ölüm namazına heç olmasa yet!»
Ağsaqqal da getdi, eşitmədi, O!
Dosta da etina heç etmədi, O!
Ata gözləyirdi son kərə görsün,
Onu qucaqlayib üzündən öpsün.
Getmədi övladı, getmədi heyhat!
Qəribə işlərin olurmuş həyat!
Ata, can üstündə qapıya baxdı,

Onun gözlərindən damcılar axdı.
Gözləri qapıda həyatdan getdi,
Həyat tarixçəsi oğulsuz bitdi.
Özgə çiyinlərdə getdi məzara,
Ana xəstələndi, düşdü azara.
Ərinin yoxluğu, övladı nankor,
Gözləri olmuşdu ağlamaqdan kor,
Üzündə iztirab, ürəyində qəm!
Qapıya baxırdı gözlərində nəm!
Nisgilli ürəyi dayandı, durdu,
Ürəyi son dəfə oğulsuz vurdu.
O da yoldaşı tək oğulsuz öldü,
Dərdini-qəmini içində böldü.

***

Mən də öz sözümü söyləyim heyhat,
Hərəyə bir cürə yazılır həyat.
Bir loxma çörəkçün düşürük iraq,
Doğmadan, vətəndən, hər şeydən uzaq.
Ürəyimiz gah ordadır, gah burda,
Ürək sizildayır, qalıbdır darda.
Ölüm haqq işidir, dəyişir zaman,
Oğul, yas yerinə çatışmır haman!
Uçağa bilet yox, necə biz çataq?
Dərdə, dərdimizi bölüşək, qataq!
O anda çatırıq, ya can üstədir,
Ya da ki, köçübdür qəbr evindədir.
Quran, yasin, üçü, yeddisi, qırxı,
Fırlanır dəyişir, həyatın çarxı.
Yenə təkrar olur, həyat və ölüm,
Dəyişir nəsillər, dəyişir köçüm.

Baş ağrıyır, diş ağrıyır bilən yox,
Sahibsiz qalıbdı, məzar gələn yox.
Bir tikə çörəkçün düşmüşük çölə,
Həsrət qalmışıq biz, obaya, elə.
Hamı bir dərddədir, hamı bir gündə,
Yaxşı həyat eşqi alıb cənginə,
Uymuşuq həyatın bu ahənginə.
Maddiyyat hər şeyi axı həll etmir,
Mənəvi qidamız onlara yetmir.
Bir yerdə olaydı qohum-əqraba,
Qalmayaydı evlərimiz xaraba.
Həsrətdən gözlərdə olmayaydı yaş,
İnsanlar sevincdən ağlayaydı kaş!

# POEMALAR

# ANA FƏRYADI

*(Təkrar nəşri)*

**(Şəhidlərimizin ruhuna ithaf olunur!)**

(2016-ci ildə Bakıdan Kazana üçurdum. Yanvar ayı idi. Gözləmə salonunda təsadüfən iki yaşlı qadının yana-yana danışıqlarını eşitdim. Başqasının danışığına qulaq asmaq düz olmasa da, yaxında olduqları üçün istər-istəməz dinləyirdim. Söhbət Qarabağdan, şəhid ailəsindən gedirdi. Artıq mənim də gözlərim dolmuşdu. Kazana gələndən sonra da, eşitdiklərim məni rahat buraxmadı. Onların kimliyini soruşa bilmədim. Bu mənzərə məni, Şəhidlərimizin ruhuna «Ana Fəryadı» – poeması yazmağa sövq etdi.(adlar şərtidir)

Çoxdandı oğlundan gəlmirdi xəbər,
Ana, əzab çəkir ondan bixəbər.
Qapının önündə qurmuşdu bardaş
Sanki, ürəyindən asılmışdı daş.
Əlləri dizində düşünür ana,
Ürəyi rahatlıq vermirdi ona.
Ana, fikirləşir keçmiş günlərin
Gözlərini yumur, düşünür dərin...
Heç vaxt əyilməmiş düşmənə, yada,
O, keçmiş günlərin salaraq yada...
Sağ idi o zaman həyat yoldaşı,
Vərəqlənir bir-bir onun yaddaşı...
Sevib-sevilərək qurdu ailə,
Şad xəbər yayıldı obaya, elə.
Aylar ötdü ... Oğul anası oldu,
Ananın sevincdən gözləri doldu.

Ailə sevinib çox şad oldular,
Adına Cahandar adın qoydular.
Xoşbəxtlik onlardan tez üz çevirdi,
Ölüm, kabus kimi özün yetirdi.
"Həzər pis qonşudan"deyib ozanlar,
Vətənə soxuldu yağı düşmanlar.
Doğma ata yurddan qovuldu onlar,
İşğal olundular bir-bir rayonlar,
Öldürüldü, yandırıldı, kəsildi,
Dirilər, ölülər təhqir edildi.
Evlər, abidələr bir-bir talandı,
Xalqımın əfqanı göyə dayandı.
Quduzlar əlində qaldı Qarabağ,
Əfi ilan səni çaldı, Qarabağ!
Siyasətə qurban getdi Qarabağ!
Neçə ürəklərə çəkildi bir dağ!

***

Yaşlı anasını, körpə oğlunu,
Sevib-sevildiyi ürək dostunu,
"Allaha əmanət verirəm", – dedi,
Cəbhəyə getməyə o, qərar verdi,
Könüllü cəbhəyə yollandı əri,
Aləmə yayıldı onun hünəri.
Məktub göndərərdi, tez-tez cəbhədən,
Onların keyfini sorardı hərdən.
Məktubun arası birdən kəsildi,
Ananın qəlbinə min fikir gəldi.
Qapıya baxırdı gözləri nəmli,
Günlərin sayirdi, ürəyi qəmli.
Ancaq ki, gəlmirdi oğlundan xəbər,

Yatmırdı... Açılır gözündə səhər.
Nəvəsi Cahandar, tez-tez sorardı,
Atası Şamxalı xəbər alardı,
Nənəsi, uşaqla deyib gülərdi,
Bağçada gəzdirib, əyləndirərdi.
Gizlində göz yaşı axıdır ana,
İztirab rahatlıq vermirdi ona.

***

Rayon işçiləri, beş nəfər əsgər,
Girərək həyətə, üzlərdə kədər .
Qapını yavaşca onlar döydülər,
Həmən, Cahandarı gələn gördülər.
“Yəqin atam gəldi!” – Çığırdı, heyhat!
Gözlərində sanki, qərq oldu həyat…
Uşağın üzündə gülüşü söndü,
Kədərli baxışla geriyə döndü.
Ananın bənizi saraldı, soldu,
Qara bulud kimi gözləri doldu.
Sevilin əllri titdrədi, əsdi,
Sanki ürəyini bir şaxta kəsdi.
Gələnlər dillənmir,  susaraq baxır,
Onların gözündən hey yağış axır.
Uşaq tez dilləndi: – Atam hardadır?
O da bir əsgərdir, bəs hayandadır?
Uşaq hey danışır, bilmirdi susmaq,
Gəlinin üzündə əsirdi yaşmaq.
Ana danışmırdı, sanki, bir heykəl,
Cürət etməyirdi toxuna bir əl.
Dövlət adamları arxada durmuş,
Onların dodağı, dili qurumuş,

Kimsədə cəsarət yox danışmağa,
Ana fəryadına qulaq asmağa.
Komissar, özündə taparaq qüvvət,
Ananın önündə baş əydi əlbət!
Əllərin qaldırıb qaşının üstə,
Anaya hesabat verdi ahəstə:
– Başınız sağ olsun, müqəddəs ana,
Komissar başını əyərək ona:
– Oğlun şəhid oldu, o, bir qəhrəman,
Düşmənə bir anlıq vermədi aman.
Ana yerə dəydi ağır xəbərdən,
Qaldırdılar onu ehmalca yerdən.
O, durdu, dikəldi, dik tutdu başın,
Sildi əlləriylə axan göz yaşın.
Camaat eşidib, gəlir «sel»kimi,
Bəd xəbər bürümüş orda aləmi.
Gəlin, Cahandarı özünə sıxdı,
Göz yaşı leysan tək üzünə axdı,
İçin-için, hönkür-hönkür ağladı,
Quşlar da havada qanad saxladı.

***

Ana, öz gəlininin tutdu əlindən,
Körpə Cahandarın öpdü telindən.
Başını qaldırdı, baxdı və susdu…
Gözləri yol çəkdi, dayandı, durdu.
Birdən dilə gəldi, danışdı ana...
Qulaq kəsildilər hamısı ona…
– Vətən üçün şəhid oldu tək balam,
Ürək alovlanır, yanıram tamam.
Sevib-sevildiyi həyat yoldaşı,

Körpə balasının vardır on yaşı…
Oğlum ürək parçam, əzizdir mənə,
Arxa çevirsəydi, əgər düşmənə.
Südümü,  haqqımı halal etməzdim,
Onu əzizləyib, oğlum deməzdim.
Ana, cənazəyə yaxın dayandı…
Başını dik tutdu, ürəyi yandı!
Əyilib alnından öpdü, oxşadı!
Şamxallı günlərin andı, yaşadı…
Camaat, şəhidlə vidalaşdılar...
Onu, son mənzilə yola saldılar!

***

Bir tirin altında qaldı üç nəfər,
Şamxalsız günləri keçirdi kədər.
Camaat önündə şax dayansa da,
İçində alışıb, gizlin yansa da,
Heç kəsə əymədi Ana, qamətin,
Qüruru özündən dayandı mətin.
Qəlbi yaralandı, dərd oldu pünhan,
Gözlərində yandı, qaraldı cahan
Hiss etdi yaşayır son günlərini,
Sildi dəsmalıyla o, gözlərini.
Sevilin əllərin alıb əlinə,
Məlul-məlul baxdı, bədbəxt gəlinə.
İstəkli nəvəsin öpdü üzündən,
Göz yaşı süzldü yenə gözündən.
Cahandar söylədi: – Nənə, ay nənə!
Dur bir az gəzişək, bura gəlsənə.
Agacların diblərini götürdüm,
Sənin tapşırdığın işləri gördüm.

Ay nənə, beş aldım riyaziyyatdan,
Əla cavab verdim ədəbiyyatdan.
Dur gedək, bir azca sevinək, gəzək,
Bağçada oxuyan quşları süzək.
Onların cəh-cəhi səsləyir bizi,
Bağçaya çağırırlar ay nənə sizi.
Yaşlı ana köks ötürdü dərindən,
Öpdü Cahandarın körpə əlindən.
– Əziz körpə balam, qulaq as mənə,
Səni dünya qədər sevən nənənə.
Dünya yaranandan üyüdüb tökür,
Bir yandan yaranır, bir yandan sökür.
Həyatda sonsuzluq olsaydı əgər,
Dünyamız bizlərə yetərmi məgər?
Hər kəsin nəsibin Allahdır yazan,
Allahdır her şeyi yaradan, yozan.
Külli-aləm ondan alır pərvəriş,
Tək bircə Allahdır verən göstəriş.
O, hər şeyi görür, edir imtahan,
Axirət evinə möhtacdır insan.
Kədərli işləri görəndə, haman,
Qəm-qüssə bürüyür bizləri yaman.
Ən gizli sirlərə hakimdir Xuda,
Hər şeyin nizamın veribdir, O da!
Həyatda qardaşdır sevinclə kədər,
Onları ayırmaq hədərdir, hədər!
Atan, şəhidliyə ucaldı, yetdi,
Allah dərgahına üzü ağ getdi.
Mənim də həyatım yetişib sona,
Arzumdur ki, tez qovuşam atana.
Ana, bir ah çəkdi, gözləri doldu...

Nəfəs ağırlaşdı, bənizi soldu:
– Atanın adına gətirmə xələl,
Həyatına yazılmasın pis əməl.
Gəlini Sevilin tutdu əlindən,
Ağır-ağır nəfəs aldı dərindən.
– Cahandarı, səni, əziz Allaha,
Tapşırıb gedirəm uca Dərgaha!
Kimsəyə əyilmə, namusla yaşa,
Pis söz deyilməsin adına, haşa!
Çətinliklə söylədi o, son sözünü,
Əbədi həyata yumdu gözünü!

***

Kədər-qəm üzürdü Şəhla ananı,
Oğulsuz dərd oldu ona hər anı.
Şamxalsız yaşamaq ona çox çətin,
Bu dərdə dayanıb dözsə də mətin.
Ərini cavankən itirən ana,
Ömrünə qəm-qüssə gətirən ana...
Oğluna bağlayıb ömür-gününü,
Şükr etdi görəndə toy-düyününü.
Şamxala həsr etdi öz həyatını,
Min yerdən susdurdu tale, baxtını.
Həyat çox amansız oldu anaya,
Bu mələk simalı, nazlı sonaya.
İndi də oğlunu əlindən aldı,
Ananın qəlbinə od-alov saldı.
Həyatın amansız bu gərdişinə,
Partladı ürəyi dağıldı sinə.
Kimsəsiz qaldılar nəvəylə gəlin,
Həyat qəribədi, dostlar siz bilin!

Sevil tək qalmışdı...Ata-anası,
Doğmaları, həm qohum-əqrabası,
Xocalı işğal olunan zaman,
Qətlə yetirmişdi o vəhşi düşman.
Erməni cəlladlar susamış qana,
Min əzab vermişdi hər bir insana.
Nəsildən tək qalmış biçarə Sevil,
Onun da həyatı olmuşdu zəlil.
Dörd divar içində qaldı tək ana,
Körpə balasıydı həmdəmi ona.
Günlər keçir, aylar, illər dolanır,
Dərdinin üstünə dərdlər qalanır.
Cavan qəlbi dözə bilmir bu dərdə,
Şamxalsız günləri keçir pəjmürdə.
Bütün əzizləri öldürülmüşdü,
Həyatda gözüylə nələr görmüşdü..
Üzündə qırışlar, gözlərində qəm,
Balasıydı ona pasiban, həmdəm,
On altı yaşına çatmışdı yaşı,
Balasıydı həm oglu, həm qardaşı,
Yaxşı oxuyurdu, ədəb-ərkanlı,
Atası bənzəri, gövdəli, canlı...
Xəyala dalardı hər səhər, axşam,
Əriyib son olar, yanarsa bir şam,
Anası görürdü dərd çəkir övlad,
İstədi danışsın, etsin onu şad,
Oglunun üzündən öpdü, oxşadı,
Gülərüzlə o, söhbətə başladı...
– Fikirlə, xəyalla, gedən qayıtmaz,
Göz yaşıyla, aglamaqla iş aşmaz,
Allahdır hər şeyin yaxşısın bilən,

Odur fərman verən, yaradan, ölən.
İmandır, Vətənə keçəsən candan,
Şəhidlik şərbətin içəsən camdan.
Vətən keşiyində durmasa əsgər,
Vətəni qorumaq olarmı məgər?
Atan, şəhidliyin şərbətin daddı!
Yüksək bir məqama yetişdi, çatdı.
Xalqımız qəhrəman deyir atana,
Nəsib olmaz hər yerindən durana.
Ana, balasını görəndə gülür,
Onun gözlərindən sevinc süzülür.
Tək qalanda, zarı -zarı ağlayır...
Onun gözlərində leysan çağlayır.
Şamxallı günlərin salır yadına,
Ağı deyir yana -yana adına...
Toplayıb özündə inam, cəsarət,
Gül-çiçəklə edir onu ziyarət,
Məzarla danışar, söhbət edərdi,
Cahandar haqqında bilgi verərdi.
Göz yaşıyla suvarardı qəbrini,
Yana-yana söyləyərdi dərdini:
– Niyə daş parçası, niyə soyuqsan?
Sən bu soyuqluğu hardan almısan?
De niyə susursan, niyə bu qədər,
Sənsiz ömrüm-günüm olubdu hədər.
Ürəyin boşaldıb geri dönərdi...
Görənlər hörmətlə salam verərdi.
Dünya! Yorulmadan hey üyüdürsən!
Bu gün əkdiyini sabah biçirsən!
Nə insaf edirsən, nə rəhm edirsən!
Arxaya baxmadan biçib tökürsən!

Kim bilir yaşını, neçə yaşdasan?
İnsanlar dəyişir, sənsə başdasan!
Yetimləri yada salmırsan, dünya!
Atasız, anasız, uşaq kimsəsiz,
Qəm-kədərlə keçər günləri səssiz,
Göz yaşları gizli-gizli, çarəsiz,
Ağlayıb dərdimə qalmırsan, dünya!
Nizamla qurulub, nizamın əzəl!
Yoğurub zərrəni, müqəddəs bir əl!
Kimsən ki, özünü öyürsən belə?
Zərrəni yaradıb yaradan hələ.
Dayanıb nəfəs də almırsan, dünya!

***

İllər ötüb keçir, yaşlanır ana,
Arzular dil açır qəlbində ona.
Cavan yaşında o, ağbirçək olmuş,
Bənizi ağarmiş, gözləri solmuş.
Sanki, yaşamırdı, ölmüşdü haqdan,
Çıxara bilmirdi Şamxalı yaddan.
Bir arzu, bir amal yaşadır onu,
Nə ilə bitəcək həyatın sonu?
Hələ hey, süzürdü oğul boyunu,
Nə vaxt görəcəkdi onun toyunu?
Günlər keçir, ay dolanır, il gəlir,
Donmuş buzlar sınır, isti yüksəlir...
Cahandar məktəbi əla bitirir.
Anaya o, “Qızıl” diplom gətirir,
Ana, çox sevinir, gülür gözləri,
Gül kimi açılır şirin sözləri.
Bir boxça gətirdi, gözləri doldu,

Əlləri titrədi, bənizi soldu...
Ovcunda göründü gümüş bir saat,
Şamxaldan yadigar, – Ey sirli həyat!
Cahandar, saatı alaraq baxdı,
Gözləri yaşardı, sel kimi axdı...
Üstündəki yazı diqqətin aldı,
Atalı günlərin yadına saldı.
“Müdafiə Nazirindən “yadigar,
Kövrəldi, üzüldü, yandı Cahandar!
Saatı bağrına sıxdı, qoxladı,
Anasını qucaqlayıb ağladı,
– Bütün şəhidlərin Ana, qanını,
Qocaların, körpələrin ahını,
Qaniçən yağıdan biz alacağıq,
Ana! – Qarabağı qaytaracağıq!
Ana qürurlandı, yenə də, qorxdu,
Yerində bir anlıq durdu, duruxdu.
Qorxdu övladının gələcəyindən,
Bircə balasının o, taleyindən.
“Qoymaram getməyə!” – Düşündü bir an,
Dəhşətli fikirlər keçdi canından,
Balasının boynunu qucaqladı,
Ana qəlbi hönkür-hönkür ağladı.
Şamxalın son sözlərini düşündü,
Gözlərini yumdu, “Əri göründü”
Xəyalları uçdu yenə göylərə,
Qayıtdı Şamxallı keçən günlərə...
“Əmanətdir sənə anam, oglumuz,
Kaş həyatda bir olaydı yolumuz.
Vətənim dardadır, çağırır Vətən,
Evimə soxulub hiyləgər düşmən.

Kəndlər, şəhərlər edilir viran,
Xalqımın sərvəti edilir talan,
Əsir aparılır gəlinlər, qızlar,
Qocalar, körpələr, ürəyim sızlar.
Əgər geri qayıtmasam, dönməsəm,
Bir də sizi gözlərimlə görməsəm,
Oxut Cahandarı, qoy təhsil alsın,
Vətənin eşqiylə ürəyi yansın.
Xalqımıza olsun layiqli insan,
Həmişə sizinlə olsun, Yaradan!
Anam sənin anan, qayğısına qal!
Allahın eşqiylə dərgaha ucal!"
Ərinin dediyi bu qəmli sözlər,
Onun ürəyində buraxmış izlər.
Ana xəyallardan ayrıldı, doldu,
Balasına baxıb, gülümsər oldu.
Dedi: – Əziz balam, sən əzizimsən,
Sənə qurban ollam, iki gözümsən,
Ayağına tikan batsa, dözmərəm,
Sənsiz bu həyatda inan gəzmərəm.
Sən atanın təki, həm ürəyimsən,
Kimsəsizəm, mənim bircəciyimsən.
Ata vəsiyyətin sənə ərz edim.
Onun son sözlərin sənə bildirim:
"Cahandar oxusun, qoy təhsil alsın!
Vətən sevgisiylə ürəyi yansın!"
Ananın arzusu yerinə yetdi,
Narahat günləri sovuşdu, bitdi...
...Oturmuşdu evdə, ondan bixəbər,
Gəldi övladından ona şad xəbər.
"Oğlun, qəbul oldu ali məktəbə,

Qismət olsun ona ali mərtəbə".
Ana, sevincindən göz yaşı tökdü,
Allaha yalvardı, diz üstə çökdü.
Gələrək Şamxalın qəbrinin üstə,
Şad xəbər söylədi, ona ahəstə...
Şəhla ananı da, ziyarət etdi...
Məzarına, xeyir xəbər yetirdi.
Sevil evə gəldi, gülərüz və şən,
Onun sevincinə, qoşuldu Vətən,
El-oba gəldilər, təbrik etdilər,
Qonşular yığışıb, qurban kəsdilər!

***

Günlər bir-birini əvəz edirdi,
Tələbəlik dövrü gəlib keçirdi.
Əla oxuyurdu, ədəb-ərkanlı,
Hörmətli, izzətli, dosta həyanlı.
Ancaq, ürəyində gizli bir sevda,
Rahatlıq vermirdi, düşmüşdü oda.
"Cəbhə bölgəsində vəziyyət ağır,
Hər gün silah səsi, od, alov yağır.
Şəhid olan, itkin düşən, yaralı,
Qala bilməz bu işlərdən aralı.
Vətən borcumuzu ən əvvəl verək,
Onun keşiyində durasan gərək.
Vətənim dardadır, Vətən çağırır,
Onun gözlərindən od-alov yağır.
Oxumaq gec deyil, həmişə olar,
Qurtarar məktəbi, diplomun alar",
Belə düşünərək ərizə yazdı,
İki il təhsildən vaxt, möhlət aldı.

Ağ xalatı çıxardaraq əynindən,
Tutdu dostlarının bir-bir əlindən.
Xoş arzu, xoş dilək, sağlıq söylədi,
Allahdan onlara dua eylədi...
Hərbi komissarlıq, əsgər gedənlər
Könüllü yazılan, ərizə verənlər...
Hərbi komissar ərizəyə baxdı,
Gözləri nəmləndi, üzünə axdı,
Sakitcə oxudu: – Şamxalın oğlu,
Boynuna sarıldı hər iki qolu,
Komissar dilləndi: – Əziz Cahandar!
İgid bir atadan, sənsən yadigar,
Qorxubilməz, cəsur, igiddi atan,
Vətənin eşqiylə ürəyi yanan,
Xalqın məhəbbətin qazandı, aldı,
Hünəriylə zirvələrə ucaldı!
Sən hələ tələsmə, yaxşı fikirləş,
Qayıt, tələbəlik ilinə birləş,
Həkim olacaqsan, üç ilin qalıb,
Anan da qocalıb, yaşı çoxalıb.
– Düşünmüşəm, qərarımı vermişəm,
Getmək üçün yanınıza gəlmişəm.
Vətənə borcum var, ödəyəm gərək,
Düşməni susduraq, cavabın vərək.
Sonra oxuyaram, təhsil alaram,
Qismət olsa hərbi həkim olaram.
Komissar sevindi, öpdü üzündən,
Ürək dilə gəldi onun sözündən.
– Ananın yanında gedib üç gün qal,
Onun razılığın, halalığın al!

***

Əsgər paltarını geydi Cahandar,
Üzünə gülürdü onun ruzigar.
Payızın əvvəli, çisginli hava,
Meyvə ağacları, saralmış heyva.
Quşların cəh-cəhi yaraşır bağa,
Qonurdular budaqlardan, budağa.
Sevil ana, bağda meyvə yığırdı,
Onun üz-gözündən sevinc yağırdı.
Həyətdəki qapı yavaş döyüldü,
Ürəyi sevindı, gözləri güldü...
Elə zənn etdi ki, gələn qonşu qız,
Meyvəni toplamaq çətindi yalqız.
Qapıya yan aldı, qapını açdı,
Onun gözlərində qığılcım saçdı.
Duruxdu bir anlıq, susaraq baxdı,
Oğlunun önündə sanki, karıxdı.
Ana-oğul, dayanmışdı göz-gözə,
Susub baxırdılar dinməz, üz-üzə.
Sanki yatmışdı o, oyandı həmən,
Gözlərində hər yer oldu yasəmən.
Cahandar çantanı ataraq birdən.
Qollarını açıb durdu yerindən.
Ana da, qolların açdı oğluna,
Elə bil dünyanı verdilər ona!
Sevinclə göz yaşı qarışdı, axdı,
Dünya gözlərində gül-çicək açdı.
Təəccüblə baxaraq əziz oğluna,
Əllərini çəkdi onun qoluna.
– Niyə əsgər paltarını geymisən?
Sanki, əsgərlikdən indi gəlmisən!

Axı oxuyursan, tələbəsən sən,
Sənlə fəxr edirəm, sevinirəm mən.
Cahandar dinmədi, baxdı və susdu.
Ananın sualın cavabsız qoydu,
Birlikdə qol-boyun evə girdilər,
Ana süfrə saldı, yemək yedilər.
– Üç günlük qonağam ay ana sənə,
Sənin xeyir-duan lazımdır mənə,
Cahandar danışdı, anaya baxdı,
Nəmli gözlərindən qəm-kədər axdı.
– Qoy təhsil illərim qalsın sonraya,
Qarabağ səsləyir bizi haraya,
Vətənə borcum var, Vətən çağırır,
Hər gün yağış kimi mərmilər yağır.
Ana, ixtiyarsız gözünü yumdu,
Yenə keçmişinə xəyalı cumdu...
Görən nə düşündü, nə oldu ona?
Kədər ürəyində, yanırdı ana,
Başını qaldırıb baxdı oğluna,
İstəmədi əngəl olsun yoluna,
– Yolun açıq olsun, – ana dilləndi,
Gözündə göz yaşı dondu, gizləndi.
Üç gün anasının yanında qaldı,
Onun ürəyini, könlünü aldı.
"Vaxt da tez ötüşür" ana düşündü,
Oğul ayrılığı ən ağır gündü.
Evin qapısını açıb durdular,
Ana-bala baxışdılar, susdular...
Göz yaşını gizlədirdi, yanırdı,
Şamxallı günlərin yada salırdı.
Əlində tutdugu Qurana baxdı,

Quranla birlikdə əlləri qalxdı.
Quranın altından keçdi Cahandar,
– Sən özün köməy ol, ya Pərvərdigar!
Düşmən gülləsindən özünü gözlə,
Bir dərdin olarsa məktub yaz, söylə.
Cahandar, anayla bayıra çxdı,
Başını qaldırdı, ətrafa baxdı.
Anasını qucaqladı, oxşadı,
Ürəyində uzun illər yaşadı,
Həyət qapısından çölə çıxdılar,
Gülərüzlə qonşulara baxdılar.
Camaat eşidib gəlmişdi hamı,
Unutmaq olarmı haqqı-salamı.
Hamıyla görüşdü, hal-əhval tutdu,
Sonra anasının əlindən tutdu...
– Ana, kədərlənmə, mənsiz darıxma,
Belə qəmli-qəmli dayanıb baxma...
"Vətən dar ayaqda, çağırır Vətən,
Hücum edib bizə qaniçən düşmən".
Bu sözlər atamın dediyi sözlər,
Yadımdan çıxmayıb keçsə də illər!
Ana qürur duydu onun sözündən,
Biixtiyar, yaş süzüldü gözündən.
Kimisə axtardı əsgər gözləri,
Susdu, ara verdi onun sözləri.
Başını qaldırdı, ətrafa baxdı,
Qonşu eyvanına məhəbbət axdı.
Qonşu eyvanından, o gözəl pəri,
Həsrətlə baxırdı o, üzü bəri,
Nədir, gizli-gizli belə baxışlar?
Ananın qəlbinə vurdu naxışlar.

Ürəyi sevindi, güldü gözləri,
Çiçək açdı bir-bir onun sözləri.
Sevil ana dindi: "Şəbnəm çox gözəl,
Ağıllı, kamallı, mehriban, özəl.
Hə desən, bir üzük aparram nişan,
Həm də sənə layiq, sənə yaraşan",
Cahandar susurdu... gözlər qayğılı,
Anaya baxaraq dinməz sayğılı.
O, gələn dostlara təşəkkür etdi,
Ananı Allaha əmanət, dedi.
Maşına əyləşdi, əli qoynunda,
Ananın əlləri onun boynunda.
Sanki, yapışmışdı ana oğluna,
Qoymurdu maşını gedə yoluna...
Sürücü, sən canı candan ayırma,
Gözü yaşlı anasından ayırma.
Bir anlıq düşündü, əlini çəkdi,
Ağlar gözləriylə şəklini çəkdi.
Su ataraq dua etdi adına,
Xocalını yenə saldı yadına.
Sevilin gözündə leysan çağladı,
Oturdu diz üstə, hönkür ağladı!

***

***Torpaqlarım oldu işğal,***
***Dünya qaldı seyirçi, lal,***
***Axıdıldı günahsız qan,***
***Yaralandı Azərbaycan!***

---

* *Hönkürmək - hündürdən ağlamaq*

Günlər ötüb keçir, darıxır ana,
Ürəyi rahatlıq vermirdi ona.
Tez-tez məktub alır, yazıb göndərir,
Fələk yavaş-yavaş çərxin döndərir.
Nə vaxt o, görəcək oğul toyunu?
Nə vaxt o, süzəcək onun boyunu?
Suallar, arzular bitib tükənmir,
Ana ürəyinə sevinc çilənmir.
Bir il idi oğlu evdən gedəni,
Arıqlamış onun zəif bədəni.
Günləri, ayları yazıb, düzürdü,
Övlad həsrətinə yanıb, dözürdü.
Onun məktubları birdən kəsildi,
Kədər-qəm qəlbinə hakim kəsildi.
Ondan üç ay idi, yoxuydu soraq,
Ana gözlərində qaraldı çıraq.
Qonşular yanına tez-tez gəlirdi,
Onunla danışır, toxtaq verirdi.
Günlərin birində telefon zəng çaldı,
Günəş pəncərədən boylandı, baxdı.
– Alo! – O, soruşdu: – Kimdir zəng edən?
Cahandarın səsin eşitdi birdən,
– Ana, gözəl anam, mənəm, oğlunam,
Səni çox gözlətdim, sənin qulunam.
Sevil, doğma səsi eşidçək bir an,
Hönkürtü, zarıdı, ağladı haman.
– Anacan, ağlama, sənsən həyatım,
Sənsiz yaşamayım, qoy yerə batım,
Ömrümdən kəsilsin sənə verilsin,
Sənə gələn azar qoy mənə gəlsin!
Sevilin sevincdən, tutuldu dili,

Hıçqırır hündürdən, əsirdi əli.
Qonşular eşidib evə gəldilər,
Anaya sərin su töküb verdilər.
Qonşu qız dəstəyi əlinə aldı,
Bir anlıq susaraq karıxıb qaldı.
Utancaq bir səslə: – Alo! – Söylədi,
Sevdiyi oğlandan cavab gözlədi.
İstədi danışa, dili dolaşdı,
Sözlər qırıq-qırıq səsləndi, çaşdı.
Şəbnəm gülümsədi, anaya baxdı,
Ananin qəlbinə güc-qüvvət axdı.
Ana, titrək əllə dəstəyi aldı,
Həyəcanla susdu, baxaraq qaldı.
Ürək sakitləşdi, gəldi özünə,
Zəif səslə körpü saldı sözünə.
– Əziz balam, üç ay idi xəbər yox,
Sinəmə sancılmış zəhərli bir ox.
Nə gündüzüm vardı, nə də ki gecəm,
Məktub da yollamır, danışmır bircəm.
– Ana, nə imkan vardı, nə də ki zaman,
Başımın üstündə sıxlaşmış duman.
Heç imkan olmadı inan, ay ana,
Bu canım, həyatım qurbandır sana.
Əsgərlikdi, kurort yeri ha deyil,
Bax, hərbi müddətim qurtarır bu il.
Ananın ürəyi bir az isindi,
Üzü güldü, ruhu, qəlbi sevindi.
Ana sakitləşdi, gülərüz oldu,
Üzünə, gözünə məhəbbt doldu.
– Oğul, sənin burda gözləyənin var,
O olmasa mənim günüm xar olar.

Şəbnəmin qızardı al yanaqları,
Yuxarı dartıldı göz qapaqları.
Anadan getməyə o, rüsxət aldı,
Bir gözü hələ də telfonda qaldı.
– Ana, görürəm ki, gəlin tapmısan,
Mənim xəbərim yox, mənsiz almısan?
– Şəbnəmi anan yox, Cahandar seçib,
Eşq-məhəbbət sizə uzun yol keçib.
Əsgərliyə gedən günü sal yada,
Eyvana baxdığın, o günü ya da...
Ananın sözündən Cahandar güldü,
Ana da bu başda gülməkdən "öldü".
– Ana, sağlıqla qal, vaxt sona çatdı,
Cahandar dəstəyi yerindən asdı.

***

Nədən yoxluğunu gizlədi əsgər?
Demədi anaya, gözlədi əsgər.
Həqiqət, həqiqət, səni də bəzən,
Kiminsə ürəyin sızladan, üzən.
Susuruq, qorxuruq ürək yandıra,
Sönmüş közü, külü alovlandıra.
Cahandar dəstəyi yerindən asdı,
Gözləri yol çəkdi, xəyala daldı.
Onun sağ qalması sanki, möcüzə,
Ölümlə qalmışdı onlar üz-üzə.
Qaldırdı əlini əsgər Allaha,
Yenə xatırladı, andı bir daha...
...Cəbhədə döyüşlər almışdı vüsət,
Düşmən tərəfindən təxribat, şiddət.
Atəşkəs sazişi hər gün pozulur,

Günahsız insanlar hey şəhid olur.
Komandir ayırdı beş nəfər əsgər,
Cahandar verildi onlara rəhbər.
“Meşə zolağından sürünüb keçin,
Atəş nöqtələrin məhv edin, biçin!”
Düşmən, yüksəklikdə tutaraq qərar,
Hər yeri əl içi görürdü onlar...
Qış öz yorğanını torpağa sərmiş,
Torpağı yatırmış, yuxu gətirmiş.
Ağaclar ağappaq bürünmüş dona,
Quşlar ağaclara hey qona-qona,
Soyuq qılınc kimi asıb-kəsirdi,
Külək uğuldayır, coşub-əsirdi.
– Əynimizə geydik ağappaq xalat,
Qolumda atamdan yadigar saat.
Əsgərlər sürünür bir-bir aralı,
Bizi düşündürür təpənin dalı.
Qarın çox olması çatdı imdada,
Düşmən hiss etmədi bizi arxada.
Onların üç böyük atəş nöqtəsi,
Dığaların səngər boyu cərgəsi.
Pulemyotlar ara vermir, hey atır,
Avtomatlar susmur, qızarır, yanır.
Snayperlər durub bir az qıraqda,
Ov axtaran itlər kimi mırıqda.
Baxaraq dostlara, əmrimi verdim;
– Ən əvvəl topları! – deyə bildirdim, .
Həmləmiz olmalı eyni bir anda,
Məzar qazılacaq onlara burda.
Biriniz arxadan qoruyun məni,
Əzməliyik bu gün rəzil düşməni.

***

Əsgər, qumbaranı yenə yoxladı,
Birini ayırıb, ayrı saxladı.
– Əgər ölsəm anam sizə əmanət,
Edirəm sizlərə bu gün vəsiyyət.
Deyə, gülümsədi, süzdü onları,
Cahandar yol aldı düşmənə sarı.
Sürünüb, arabir qalxıb gedirdi,
Əsgər vətəninə "raport" verirdi,
Ehtiyatla gedir, sürünür səssiz,
Təbiət yuxuda, səssiz-səmirsiz.
Quşlar hürkür, yer dəyişir budağa,
Qar topası budaqlardan torpağa,
Ölümün gözünün içinə cəsur,
Qorxmadan baxırdı ürəkli, məğrur.
Anasın, Şəbnəmi yenə düşündü,
Ürək çırpıntısı artdı, döyündü...
Artıq eşidilir düşmənin səsi,
İzləyir yaxında o, hər bir kəsi,
Atəş nöqtələrin sayını gördü,
Onların qəbrini gözündə hördü.
Ağacın dibində tutaraq qərar,
Fasiləsiz atəş açdı Cahandar.
Bir-bir qumbaranı onlara atdı,
Ağacın dibində qar üstə yatdı.
Əsgər dostları da gəlib çatdılar,
Hərə bir tərəfdə mövqe tutdular.
Başlandı şiddətli, amansız döyüş,
Düşmən tərəfindən qışqırıq, söyüş.
Onlar gözləmirdi həmləni burdan,
Atırdılar sağa-sola qorxudan.

Çabalayır suda batanlar kimi,
Qışqırıq bürüyüb bütün aləmi.
– Komandiri diri tutun, vurmayın,
Əsir düşənləri dərhal saxlayın.
Deyə, əsgərlərə əmrini verdi,
Hər yeri yoxladı, nəzarət etdi.
Xain qonşulardan yaralı, ölən,
Xeyli əsir düşdü orada düşmən.
Əsir düşənlərin bağlandı qolu,
Geriyə onların qalmadı yolu.
Əsirlər on nəfər gedirlər öndə,
Bizim qoç igidlər yeriyir gendə.
Cahandar gəlirdi arxada, sonda,
Ətrafı yoxlayır, silah qolunda.
Birdən güllə səsi, büdrədi əsgər,
Silaha söykəndi, titrədi əsgər.
Silahı özünə edərək dayaq,
İstədi yeriyə, büdrədi ayaq.
Yenə güllə səsi, Cahandar döndü,
Düşündü, həyatı büsbütün söndü.
Yaralı düşməni arxada gördü,
Əsgər silahını güclə götürdü.
Yaralı erməni yıxılmış yerə,
Ölüm ayağında baxır əsgərə.
Cahandar qundağla başına vurdu,
Qolunu bagladı, ayağa durdu.
Yaralı halında söykəndi daşa,
– Öz həyat yolumu vurmadım başa.
Deyə, düşünərək gözünü yumdu,
Onun xəyalları uzağa uçdu...

***

Şaxtalı bir gecə, külək də əsir,
Soyuq qılıncını hərlədir, kəsir.
Qarabağ torpağı ağappaq yorğan,
Yol-cığır kəsilmiş, bilinmir yarğan.
Tez- tez eşidilir top, mərmı səsi,
Susub çoxdan Qarabağ zənguləsi.
Əsirlər yan-yana, arxada əllər,
Özgə torpağına göz dikən kəslər,
Bizim döyüşçülər sağı-solunda,
Planla gedirdi, hər şey yolunda.
Həsən, Cahandarı aradı, gəzdi,
Sankı, iri bir daş başını əzdi...
– Dayanın! – Hamınız uzanın yerə,
Əmr etdi, səsləndi o, əsirlərə.
Dostlar bir-birinə baxdılar haman,
Təşvişə düşdülər, dedilər: – Aman!
– Komandir hardadır? – Harada qaldı?
Onu kim apardı? – Kim bizdən çaldı?
Başına-gözünə döydülər onlar,
Özlərin günahkar bildilər onlar.
Həsən dedi: – Murad, mənimlə gəl!
Siz, üç nəfər, əsirləri əlbəəl,
Hərbi hissəmizə veriniz təhfil,
Başla cavabdehsiz olmayın qafil!
Həsən tez Muradla qalxdılar dağa,
Yollar da tutulub, qar yağa-yağa.
Hər tərəf ağappaq, işıqlı, bəyaz,
Şaxtalı bir gecə, hava da ayaz.
Gəldikləri səmti gözləri aldı,
Uzaqda bir topa nəzərlər çaldı.

Yaxına gəldilər, ürəkdə kədər,
Qışın şaxtasında həyacanlı tər.
Qar topasın həmən yarıb baxdılar,
Bihuş Cahandarı orda tapdılar.
Həsən, öz kürkünü sərdi qar üstə,
Onu uzatdılar asta, ahəstə.
Bədənini qarla möhkəm ovdular,
Donmuş qanı ovaxlayıb qovdular.
Cahandar, gözünü qırparaq açdı,
Dostların gözləri qığılcım saçdı.
– Yaralı bir dığa vurdu kürəkdən,
İkinci gülləsi tutdu ürəkdən.
Öldürmədim, əlin möhkəm bağladım,
Bəlkə lazım olar deyə saxladım.
Cahandar yavaşca danışdı, dindi,
Sözlər qırıq-qırıq, xırıltı gəldi.
Əsgərlər kəsdilər orda qol-budaq,
– Bu dığanı aparırıq çox nahaq.
Deyə, Murad öz-özünə səsləndi,
Üzünü çevirdi, yenə dilləndi:
– Həsən icazə ver başını kəsim,
Özgə torpağında yerin göstərim.
– Cahandar eşitsə xoşuna gəlməz,
Belə əmri inan, komandir verməz.
Xizəklər düzəldi, oldular hazır,
Şair də vəsf edir birbəbir yazır.
Əvvəl Cahandarı etdilər rahat,
Ondan ötrü oldu onlar narahat.
Düşmən yaralını xizəyin üstə,
Xizəklər şütüyür xeyli ahəstə.

– Başım dumanlıdır, yaddaşım yaman,
Nə vaxt yadımdadır, nə də ki, zaman.
Gözüm gah yumulur, gah da ki, açıq,
Xəyallarım yavaş-yavaş azacıq.
Otaqda gəzişir ağ xalatlılar,
Huri-mələklilər, üzü xallılar.
İynə, təzyiq ölçən, masaj edənlər,
Otağa girənlər, çıxıb gedənlər.
Bəlkə röyadayam, heç yoxdu bunlar,
Axı niyə çoxdur otaqda onlar?
Bəlkə mən nağıllar dünyasındayam,
Gözəllər, mələklər diyarındayam.
Yumdum gözlərimi, yenə də açdım,
Həqiqəti yavaş-yavaş anladım.
Şüurum, yaddaşım qayıdıb gəlir,
Həyata inamım artır, yüksəlir.
Yadıma düşürdü, olub-keçənlər,
Döyüş səhnələri, əsir düşənlər.
İndi xəstəxana, otaq, çarpayı,
Gözəl həkimlərin təbəssüm payı.
Nədən Türk ləhcəsi danışır qızlar?
Qardaş Türkiyədən gəliblər onlar?
Çaşqın baxışımı hiss edərək qız,
Otaqda onunla qalmışdıq yalnız.
Gülümsər gözlərlə baxaraq mənə,
Günəş öz şüasın saçdı çəmənə.
Gözəllik önündə dayanaraq lal,
Baxdım gözlərinə, olaraq bihal.
İlahi, qüdrətdən onu xəlq etmiş,
Sanki, yer üzünə bir mələk enmiş.
Gözümü çəkərək o, gözəl üzdən,

Anamla sevgilim keçdi gözümdən.
Həkim qız danışdı, verdi izahat,
Onun gözlərində çağladı həyat.
– Yəqin maraqlıdır, indi hardasan?
Ankarada, şəfa ocağındasan,
Artıq on gündür ki, əmin əldəsən,
Türkiyə elindir, öz evindəsən.
Cənab Prezidentin göstərişi var;
"Sağlam dönməlidir geri Cahandar".
Səfir işçiləri tez-tez zəng edir,
Səni yoxlamağa yanına gəlir.
Bu gün sən ayıldın, özünə gəldin,
Bütün həkimləri xeyli şad etdin.
Hamı səndən deyir, səndən danışır,
Müxbirlər də görmək üçün çalışır.
Qeyrətli oğulsan, bizə əzizsən,
Şir ürəkli, cəsur, ürəyimizsən.
Həkim qız danışdı, mənalı baxdı,
Onun baxışından məhəbbət axdı.
– Siz çox gözəlsiniz, həm də mehriban,
Mavi gözləriniz xəstəyə dərman,
Deyə, əsgər həkim qızla baxışdı,
Qızın yanaqları yandı, alışdı.
– Adınızı deyin, məni şad edin.
– Soyadım Hülyadır, çox sual verdin.
– Bal kimi şirindir inan suallar.
– Artıq danışmağın çox ziyanı var.
– Xeyiri, ziyanı verən Allahdır.
– Ziyandan qaçmağı deyən Allahdır.
– Mənim vətənimdə gözləyənim var.
– Bacınam toyunda bir süzməyim var.

– Mənim nə bacım var, nə də qardaşım.
– Mənim də həyatda yoxdur sirdaşım.
– Sevinərəm əgər olsan sən bacım.
– Kaş olasan mənə əziz qardaşım.
– Qan qardaşınam, qurbanam sənə.
– Nə qədər ki, varam, bacıyam sənə.
– Gözəl danışırsan azərbaycanca.
– Soy kökümüz eyni, tarix, zamanca!..
Hülya Cahandarın əlini sıxdı,
Uşaq sevinciylə qapıdan çıxdı.
Cahandar şad oldu, bacısı vardı,
Çox keçmədən onu yuxu apardı.

***

Qan azlığı, iki güllə yarası,
Çətin idi, ağır idi çarası,
Getdikcə gözündə qaralır həyat,
Bihuş vəziyyətdə, daralır həyat,
Ölüm, həyat durmuşdular üz-üzə,
Qarı düşmən baxırdılar göz-gözə,
Kim qalib gələcək? Göstərər zaman,
Ağırlaşır həyat, getdikcə yaman.
Ölkə rəhbərinə çatdı məlumat,
Dərhal ətrafına verdi təlimat.
Qardaş Türkiyəyə "uçdu" qəhrəman,
Bəlkə ümid ola, çəkilə duman.
...Toplandılar, işdən hali oldular,
Məsləhət, məşvərət yolun buldular.
İlkin əməliyyat uğurlu oldu,
Ölüm, Cahandardan sovuşub, soldu.
Ürəyə çox yaxın ikinci güllə,

Ən alim həkimlər qorxdular belə.
Qoy qalsın sonraya! – Verdilər qərar,
Həmin gün gözünü açdı Cahandar.
Gözəl həkimləri “Huri” zənn etdi,
Hülyayla tanışlıq çox şey öyrətdi.
Sonrakı hadisə tanışdır sizə,
Oxucum, yorulma, qulaq as bizə!..
...Günlər ötdü, bir ay tamam yetişdi,
Cahandarın yaraları bitişdi.
Ölüm uzaqlaşdı, olsa da rahat,
Hərdən ürək sancır, olur narahat.
Həkimlər yığışıb etdi məşvərət,
Yeni əməliyat oldu məsləhət.
Məşğul olurdular bir neçə həkim,
Ən uzman cərrahlar edilmiş təhkim.
Hülya Cahandara tez-tez baş çəkir,
İnam toxumları bəsləyib, əkir.
Dostluğun təməli orda yaranmış,
Onların dostluğun Xudamız yazmış.
– Cahandar! – Hazır ol əməliyyata,
Səni qaytarmaqçün sağlam həyata.
Hülya, Cahandarı xəbərdar etdi,
Yanında əyləşdi, dərman içirtdi.
– Hülya! – Sağalmasam, zəng et Həsənə,
Bir qardaş kimidir, dostumdur mənə,
Aparanda məni əziz Vətənə,
Bir damcı göz yaşı axıt sən mənə.
Balışın altından bir zərf çıxartdı,
Gülümsəyib, zərfi ona uzatdı,
– Bu məktubu anama verərsiniz,
İmkan olsa yanına gedərsiniz.

Kaş Vətən sağ olsun, bizlər gedərdi,
Vətən oğulları ona sipərdir.
Xəfif-xəfif güldü, baxdı, özlədi,
Halalıq istədi, susdu, gözlədi.
Hülya ona baxdı, yanaq islandı,
Dünya gözlərində qaraldı, yandı.
Dedi: – Cahandar! – Sən sağalacaqsan,
Çox sağlam bir insan sən olacaqsan.
Bir həkim sözüdür, verirəm sana,
Toyuna gələcəm Azərbaycana!
Əsgər gülümsədi, yuxuya getdi,
Verilən narkozun müddəti bitdi.
Onu gətirdilər cərrah yerinə
Məktub sıxılmışdı onun əlinə.
Bir damcı göz yaşı vardır gözündə,
Təbəssüm gəzirdi onun üzündə.
Həkimlər baxaraq köks ötürdülər,
Ürək parçalayan olay gördülər .
Hülya da dayanıb, gendən baxırdı,
Allaha yalvarır, ürək yanırdı.
Ürək divarında ilişib qalmış,
Həyatı bir tükdən asılı olmuş!
Dünya, gah güldürür, gah ağladırsan,
Gah boşalır, gah da yenə dolursan.
Bənzəyirsən alınmaz bir qalaya,
Kimlər qərar tutdu səndə a dünya?
Səninlə dostluğun yoxdur mənası,
Səni sevənlərin çoxdur cəfası.
Rəhm etmirsən nə uşağa, cavana,
Bu gedişlə sən gedirsən hayana?
Anadan, atadan etginən həya,

Qıyma cavanlara sən Allah, dünya!
Çox da qürrələnmə, lovğalanma ya.
Nizamını qurub Yaradan, dünya!
Altı saat mücadilə etdilər,
Axır ki, ürəyə nicat verdilər.
Təhlükəli anlar yetərək sona,
Həyat bəxş etdilər həkimlər ona!
Sevinc yağdı bacısının gözündən,
Hülya öpdü həkimlərin üzündən...
Ertəsi gün əsgər gözünü açdı,
Sağına-soluna bir nəzər saldı.
Hülya, ona baxıb gülümsəyirdi,
Onun oyanmasın o, gözləyirdi.
Günəş doğdu Cahandarın üzündə,
Ümid çıraqları yandı gözündə.
Baxaraq Hülyaya, "bacıcan" dedi,
Səsi yavaş gəldi, dili titrədi.
Hülya öpdü Cahandarın üzündən,
Sevinc yaşı axdı onun gözündən.
– Əziz qardaş! – Çox şükürlər Allaha,
Üz verməsin sənə bəla bir daha.
Axı, mən demişdim, sağalacaqsan,
Sağlam ömür sürüb, yaşayacaqsan.
Əsgər gülümsədi, gözləri güldü,
Onun çöhrəsindən həyat süzüldü...
Əlində tutduğu məktuba baxdı,
Anasını yada saldı, darıxdı.
Xəyallara daldı, dostları andı,
Döyüş səhnələri yenə canlandı...
...Duraraq yerindən əsgər çox tezdən,
Günəş də boylandı pəncərəsindən.

İkicə həftəlik keçdi bir müddət,
Artıq gəzişirdi, edirdi söhbət.
Anaya zəng etdi, onu səslədi,
Onu çox özlədi, çox əzizlədi.
Cahandar gizlədi yaralanmağın,
Qardaş Türkiyədə, orda olmağın.
Əziz anasına onun zəngini,
Hekayənin məğzi, həm ahəngini,
Oxucum, hadisə tanışdır sizə,
Gözəllik bəxş olsun ürəyinizə.
Dinləyin bir həyat hekayəsini,
Yaralı əsgərin ürək səsini!

***

Günlər bir-bir ötdü, həftələr keçdi,
Cahandar sağaldı, özünə gəldi.
Həkimlər qoydular ona qadağa,
Altı aya qədər ona qaçmağa.
Bir il altı aydı xidmət müddəti,
Qurtarmağa üç ay qalmış xidməti.
Gözəl yay səhəri, günəş də baxır,
Onun baxışından gözəllik axır.
Quşlar da havada oynaşır, süzür,
Sevinc nəğməsini yan-yana düzür.
Qardaş Türkiyədə qəhrəman əsgər,
Vətən həsrətini gözləyər, çəkər...
Ankaranın gözəl hava limanı,
Heyran edir liman bütün dünyanı.
Vətən torpağına uçur Cahandar,
Ürək damarları vurur ahəngdar.
Qardaş Türkiyədən hərbi əməkdaş,

Səfir, işçiləri bir neçə yurddaş,
Hülyayla birlikdə onlar da gəlmiş!
Hamının üzündə sevinc yüksəlmiş!
Cahandar onlardan halallıq aldı,
Bir-bir görüşərək bağrına basdı.
Hülya, təyyarəyə müşayət etdi,
Ona bir bağlama uzadıb dedi:
– Mütləq gələcəyəm sizə, Cahandar,
Bu hədiyyəm məndən sənə yadigar.
Anana bizlərdən çoxlu salamlar,
Yansın evinizdə çıraqlar, şamlar.
Cahandar qutunu istədi açsın,
Hülya xahiş etdi: – Açmasın qalsın.
– Hülya, mənim anam sənin anandır,
Damarımda axan sənin qanındır.
Hər şeyi dedilər, hər şeyi bildim,
Mənə qan verdiyin sonra eşitdim.
Hülya gülümsədi, – Bu bir möcüzə,
Qanımız düz gəldi, tamam düz-düzə.
Hər şey Allahındır, hər şey onundur,
Yaradan, dirildən, öldürən odur.
– Sən bacımsan, mən də sənin qardaşın,
Anam sənin anan, can bir sirdaşın.
Həsən tək dostumdur, yaxşı oğlandır,
Deyə, həkim qıza o, gülümsədi,
Onların toyunu qəlbən özlədi.
Hülyanın qızardı al yanaqları,
Həyadan utandı göz qapaqları.
Uçuşun vaxtı da elan edildi,
Ayrılıq məqamı yetişdi, gəldi.
Bacı-qardaş kimi onlar görüşdü,

Ağır günlər keçdi, kədər ötüşdü.
Cahandar Hülyanı qonaq çağırdı,
Onların üzündən sevinc yağırdı.
Hülya Cahandarın ardınca baxdı,
Onun kiprikləri yaşardı, axdı.
Təyyarə yan aldı üzü bu yana,
Qardaş Türkiyədən Azərbaycana....

***

Vaxtı gələnləri həyatdan üzən,
Allahdır dünyanı nizama düzən.
Nizamla gələnlər nizamla gedər,
Nizamsız dünyanın gedişi hədər.
Nə canlı, nə cansız həyatda qalar,
Dünya bir anlığa dağılar, solar.
Nə ulduz görünər, nə günəş doğar,
Nə küləklər əsər, nə yağış yağar.
Hər şeyin həyatda bir nizamı var,
Nizam üzülərsə dünya məhv olar.
Azərbaycan-Bakı hava limanı,
Heyran edib gözəlliyi dünyanı.
Hər növ şəraiti çox gəlir xoşa,
Xidmətin növləri hey qoşa-qoşa.
Gələn qonaqları edərək heyran,
Şəninə söz qoşaq ey Azərbaycan!
Xəzər sahilində gözəl ey Bakı!
Tarixlər yaddaşı əzəl ey Bakı!
“Qız Qalan” ucalıb, qədim bir muzey,
Sirli bir möcüzən dayanıbdır hey.
Şirvanşah danışır keçmişimizdən,
Bir-bir vərəqlənir tariximizdən.

Qobustan, tarixin salnaməsidir,
Qədim dövrümüzün hekayəsidir.
Odlar diyarının bir rəmzidir, gah,
Bir yanan çıraqdır bizdə Atəşgah!
Atəşpərəstlikdən qalıbdır nişan,
Turistlər oylağı ora, kahkəşan.
Bakının şöhrəti hey dildən-dilə,
Qonaqlar hər yerdən gəlir sahilə.
Şəhər mərkəzində vətənə dayaq,
Müstəqillik rəmzi, ucalıb bayrağ.
...Təyyarə vaxtında oturdu yerə,
Alqışlar səsləndi, əl çaldı hərə!
Hamı təyyarəni bir-bir tərk etdi,
Axırda Cahandar qapıdan keçdi.
Əsgər inanmadı, durdu, duruxdu,
Onun ətrafında izdaham durdu.
Komandiri, Həsən, əsgər dostları,
Gördü müxbirləri, çox insanları.
Cahandar düşündü gəldi ilhama?
Baxdı qarşısında bu izdihama.
Cahandar, inamla gəldi irəli,
Gicgahına qalxdı onun sağ əli.
O, məlumat verdi sağlamlığından,
Əsgəri xidmətə hazırlığından.
– Vətənə xidmətə hazıram, – dedi,
Farağat dayanıb əsgər gözlədi.
Komandir sevindi, danışdı haman,
Dostları  dövrəyə aldı bu zaman.
– Prezidentimiz verərək fərman,
Yazıldı adına – Milli Qəhrəman,
– Vətənim sağ olsun, hər an hazıram!

Ali Komandana çox minnətdaram!
Vətəni qoruyan hər igid əsgər,
Döyüş bölgəsində göstərir hünər!
Ölərik vətənçün, biz hər birimiz,
Vətənlə döyünür bu ürəyimiz.
Medal xatirinə xidmət etmirik,
Vətəndən bir başqa vətən bilmirik.
Torpaqlarım hələ düşmən əlində,
Qız-gəlin əsirdir düşmən elində.
Qızıl medal necə asım sinəmdən?
Utanıram axı özüm-özümdən.
Hərbi nazirlikdən ora gələnlər,
Müxbirlər, əsgərlər, şəkil çəkənlər,
Əsgəri dinləyən yüzlərlə insan,
Şair də istəyir yazsın bir dastan.
Hamı bir ağızdan: – “Halaldır” – dedi,
“Eşq olsun!” – sədası göyləri dəldi.
Komandan sevinclə əsgərə baxdı,
Onun yanaqından damcılar axdı.
Gələrək yaxına öpdü əsgəri,
İşıqlandı yanağı, onun gözləri.
– Atan Şamxalın da ruhu olsun şad,
Ananın həyatı ötüşsün gülşad.
Amma Prezident veribdir fərman,
Adına yazılıb – Milli Qəhrəman!
Bu ali mukafat sənə verilir,
Bütün əsgərlərə şamil edilir.
Nazirlikdə təqdim mərasimi var,
Təltif olunacaq bu qəhrəmanlar.
Komandir onlara verdi məlumat,
Yaxın ətrafına yazdı təlimat.

***

Nazirlik binası, təmtəraqlı zal,
Çəkiliş aparan bir neçə kanal,
Əsgərlər, müxbirlər və dəvətlilər,
Dövlət adamları, yaşlılar, gənclər,
Hərbi nazir özü, əməkdaşları,
Müxtəlif bölgədən silahdaşları,
Hamı öz yerini tutmuş, oturmuş,
Şair də onlara bir dastan qoşmuş.
Nazir çıxış etdi, məlumat verdi,
Hərbi gücümüzdən xeyli söz dedi:
– Dığalardan daha güclü ordumuz,
Haqdır, ədalətdir bizim yolumuz,
İşğal olunubdur Dağlıq Qarabağ,
Ətraf rayonlar da, həm xeyli torpağ...
Xankəndi, Laçınım, Şuşam, Xocalım,
Xocavənd, Kəlbəcər, gözəl Qubadlım,
Ağdamım, Fizulim, əsir Əsgəran,
Cəbrayıl, Quşçular, bir də Zəngilan.
Bir milyon qaçqınım, əsir gedənlər,
Otuz minə qədər öldürülənlər,
Əlli min insanlar – əlil, şikəstlər,
Didərgin düşənlər, nəsillər, ellər.
Xocalı Soyqrım-qan yaddaşımız,
Altı yüz on üç öz vətəndaşımız,
Qana qəltan oldu, başı kəsildi,
Dəhşətli cinayət hey törədildi.
Nə uşağa, nə qocaya, cavana,
Əsir getdi namusumuz düşmana.
Nazir danışırdı, gözlərində nəm,
Səsində bir inam, ürəyində qəm.

– Millət Təşkilatı – dörd cür qətnamə,
Haylara yollandı saxta bir namə.
Qətnaməni bitmiş hesab etdilər,
İşğalçıya “ürək-dirək” verdilər.
Vətənsiz, torpaqsız bu ermənilər!
Bizim torpaqlarla yekələşdilər,
Zəngəzur, Şərur, lap əvvəl İrəvan,
Mehri getdi, ayrı düşdü Naxçıvan.
Adın dəyişdilər öncə Xankəndin,
Azərbaycan! – Yenə güzəştə getdin,
Saxtalaşdı şəhər, rayon, kəndlərin,
Qəbir daşlarında qədim sözlərin.
Martın otuz biri – Soyqrım günü,
Basdırdılar gizlin min-min ölünü!
Əlli min millətim boyandı qana,
Yaxdı əllərinə dığalar həna.
Dərin yara vurdu Azərbaycana!!!
...Müharibə ölüm, yeni-yeni qan,
İstəmirik yenə yansın neçə can.
Aprel döyüşləri onlara bir dərs,
Vuruldu onlara güclü sillə, tərs.
Xeyli torpağımız olaraq azad,
Xalqımız sevindi, ürəy oldu şad!
Könüllü çıxmasa, dinc yolla onlar,
İnan, qovulacaq zorla düşmanlar!
Sonra ayrı -ayrı çıxışlar oldu,
Ölkə rəhbərindən fərman oxundu.
“Vətən Qəhrəmanı” adı verildi,
“Qızıl Ulduz” ona təqdim edildi...”
Nazir, Cahandarın əlini sıxdı,
Boynun qucaqladı, Şamxalı andı.

Alqış sədaları titrətdi zalı,
Əsgər şax dayandı, dəyişdi halı.
– Vətənim sağ olsun, həmən hazıram!
Ali Komandana çox minnətdaram!
Cahandarla birgə olan beş əsgər,
Döyüşdə göstərən igidlik, hünər!
"İgidliyə Görə" – medal verildi,
Daha beş əsgərə təqdim edildi.
Cahandara bilet təqdim olundu,
Xidmətdən hələlik o azad oldu.
Həkimlər etmişdi ona qadağa,
Altı aya qədər hərbi qulluğa.
Tədbirin qurtardı rəsmi hissəsi,
Əsgərin seyrəldi öz əhatəsi.
Dostlar da gəldilər həmən yanına,
Günəş işıq saçdı onun canına.
Dostlar orda yenə verdi əl-ələ,
Əyləşdi maşına o gülə-gülə!

***

...Bazarda hərraca qoydular səni,
Çox asan yollarla tutdular səni,
İşgəncə, əzabla soydular səni.
Satqın, şərəfsizlə dolan Qarabağ,
Torpaqları işğal olan Qarabağ!
İki saatlıq yol nə uzun çəkdi?
Nə vaxt bitəcəkdi ayrılıq dərdi?
Baxır ətrafına, şütüyür maşın,
Düşünür, darıxır, tutmuşdu başın.
Atasın düşündü o, çəkərək, ah!
Başını qaldırdı sağa, sola gah.

Həsən, fikirlərdən ayırdı onu...
– Hər şeyin əvvəli, hər şeyin sonu.
Sonunu calasın xeyirə Allah,
İnan, dərdsiz yoxdur lap olasan şah.
Üzün gülsün, daha uzaq ol qəmdən,
Kimsə qaça bilməz yazan qələmdən.
Dünyanı nizama salan Allahdır,
Nizamsız bu dünya tarimar, ahdır.
Hər şeyin yaxşısın biləndir Allah,
Şad ol ki, dostların olsunlar gümrah!
Yenidən Xudamız bağışladı can,
Yoxsa, yaşamazdı bilirsən anan.
Cahandar dostunun əlini sıxdı,
Həsənin sözləri ürəyə axdı.
Maşın yaxınlaşır, az qalır elə,
Misralar süzülür, həkk olur dilə...
Vətənin hər yeri laləzar, cənnət,
Allah bəxş edibdir gözəl təbiət.
Masallı şəhərı can verir cana,
Füsünkar təbiət, Azərbaycana!
Portaxal, mandarin, həm də limonu,
Talış qızlarının halay oyunu.
Yayılıbdır yaşıl çayı ellərə,
Feyxoa, narıngi düşüb dillərə.
Səs salıb hər yerə gözəl "İstisu",
Od çıxır altından özəl İstisu...
Viləşçay anbarı axır Muğana,
Can verir torpağa, Azərbaycana!
Qartallar oylağı, Talış dağların,
Sirli tarixlərin, sirli çağların.
Vüqarla dayanıb baxır Xəzərə,
Vətən! – Gəlməyəsən səni nəzərə!

Nadir ağacların dillər əzbəri,
Sorağı yayılıb, gəzir elləri...
Qızılgöz, iynəyarpaq, dəmirağac,
Ulas, motal, qəndələş, vən, tozağac,
Nil, palıd, vələs, fısdıq və razdal,
Ruhumu oxşayır, oluram xoşhal!
Dərman bitkilərin gətirib şöhrət,
Cənub zonasına alqışlar, əlbət.

* * *

...Ana gözləyirdi, qəlbində kədər,
Çöxdandı oğlundan gəlmirdi xəbər.
Qəmli gözlərindən süzülürdü yaş,
Qapının önündə qurmuşdu bardaş.
Əlləri dizində getmiş dunuxa,
Niyə arzuları dəymişdi oxa?
Ana fikirləşir keçmiş günlərin,
Gözlərini yumur, düşünür dərin...
Birdən eşidildi qapının zəngi,
Dəyişdi üzünün tamam ahəngi.
– Qapının zəngini kimdir ki, çalan?
Qonşusu da olmaz – Düşündü bir an.
Tez durdu ayağa çıxdı qapıya,
Yalvara-yalvara uca Tanrıya.
– Ey uca Allahım! – Oğlum olaydı,
Nə ola zəngimi oğlum çalaydı!
Nə isə düşündü, qəlbi döyündü,
Ana, qorxa-qorxa çöldə göründü.
Qapının cəftəsin qaldırdı, açdı,
Onun gözlərindən ildırım saçdı...
Qapıda duraraq, baxırdı Şamxal,

Bədən gərginləşdi, olaraq bihal.
Cahandar anasın tez qucaqladı,
Üz-gözündən öpdü, çoxlu qoxladı.
– Ana, səndən ayrılmaram bir daha,
Söz verirəm, yalvarıram Allaha...
Sevil ana gözün açdı, ayıldı...
Balasına baxdı, yenə bayıldı.

* * *

Xəbər yayılmışdı obaya, elə,
İnsanlar axışır hey gülə-gülə.
Həyətləri adam seli, izdiham,
Hamının üzündə sevinc və ilham.
Ananın üzünə yelpic verdilər,
Həkim çağırdılar, ilac verdilər.
Ana, Cahandarı basdı bağrına,
Göz yaşı süzüldü yanaqlarına.
Atası Şamxaldı durmuşdu özü,
Eynən oxşayırdı tamam üz-gözü.
Anası görərək, olmuşdu çaş-baş,
Ümid çırağımız hey yanaydı kaş.
Kəsilmişdi artıq bir neçə qurban,
Ayrılıq qurtardı, qurtardı hicran.
Uzaqdan, yaxından el oba gəldi,
Onların gözündə sevinc yüksəldi.
Axşamüstü gəlib-gedən seyrəldi,
Qonşular da evlərinə yönəldi.
Cahandar boylandı qonşu eyvana,
Gözlər axtarıdı, yetmir ünvana.
Ana, hiss edərək onda haləti,
– Şəbnəm xəstə yatır, vardır illəti...

Qızması olandan yataqdan qalxmır,
Həkim də yoxlayıb, çölə buraxmır.
Cahandar, eşitdi üzgün xəbəri,
Bir nöqtəyə baxdı qəmgin gözləri.
Ana, gülümsəyib nömrəni yığdı,
Onun üz-gözündən gözəllik yağdı.
– Alo, eşidirəm, kimdir zəng edən?
Şəbnəmin anası danışdı evdən,
– Salam əziz qonşum, mənəm, Seviləm,
İstədim soruşam, necədir Şəbnəm?
– Salam Sevil bacı, düşüb qızdırma,
Üzündə qızarma qalıbdı amma.
Gözəl bacı, çox şükür ki, Allaha,
Oğlun gəldi, yalvarıram Dərgaha!
Alah gözlərini yolda qoymasın,
Bir də qoy ayrılıq, hicran olmasın!
– Allah razı olsun, köməyin olsun,
Ürəyin, gözlərin sevinclə dolsun.
Hamınız yığışıb kömək etdiniz,
Gələn qonaqlara xidmət etdiniz.
– Sevil bacı, qonşu bəs hansı gündə?
Kaş mənim də Əlim xidmətə gedə,
Cahandar kimi də qəhrəman gələ,
Sevincək dilləndi o, gülə-gülə,
– Qonşu irəlidir uzaq qohumdan,
Razıyam sizlərdən, qonşularımdan.
Atalar sözünü misraya düzdü,
Oğluna, gülərüz baxaraq süzdü.
– Cahandar deyir ki, "Ayağım düşüb",
Şəbnəm də sağalıb, qızdırma düşüb.
Gələcək qohumlar ucadan gülür,

Gülən gözlərindən sevinc süzülür.
– Xəstəmizə "Keçmiş olsun" deyən var,
Dəstəyi qıza ver, qoy danışsınlar.
Cahandar, dəstəyi anadan aldı,
Onun gözlərindən xoşbəxtlik yağdı.
Sevil uzaqlaşdı onun yanından,
Yeni həyat verdi ona Yaradan!
Ruhu təzələndi, bənizi güldü,
Onun həyatına sevinc süzüldü!

***

Əsər tamamlanır, yazılır sonu,
Gözəl misralardan bəzənib donu.
Qalxıram ayağa dincəlim deyə,
İstirahət verim yorğun ürəyə.
Ürək dilə gəldi, dedi: – Yaz şair!
Maraqlı əsərlər səni gözləyir!
Gəlin kömək olaq bir-birimizə,
Şirin söz yayılsın ürəyimizə.
Ürək sevindirək, düşünək bir az,
Ömür axıb gedər, geri qayıtmaz.
Yaxşıların el-el gəzər sözləri,
Pislərin həyatda qalmaz izləri,
Ey əziz Allahım, köməyim sənsən!
Sənin varlığından güc almışam mən!
İlham verdin yada saldın sözləri,
Kənar etdin məndən yaman gözləri,
Xudam! – Köməyinə bel bağlayıram,
Qurani-Kərimdən ilham alıram.
Mənə möhlət versən, Allahım əgər,
Yenə də Vətəndən, yazaram əsər!

# NƏSİHƏTNAMƏ

– Ey oğul! – Qulaq as, saxla yadında,
Unutma, ömürlük qalsın canında.
Hara getsən bil, qibləgah Vətəndir,
And yerimiz, ziyarətgah Vətəndir.
Dünya qədər varın, dövlətin olsa,
Həyatına ziynət, bər-bəzək dolsa,
Dünyanı gəzsən də yenə Vətəndir,
Dayaq yerin ürəyinə Vətəndir!
Atanın-ananın sözündən çıxma,
Onların üzünə acıqla baxma.
Hörmətini gözlə, saxla ehtiram,
Ürəyinə dəymə, haramdır haram.
Uzaq getmə duasından özündən,
Ocağının istisindən, közündən.
Sizə arzulayır xoş gələcəyi,
Onlar edir təmənnasız köməyi.
Özündən ya böyük, ya uşaq görsən,
Salam ver, düşünmə uşaqdır, səndən.
Bu söz ustadımdan qalıbdır mənə,
Mən də ərz edirəm ay oğlum, sənə.
Bir daş yumrusunu gəl ataq aşa,
Aş qaynayar, bişər, qarışmaz daşa.
Təkəbbürlü insan daş kimi bir şey,
Xalqa qarışmazlar, uzaq olar hey.
Kimsənin haqqında olma bədgüman,
Yoxlamasan, vermə qərar sən haman.
Davud peyğəmbərin səhvini etmə,
Fikir bildirməyə tələsmə, getmə.

***

...Günlərin birində, şam ibadəti,
Allah imtahana çəkdi Həzrəti.
İki qoca kişi, saqqal ağarmış,
Belləri əyilmiş, əsası varmış...
Girərək otağa salam verdilər,
Həzrətə ehtiram, dua etdilər.
Həzrəti Davuda belə zamanda,
Mane olunmazdı namaz qılanda.
Peyğəmbər qorxaraq etdi ehtiyat,
"Bəlkə öldürməyə gəliblər, heyhat"
Qoca dedi: – Sizdən bir xahişim var,
Çətin işlərimdən qalmışam naçar.
Bir camışım vardır, bir də tək başım,
Onu da əlimdən alır qardaşım...
Onun doxsan doqquz camışı vardır,
Deyir qoy yüz olsun camışım azdır.
Davud əsəbləşdi, danışdı dərhal,
İkinci qardaşa vermədi macal.
Ona töhmət vurdu, danladı yaman,
Qardaşlar çəkildi qeyibə haman.
Davud peyğəmbərin tutuldu üzü,
Qəm-qüssə bürüdü, yandı üz-gözü.
– Demək, mələklərmiş otaqda onlar,
Məni yoxlamağa gəlib qocalar...
Peyğəmbər, əllərin açıb Dərgaha,
Xeyli yalvararaq gözəl Allaha.
– İkinci qaradaşın rəyin almadım,
Onu danışmağa özüm qoymadım.
Deyə, Həzrət Davud səhvin anladı,
Allah bağışladı, Allah saxladı.

***

Ömür-gün yoluna nur saçan çıraq,
Yazır ömrümüzü o, varaq-varaq.
Gözünün nurunu hey yana-yana,
Süzür zehnimizə, neçə insana.
Ata -ana kimi mehriban, həlim,
Zülmətli gecədə məşəldir müəllim.
Məktəbdə atadır, həm də ki, ana,
Hörmət et ay oğlum, hörmət et ona.
"Ustadın üzünə xor baxar-baxar,
Onun gözlərinə ağ damar-damar".
Ustad Ələsgərdən qalıbdır nişan,
İbrət götürsünlər, olmasın çaşan.

Qardaş qədrini bil, unutma bir an,
Tək ağacı döyər şaxta, qış, boran.
Atanın, ananın eyni övladı,
Niyə yaman olsun? – Qardaşdır adı.
Qardaşın qədrini olmayan bilər,
Qardaşsız a dostlar çətindir illər.
Sənlə son tikəni böləndir qardaş,
Unutma bunları, solmasın yaddaş.
Nöqsanı car edib eyləmə gəl pərt,
Yusif peyğəmbərdən götür sən ibrət.
Qardaşlar mehriban, dost olsun gərək,
Dost da, qardaş olsun, təriflər verək.
Heç kimin sirrini sən bəyan etmə,
Dostunun dostu var bil, əyan etmə.
Dostu itirməyə çalışma heç vaxt,
Nöqsanı şişirdib uçurma bir taxt.
Günahsızam demək, özü günahdır,

Günahsız nöqsansız yalnız Allahdır.
Heç kimin nöqsanın məclisdə demə,
Nadan insanların dalıycan getmə.
Pisliyə pisliklə vermə sən cavab,
Yaxşı işlər gör, etginən savab.
Kimsənin dalınca danışma pis söz,
Ocaqlar dağıtma, söndürmə bir köz.
Etdiyin köməylər çəkilməsin car,
Allahın yanında sən olarsan xar.
Bu söz yadigardır ata, babadan,
"Balıq bilməsə də, bilər Yaradan".
Yaxşılıq et, yaxşı əməllərinlə,
Örnək ol həmişə öz işlərinlə.
Bir övladım vaxtsız burdan köç etdi,
Allah dərgahına ucaldı, getdi.
Xeyriyyəçi biri, gözəl bir insan
Etdiyi köməylər qalardı pünhan.
Yardımı alan da bilməzdi düzü,
Kim kömək göstərir, hardandır özü?
Hər ayın sonunda onun büdcəsi,
Xeyriyyə işinə müəyyən hissəsi.
Ayırıb göndərər, şahiddi Allah,
Bir-iki dostuydu bu işdən agah.
Məsçid tikilsəydi edərdi kömək,
Halal yaşayardı, halaldı əkmək.
Kimsələr bilməzdi, etməzdi söhbət,
Allah xatirinə edərdi hörmət...

***

Bəzən kol dibində uyuyur ilan,
Birdən elə çalır, puç olur bir can.

Tikanlı bağçada oxuyur bülbül,
İnsana zövq verir açan qızılgül.
Uşaqları oxut, alsınlar savad,
Onları böyüdüb etmə kəmsavad.
Nadanlıq, cəhalət bir rəzalətdir,
Savadsız bir millət, son fəlakətdir.
Zülmətli gecədə yol, cığır salan,
Təhsildir, savaddır zülmətdə yanan.
Kitablar oxudum saysız-hesabsız,
Yenə biliksizəm, çox şey cavabsız.
Ataq gözümüzdən qara pərdəni,
Fəth edək biliklə uca zirvəni.
Getsin içimizdən paslı ürəklər,
Gülsün, çiçək açsın gözəl diləklər.
Şirin sözlər danış, acıdil olma,
"Bu günün işini sabaha qoyma".
Heç kimi aldadıb etmə pərişan,
Ürəklər sızladıb, yndırma şan-şan.
Aldanma dünyada dövlətə, yara,
Şəxsiyyət üstündür dəyişmə vara.
İşində əmin ol, pozma əhd-peyman,
Dostluğa sadiq ol, amandır, aman.
Qızların haqqında danışın yaxşı,
Zər-zibadan vurun ona naxışı.
Ta qədimdən belə söz də duyular,
"Kor qız ərə gedər, əla olsa qonşular.
Bilmədiyin sözü heç vaxt danışma,
Əvvəl özün öyrən, sonra da çaşma,
Cavab vermə sual olmasa əgər,
Qızğın baş həmişə əziyyət çəkər".
Çətin gündə səni atıb gedəndən,

Xoş günündə səni tapıb görəndən.
Qonşunun pisliyin istəyənlərdən,
Onları özündən küsdürənlərdən,
İnsanları savaşdıran, vurduran,
Şər, böhtanla qulağını dolduran,
Uzaq ol yalan söz danışanlardan,
Verdiyi sözləri tutmayanlardan.
Tütünə öyrənib, özün zay etmə,
Onu çəkənlərin yoluynan getmə.
Bütün ömrün boyu adam ol adam,
İçkidən uzaq ol, haramdır haram,
Bədənə ziyanı vurma ziyada.
İçki içən xeyir tapmaz dünyada.
İnsanları bir-birinə vurduran,
Ər-arvadı dalaşdıran, solduran,
Uşaqları yetim yesir yandıran,
Allahın yolundan sapan, caydıran,
Evlər yıxan, viran edən içkidir,
Dost arasın vuran, pozan içkidir.

***

Şair! – Al qələmi həkk edək yazaq!
Vəfasız insandan uzaq ol, uzaq
"Dalaşanda yenə sərhəddi saxla",
Hirsli baş insana gətirər bəla.
Pislikdən uzaq ol, ziyankar olma,
Yaxşıdan ayrılıb uzaqda qalma.
"Əmanətə heç vaxt etmə xəyanət"
Haramxor insanda olmaz dəyanət.
Özünü hər yerdə ədəbli apar,
Ədəbsizlə dostluq etmə, kəs, qurtar.

İş görəndə düşün, yenə fikirləş,
Ağıllı insanın ağlıynan birləş.
Kasıba borc versən, adını tutma,
Verdiyini üzə vurma, unutma,
Borc vermə kimsəyə çoxlu pulları,
Babam da itirmiş çox qızılları.
Var idi babamın yüzdən çox yaşı,
Namaz idi hər gün onun yoldaşı.
Mənə danışardı qədim zamandan,
Əzəl həyatından, yaxşı-yamandan.
– Bəylik dövrü idi, malım, torpağım,
Yaxşı güzaranım, taxılım, yağım,
Üç yüzdən çox camış, ayrıca köçəm,
Otlaq sahələrim, saxlayam, biçəm.
Bəy dostlardan biri borc pul istədi,
“Mütləq qaytararm” – O, xahiş etdi.
O vaxtlar qızıldı işlənən pullar,
Bir torba – iki yüz onluq qızıllar.
Sayıb bəyə verdim, qızıllar getdi,
Qaytara bilmədi, müflisə yetdi.
Nikolay devrildi, dağıldı taxtı,
Sonra Cümhuriyyət, Sovetlər vaxtı,
Sürüynən mal-qaram bizdən alındı,
Torpaqlarım, pulum yandı, çalındı”.
Babamın səhvini mən də etmişəm,
Xeyli itirmişəm, yaman görmüşəm.
Borcunu vaxtında aparıb qaytar,
Yoxsa eşitməzlər, vaxt gəlib çatar.
Xeyirli işlərdən qalma kənara,
Zərərli işlərdən qaç dabanqara.
Heç kimsədən rüşvət alıb ağlatma,

Heç vaxt əqidəni paraya satma.
Ticarət işində olmalısan saf,
Alanda, satanda olasan şəffaf.
"Ağac bar verəndə başını əyər",
Təkəbbürlü insan özünü öyər.
"Əsil insan əsilliyin itirməz,
Biəsillər ömrü başa yetirməz".
Yazdım əsərimi, danışdım qədim,
Sözlərimə bəzək vurdum, bəzədim.
Həyat çox qısadır, vaxt gəlib keçir,
Qocalıq gəncliyi qılıncla kəsir.
Əgər möhkəm olsa insanda iman,
Azdıra bilməz ki, şeytan heç zaman.
Zər-ziba içində yaşayan insan!
Milyonlar toplayıb hara yığırsan?
Yetməyəcək pullar orda haraya
Fanidir a dostlar, fanidir dünya!

*köçə-heyvan saxlanılan yer.

# BİR TİKƏ ÇÖRƏK

Nənəm bu hadisəni mənə danışanda təxminən 14, 15 yaşım olardı, nənəmin 80 yaşı var idi. Bir neçə ildən sonra nənəm dünyasını dəyişdi. Onun mənə danışdıgı hadisəni heç vaxt unutmadım, unuda bilmədim. Həmişə ürəyimdən asılıb qaldı və bəzən yolda, zibil atilan yerlərdə atılmış çörək parçalarını görəndə ürəyimin sıziltısıyla nənəmin göz yaşları içində mənə söyləmiş oldugu o hekayəni xatırlayır, biixtiyar mənim də gözlərim dolur...

Qışın yanvar ayında
Gözəl səhər çağında
Gəzirdim bağımızı,
Seyr edir dağımızı,
On beş yaşın içində
Uşaq görkəm, biçimdə,
Havada uçuşlara
Civildəşən quşlara
Qar yağır lopa-lopa,
Hər yerdə topa-topa.
Torpağa, ağaclara,
Ağappaq yamaclara,
Ağac xol- budaqları,
Tökülmüş yarpaqları,
Başın əymiş aşağa,
Az qalırdı sınmağa...
– Çağırdım ucadan, – nənə, ay nənə!
Gedim silkələyim bəlkə xolları?
Tökülsün ağacdan qar topaları,

Buxarı başında əyləşmiş nənəm,
Üzündə, gözündə yaşartılı nəm.
Dərdli-dərdli hey baxırdı ocağa,
Xəyalları çox getmişdi uzağa.
Ağappaq saçları, səksəndi yaşı,
Hər gün namaz idi onun yoldaşı...
Dilində, sözündə Allah kəlməsi,
Yavaşdan gəlirdi namazda səsi.
Fikrindən ayrılıb baxaraq mənə,
Ahəstə söylədi, danışdı Nənə:
– Yenə külək əsib tökəcək qarı,
Əyilən budaqlar qalxar yuxarı.
Sınsaydı ağaclar hər belə qardan,
Meşədə budaqlar sınardı çoxdan.
Allah rəhm edəndir, pənahdır bizə,
Xoşbəxtlik yar olsun həmişə sizə.
Gəl əyləş yanımda, söyləyim sənə,
Həzin bir xatirə, qulaq as mənə.
Sakitcə nənəmin yanına gəldim,
Diqqətlə nənəmin sözün dinlədim.

***

Nənəm başladı sözə,
Baxaraq yanan közə:
– Kəndin qız-gəlinləri,
Gözəl bir yay günləri.
Bulaqda yığışdılar,
Bir xeyli danışdılar,
Hamımız razı olduq,
Sözü bir yerə qoyduq.
Gedək sumağ toplayaq,

Qışa zumhar* saxlayaq.
Bazar günü sübh çağı,
Üzdə kədər, həm qayğı,
Piyada xeyli getdik,
Mənzil başına yetdik.
"Sumağ təpə" bənzəyirdi bir bağa,
Gözəl iyi, yayılmışdı uzağa.
Çəhrayı salxımlar sanki, gülüstan,
Baxanı özünə edirdi heyran.
Yığıb sumağları boş kisəmizə,
Əyləşdik kölgədə, başladıq sözə.
Danışdıq həyatdan, pis güzarandan,
Camaatın dərdi, ahuzarından.
Qırmızı əsgərlər gələndən bəri,
Gəldi camaatın qara günləri.
Bağlandı məscidlər, izləndi Quran,
Ocaqları söndü, başlandı böhtan.
Bir az danışanı aparırdılar,
Sibirə, sürgünə yollayırdılar.
Camışımız, inəyimiz, atımız,
Getdi əldən dövlətimiz, varımız.
Zəhmət, əziyyətlə əkdiyimizi,
Ümid yerimizi-çörəyimizi.
Hər şeyi bizlərdən, əldən aldılar,
Bizi yaman günə onlar saldılar.
Qabar-qabar olmuş, yanmış əlimiz,
İşləməkdən əyilmişdi belimiz...
Başlandı müharibə, zülm illəri,
Camaatın əzablı, ağır günləri.

---

**zumhar-ehtiyat ərzaq*

Aclıq, işgəncələr hər yeri aldı,
Yolxucu xəstəlik artdı, çoxaldı.
Qocalar, xəstələr ölürdü tamam,
Meyid aparmağa olmurdu adam.
Ölüm, kabus kimi izləyib bizi,
Ah-nalə bürüdü evlərimizi.
Qadağa edildi dincəlmək bizə,
Əzab verirdılər ailəmizə.
Cəbhədən gəlirdi qara kağızlar*,
Susdurulur bir-bir dinən ağızlar.
Bürüdü bizləri, göz yaşı, ahlar,
Az qala ağlaya, dillənə daşlar!
Sonra da qız-gəlin ayaga qalxdı,
Yanağa göz yaşı, damcılar axdı.
– Birdən gördük qabaqda,
Bizdən bir az uzaqda,
Yerdə bir parça çörək,
Hamı çığırdı gerçək:
– Ay qızlar! – baxın, çörək!
Gah qaça, gah yeriyə,
Yüyürdük irəliyə,
Çatmaq üçün çörəyə,
Bu əvəzsiz xörəyə...
Yıxıla-dura qaçdım,
Çörəyi yerdən aldım,
Çörək deyildi, Allah!
Yana-yana çəkdim ah!
Kəhraba tək andıran,
Hamımızı qandıran,
Talaşa* imiş aman!

**qara kağız-ölüm xəbəri*
**Talaşa – kəsilmiş ağac parçası*

Səni yanasan zaman!
Diz üstə düşdük yerə,
Əl qaldırdıq göylərə.
İçin-için ağladıq,
O günləri qarğadıq...

***

Nənəm danışırdı, gözlərində nəm,
Üzündə iztirab, ürəyində qəm.
Cavan övladını vaxtsız itirən,
Sonsuz ailənin sonun bitirən...
Nənəm danışırdı, yanırdı ürək,
Cürət etməyirdik, təsəlli verək.
Qaldırdı yuxarı nənəm başını,
Sildi gözlərinin axan yaşını.
– İndi əziz balam, unutma bir an,
Unutma bunları keçsə də zaman.
Süfrələrin tacı ancaq çörəkdir,
Halal zəhmətinlə onu yeməkdir.
Həyat zülmət olar inan çörəksiz,
Çörək danəsini bilmə gərəksiz.
Sübhan! – Bu nemətin hər hissəsini,
Qaldır yerə düşən həm zərrəsini.
Unutma, çox çətin yaranır çörək,
Hamının borcudur qorusun gərək.
Allahdan arzumdur, qoy bolluq olsun,
Çörək və bərəkət hər evə dolsun!

---

**mənzil-gedəcəyin yerin sonu*
**buxarı-ocaq*

# AXIRINCI GÜLLƏ

Poema, Azərbaycanda 1918-1930-cu illərdə tarixi hadisələrdən, ermənilərin vətənimizdə dinc əhaliyə qarşı kütləvi qırğınlarından, kəndli əmlakının, mal-qarasının əllərindən alınıb ümumi təsərrüfatda birləşdirilməsindən, camaatın ağır vəziyyətindən, islam dininin və din xadimlərinin sıxışdırılmasından, sürgünə göndərilməsindən, cənub zonasında qaçaq hərəkatindan bəhs edir. Yaşlı insanların, xüsusilə babamın söz-söhbətləri əsərdə əsas yer tutur.

Yüzü haqlamışdı babamın yaşı,
Kağız tək ağarmış saqqalı, başı.
Hər gün dua edir, qılırdı namaz,
Qədim bir xalçası, adı, "canamaz".
Qəlbində, sözündə Allah kəlməsi,
Gəlirdi çox uca namazda səsi.
Pəhləvan gövdəli, sağlam əlləri,
Üzündə-gözündə keçmiş izləri.
Bədəni, qolları əzələ, qüvvət,
Gözlərində işıq, inam, cəsarət.
Zəhmətlə yaşardı, özü çalışqan,
Xeyrixah, ağıllı, dosta alışqan.
Günlərin bir günü, gözəl bir sabah,
Günəşli təbiət, yaradan Allah.
Abasbəyli adlı yaraşıqlı kənd,
Aşağı qonşusu gözəl Yeyənkənd.
Viləşçayla sərhəd, ətrafı dağlar,
Hər tərəf ağaclar, hər tərəf bağlar.
Rayon mərkəzinə yaxın bir məkan,

Yoxdur gözəllikdə kəndimə çatan.
Həyətin ortası böyük tut ağac,
Fətir bişirməyə nənəm asmış sac.
Həsirin üstünə sərilmiş palaz,
Ruhu təzələyir, can verirdi yaz.
Babam namazını qurtaran zaman,
Gələrək babamın yanına haman.
– Ay baba! – Keçmişdən maraqlı söhbət,
Danışın eşidək hamımız əlbət.
Babam təsbehini alaraq ələ,
Xeyli fikirləşdi, gələrək dilə.
Dedi: – Danışarıq keçmişdən sizə,
Nənən də bişirsin bir pülov bizə.
– Axşam yığışdılar, biz verək diqqət,
Öyrənək keçmişi, bilək həqiqət.
Bir neçə ağsaqqal gəldilər qonaq,
Babam çağırmışdı, etmişdi soraq.
Qırx altı il əvvəl məclis quruldu,
Xeyli suallara cavab duruldu.
Onların var idi səksən, yüz yaşı,
İtməmiş onlarda həyat yaddaşı.
Bir ömür günləri, ağır bir həyat,
Gözləri önündə ölüm, qan, heyhat!
Qonşu kişilərdən İsmayıl, Əjdər,
Əmən, Məmmədəli, Fazil və Heydər.
İrişlə Museyib, Cahangir babam,
Atam Kamran, Əhəd, İzzət və Qulam.
Samovarın həzin-həzin nəğməsi,
Kəkotu çayının xoş rahiyyəsi.
Məclisə gətirmiş xeyli xoş ovqat,
Danışmaq həvəsin artırmış qat-qat.

Gedən söhbətləri dinləmək ağır
Bəzən gözlərindən yağışlar yağır.
Onların qəlbində çağlayırdı qəm,
Üzlərində kədər, yanaqları nəm.
Gedən söhbətləri alaraq ələ,
Sinəmdə düzürdüm mən gilə-gilə.

## BİRİNCİ SÖHBƏT
***(Soyqırım)***

– Nikolay devrildi, dağıldı taxtı,
Ölüm tüğyan etdi inqilab vaxtı.
Təzyiqlər çoxaldı, ixtişaş artdı,
Ölüm kabus kimi hər yerə çatdı.
On səkkizinci il martın on beşi,
Başlandı Bakıda təxribat işi.
Qanlı qırğınlara verərək fərman,
Bakını alova tutdu Şaumyan .
Erməni qüvvələr Bakıya gəldi,
Ah-nalə, ağlaşma göyə yüksəldi.
Martın otuzunda, hava da təmiz,
Hiylədən xəbərsiz saf millətimiz.
Atəşə tutuldu, qan döndü çaya,
Kimsələr gəlmədi orda haraya.
Erməni kilsəsi oldu qərargah,
Haylara əzəldən qırğınlar agah.
Kərpicxana, Məmmədəli məhəllə,
Vay-şivən sədası yüksəldi zilə.
İnsan çığırtısı, ağlaşma səsi,
Bürüdü hər yeri insan naləsi.

Qırğının miqyası çatdı hər yana,
Yaralar vuruldu Azərbaycana.
Küt alətlə vurur, sındırır başın,
Gözə mil çəkilir, yandırır qaşın.
İzlənirdi Quran, təhqirləndi din,
Kül oldu meşələr, kül oldu əkin.
İnsanların ahı göyə ucaldı,
Aclıq, səfalət son həddə çatdı.
"Təzəpir" məscidi topa tutuldu,
Divarları sanki qanla yuyuldu.
Lənkəran və Səlyan, Lerik, Masallı,
Astara, Şamaxı, Quba, Yardımlı.
Zəngəzur, Cəbrayıl, yandı Cavanşir,
Müxtəlif qəzalar, həm də Kürdəmir.
Ölüm yağdırıldı dinc insanlara,
Rəhm olmadı neçə-neçə canlara.
Ölkəmizdə əlli mindən çox insan,
Qana qəltan olan can Azərbaycan!!!

## MÜSTƏQİL DÖVLƏTİMİZ

Ağsaqqallar bir-bir danışır, dinir,
Səsləri gah qalxır, gah da ki enir.
Onların hər biri canlı bir əsər,
Sözləri qılınc tək doğrayar, kəsər.
– On səkkizinci il, gözəl yaz ayı,
İyirmi səkkiz may xoş xəbər hayı,
Şərqdə günəş saçdı, bir ulduz doğdu,
Düşmənin ürəyin, nəfəsin boğdu.
Gəldi Azərbaycan Cümhuriyyəti,

Yayıldı dünyaya  gur hərarəti.
Üç rəngli bayrağım ucaldı göyə,
Xoş xəbər yayıldı obaya, köyə.
Bəyan etdi dünyaya məramını,
Yandırdı azadlığın gur şamını.
Dünyaya elan etdi əməkdaşlıq,
Bərabərlik, ədalət və qardaşlıq.
Ölkədə yaşayan millətlər, xalqlar,
Verildi onlara eyni hüquqlar.
Xəbis qonşulardan həzər ay həzər,
Tülkü tək pusquda dayanar, süzər.
Şaumyan, Bakıdan Leninə yazır,
Hiyləyə əl atır, quyular qazır.
Hər cür şayələri yazıb Leninə,
Sahib durmaq üçün Bakı neftinə.
Hətta Gürcüstana aftonomiya,
Söz vermişdi həmən qonşu Rusiya.
"Nəyin hesabına gəlirsə gəlsin,
Türklərin Bakıya yolu kəsilsin".
Qardaş Türkiyəylə bağlandı saziş,
Türkiyə, orduya verdi göstəriş.
Qardaş köməyinə gəldi Türkiyə,
Qoymadı bölünsün Vətən ikiyə.
Milli qüvvələrlə İslam ordusu,
Bakı azad oldu, keçdi qorxusu.
Gəncədən Bakıya köçdü hökumət,
Quruldu Vətəndə müstəqil dövlət.

## İRƏVAN BAĞIŞLANDI

– Gedirdi ölkədə abadlıq işi,
Düşmən bağırsağın kəsirdi dişi,
Həris gözləriylə süzərək bizi,
İt kimi pusurdu cığırı, izi,
Yenə qayçı alıb kələk biçdilər,
Vətənimi hissə-hissə kəsdilər.
İrəvan verildi, dəyişdi gərdiş,
"Bir də Qarabağa atmasınlar diş"
Qədim bir şəhərim edildi peşkəş,
Ancaq kəsilmədi, bitmədi atəş.
Hələ qurtarmamış soyqırım yası,
Andronikin səkkiz minlik bandası.
Zəngəzur, Naxçıvan büründü qana,
Yenə diş atdılar Azərbaycana.
Kəndlər yandırıldı, evlər çalındı,
Gəldi Türk ordusu, qisas alındı.
Hər şeydən əlini üzən dığalar,
Yenə axtardılar yeni ağalar.
Parisdə tökdülər xeyli göz yaşı,
Qarabağ deməkdən şişdi göz-başı.
Çatmadı onlara Konfransdan yal,
Döndülər geriyə ürəkdə xəyal.

## MÜSTƏQİLLİYİMİZİN SÜQUTU

– Erməni Mikoyan yazır Leninə,
İnqilab adından o, Çiçerinə.
Yazıb tələb edir "qızıl" ordunu,

Söyürəm Leninin, o çasusunu.
Qızıl ordu gəlib sərhəddi aşır,
Düşmənin sevinci hey aşıb-daşır.
Tərkibində xeyli erməni əsgər,
Bürüdü ölkəni işgəncə, kədər.
Müstəqil Vətənim süquta yetdi,
Üç rəngli bayrağım zirvədən endi.
Talandı torpağım, daşındı neftim,
Soğan tək soyuldu elim, sərvətim.
Sarsıldıq hamımız gələn xəbərə,
"Əsgərlər gələcək sabah kəndlərə.
Ehtiyatı heç vaxt əldən verməyin,
Əsgərlərə artıq bir söz deməyin",
Deyə, babam dindi, həm kədərləndi,
Onun üz-gözündə yaşlar gilləndi.
– Səhər tezdən çıxdıq evdən səs-küyə,
Camaat çıxmışdı, hamı eşiyə,
Əsgərlər girirdi bütün evlərə,
Soxulub baxırdı bütün yerlərə.
Əllərinə keçən qiymətli şeyi,
Yığırdılar evdə olan çörəyi.
Sandıqlar sökülür, edilir qarət,
Etiraz etməyə yox bir cəsarət.
Danışan əzilir, başı kəsilir,
Evlər yandırılır, viran edilir.
At üstündə gəzən bir neçə cavan,
Dərhal güllələndi, axıdıldı qan.
Məcburi, könüllü bir-bir hamını,
Siyahıya alır, yazır malını.
Ümumi kolxozda birləşdi hamı,
Bircə ayrı idi evləri, damı.

Bir-ikimiz kolxoza yazılmamış,
Malını siyahıya aldırmamış.
Yoxlamağa məmur, milislə gəlir,
“Şirin”vədlər verir, ya qorxu gəlir.
Gah da ki, sürgünlə qorxudur məni,
“Sibirin şaxtası gözləyir səni”
Çox düşündüm, yaşlıları dinlədim,
Yüzdən çox camışı verib inlədim.
Gözlərim hələ də ardınca baxır,
Ürəyim ağrıyır, göz yaşı axır.
Kərbəlayı Əhəd atamın adı,
Təkcə mən olmuşdum onun övladı.
Mallarım, torpağım qalmışdı ondan,
Ürəyim ot tutur, yanıram çoxdan.
Lap əvvəl belə bir hadisə oldu,
Xeyli qızıllarım göyə sovruldu.
Bəy dostlardan biri borc pul istədi,
“Mütləq qayıtararam” – O, xahiş etdi.
O vaxtlar qızıldı işlənən pullar,
Bir torba, iki yüz onluq qızıllar.
Sayıb bəyə verdim, qızıllar getdi,
Qaytara bilmədi, müflisə yetdi.
Nikolay devrildi, dağıldı taxtı,
Sonra Cümhuriyyət, Sovetlər vaxtı.
Sürüynən mal-qaram məndən alındı,
Torpaqlarım, malım yandı, çalındı.

## KƏHƏR ATIN VURULMASI

– Bir gün gətirdilər mənə bəd xəbər,
Qəlbimi bürüdü iztirab, kədər.
“Sabah verməlisən atı dövlətə,
Yoxsa göndərərik səni qürbətə”.
Çətin zamanlarda sadiq yoldaşım,
Dar günümdə Kəhər idi qardaşım.
Qurtarmışdı məni çətin günümdən,
Xilas etmiş neçə-neçə ölümdən.
El-obanın Kəhər ata rəğbəti,
Yayılmışdı atın namı, şöhrəti.
Qaçışda yox idi önündə duran,
Yerişi-duruşu coşdururdu qan.
Qirx “onluq” qızıla satmadım atı,
Heç yerdə yox idi Kəhərin qatı.
Müsadirə olunmuşdu sərvətim,
Alınmışdı torpaqlarım, dövlətim.
İndi tələb edir dövlət Kəhəri,
Orucluq ayının bayram səhəri.
Qərar verdim dərhal atın qətlinə,
Keçməməkçün yağı-düşmən əlinə.
Götürdüm yerindən beşatılanı,
Köməyimə çətin gündə çatanı,
Ürək əsə-əsə girdim tövləyə,
Gümanım qalmamış mənim heç nəyə,
Ürəyimdə kədər, gözlərimdə yaş,
Kəhər idi mənə ən əziz yoldaş.
Onunla gəzmişdim eli-obanı,
Onunla gəzmişdim Azərbaycanı.
Sildim gözlərimin axan yaşını,

Sığalladım atın məxmər başını.
Kəhər məlul-məlul batmışdı qəmə,
Ağzını vurmurdu qoyduğum yemə.
Kəhər! – Səndən ayrı mənim sonumdur,
Səni öldürməyim naçar yolundur.
Gedib yağılara qul olmaqdansa,
Onları belində aparmaqdansa,
Ölməyin əfzəldir mənimçün daha,
Pənah aparıram gözəl Allaha.
Babam danışırdı ürəyində qəm,
Səsi zəifləmiş, gözlərində nəm.
– Süzüldü gözümdən yaş gilə-gilə,
Günahdır öldürmək, mən bilə-bilə.
Götürdüm tüfəngi əlimə yerdən,
Gözümü ayırdım əziz kəhərdən.
Titrəyə-titrəyə çəkdim tətiyi,
Sanki, iki böldüm orda ürəyi.
Kəhər bərkdən nalə çəkdi, kişnədi,
Yanıqlı səsindən yer-göy titrədi.
Dizləri büküldü, yıxıldı yerə,
Zəif iniltili, can verə-verə...
Yaşlı gözləriylə baxaraq yenə,
Sanki söyləyirdi vəfasız, mənə.
Bağışla Kəhərim, məni bağışla,
Kədərli gözlərim dolmuşdu yaşla.
Danışa bilmədim, dilim dolaşdı,
Ürəyim, gözlərim, yandı, alışdı.

## GÜLLƏ SƏSİ

“Güllənin səsini eşidərək mən,
Qaçaraq özümü yetirdim həmən”...
Deyə, Əmən kişi başladı sözə,
Hamı həyəcanla baxır göz-gözə.
Kəhər yıxılmışdı, can verir dəhşət,
Onun gözlərində iztirab, vəhşət.
Atın yarasına salaraq nəzər,
Sinə qan içində, üzülür Kəhər.
Dərhal yağ əritdik, tökdük yaraya,
Qonşular eşitmiş, gəlmiş haraya.
Silahı gizlədim tez göz önündən.
Kəhər vurulmuşdu, – söylədim həmən.
Yarasından axan qanı saxladıq,
Ağ kətanla məlhəm qoyub bağladıq.
“Allahdan ümidlər kəsilməz” – dedik.
Ata türkəçarə dərman içirtdik.
Özün vurduğunu demə heç kimə,
Vacibdir ki, atı göstər həkimə.
Cahangirə belə məsləhət gördüm,
Yaralı Kəhərə bir axur hördüm.

## BULAQ BAŞINDA YARALI

– Dostum Həsənə göndərdim xəbər:
“Ağır yaralanıb, can verir Kəhər”.
Babam danışaraq sözə başladı,
Mövzunun noxtasın əlinə aldı.
– Bir gün sonra Həsən özün yetirdi,
Özüylə bir neçə dərman gətirdi.

Qüssələndi, atı gördü, üzüldü,
Onun gözlərindən kədər süzüldü.
“Həkim bir dostumu, göndərrəm” – dedi,
Çörək də yemədən tələsib getdi.
Həsən harda olur? – Harda yaşayır?
İçimdə xeyli sirr qaynayıb daşır.
Onunla dostluğun bir hekayəsi,
Yəqin düşündürür burda hər kəsi...
Bir gün yolum düşdü uca dağlara,
Dağların döşündə buz bulaqlara.
Gözəl yaz səhəri, hər tərəf çiçək,
Açıb bənövşələr hey ləçək-ləçək.
Quşlar cəh-cəh vurur, oxuyur nəğmə,
Gözəllik bəxş edir duyan qəlbimə.
Qaratoyuq uçur, çox gəlir xoşa,
Zövq verir ürəyə, gətirir cuşa.
Min əsrlik palıd, nil ağacları,
Bürünüb yaşıla dağ yamacları.
Qızılgöz, iynəyarpaq, dəmirağac,
Ulas, motal, qəndələş, vən, tozağac.
Necə də gözəldir razdal və fısdıq,
Zümrüddonlu dağlar verir rahatlıq.
Xeyli gəzdim, qalxdım “Mavi” bulağa
Şəfa çeşməsinə, o gözəl dağa
Birdən gördüm qabaqda,
Məndən bir az uzaqda,
Uzanmışdı bir nəfər,
Yaşamaqdan yox əsər.
Tələsik yəhərdən yerə sıçradım,
Yerə uzanmışın yanına qaçdım.
Nəfəs xırıltılı, gözlər qapalı,

Boz at da gözləyir ondan aralı,
Sinəsi üstündə beşatılanı.
Başının yanında onun Quranı.
Paltarı, əlləri, üz-gözləri qan,
Ağır nəfəs alır, o, verirdi can.
Qanlı köynəyini açdım, yoxladım,
Yaranı bağladım, qanı saxladım.
Dərhal yaralını qaldırdım yerdən,
Yaralının atı kişnədi birdən.
Qarnı üstə yıxdım onu Kəhərə,
Bənd etdim, bağladım onu yəhərə.
Tutaraq belindən, bulaqdan endim,
Meşə kənarında bir evə gəldim.
Bozat da kənardan izləyir məni,
Tərk etmirdi heyvan, öz sahibini.
Qorxulu vəziyyət, silah da yasaq,
Əsgərlər hər yerdə axtarır qaçaq.
Üstümdə qalacaq günahız bir qan,
Gözləyir dəhşətli, əzablı zindan,
Əgər ölməsə də, yenə ortağam
Kömək etmişəmsə demək qaçağam.
Yenə də ya zindan, ya da ki, sürgün,
Ən çətin gün idi mənimçün, o gün.
Əgər atıb getsəm, kişilik olmaz,
Vicdanım sızlayar, ürəyim açmaz.
Nabələd qapını döyərək həmən,
Evin kişisini soraq etdim mən.
Çıxaraq qapıya yaşlı bir kişi,
Yaşı az deyildi, ötər yetmişi.
Gülümsər gözlərlə verərək salam,
"Xoş gəldin" söylədi, gözündə inam.

Yaralını görcək tez evə qaçdı,
Oğluyla birlikdə qapını açdı.
Yaralını yavaş-yavaş açdılar,
Yəhərdən düşürüb evə aldılar.
Adım Cahangirdir, Əhəddir atam,
Kəndim Abasbəyli, gözəl el-obam.
Gördüm yaralını "Mavi bulağa"
Bilmirəm kimliyin, obası harda?
Öz kəndim çox uzaq, yarası ağır,
Ora aparsaydım, ölərdi fağır.
Bozat da onundur, ardınca gəlir,
Sahibini atmır, hey keşik çəkir.
Xəstəyə baxmağa həkim gətirrəm,
Köməyimi, ona, sizə yetirrəm.
Deyə, ev yəsinə məlumat verdim,
Adımı, obamı ona bildirdim!
Dedi: – Tanıyıram sənin atanı,
Allah rəhmət etsin gözəl insanı.
Hər yerdə var idi hörməti-sanı,
Ziyarət etmişdi həm Kərbəlanı.
İmkanlı bir adam eldə, obada,
Həmişə çatırdı köməyə, dada.
Bu obaya xeyir-şərə gəliblər,
"Ot kökü üstündə bitər", – deyiblər.
Adım Mirəlidir, Mirkazım atam,
Həmişə üzünə açıqdır daxmam.
Köməklik etdiyin qaçaq Həsəndir,
Şura dövlətinə qatı düşməndir.
Adını heç yerdə çəkmə, danışma,
Ən yaxın dostuna danışıb çaşma.
Noxtasız, yüyənsiz bir ata bənzər,

Sirri ki, danışdın evbəev gəzər.
Başına ayrılıb çox böyük para,
Ehtiyatlı olsan getməzsən dara.
Dedim: – Seyyid, məndən narahat olma,
Həkim də gətirrəm, nigaran qalma.
Kəhər şahə qalxdı, gülləyə döndü,
Qartal tək yerdə yox, havada süzdü.
İki-üç saata həkimlə döndüm,
Mirəli kişini narahat gördüm.
Dedi: – Çətinləşir, üzülür halı,
Xırıltılı nəfəs alır yaralı.
Həkim alətləri dərhal qaynatdı,
Xəstənin köynəyin cırıb çıxartdı.
Bir saata yaxın bu əməliyyat,
Ölümdən qurtardı, bəxş etdi həyat.
Həkim beş gün qaldı obada qonaq,
Yenə xəbər gəldi, qayıtdım çapaq.
Özünə qayıtmış, gözlərin açmış,
Üzü avazımış, bənizi qaçmış.
Həkim, Mirəlini etdi xəbərdar,
Toplasın dağlardan dərmanlı otlar.
– Yenə gələcəyəm! – deyə o, dindi,
Çantanı götürüb atına mindi.
Minərək kəhərə, atı səyirtdik,
Meşə cığırıyla mənzilə yetdik.

## GECƏ QAPI DÖYÜLDÜ

– Yazın son günləri, qurtarmamış ay,
Ulduzlar sayrışır, bərq vururdu ay.
Hava da tər -təmiz, gecə də bəyaz,
Bu il gözəl keçir Masallıda yaz.
Ötdü vaqiədən bir müddət, bir vaxt,
Qapını döydülər, bir gecə bivaxt.
Silahımı alıb həyətə çıxdım,
Evin ətrafına, yaxına baxdım.
Duraraq kənarda üç nəfər insan,
Silahsız, yaraqsız baxır kənardan.
Salam verdim, gəldim həmən irəli,
Baxıb gülümsəyir dostum Mirəli,
Həsən də yanında dayanmışdı şax,
Dünyanın işinə, gərdişinə bax.
Onlarla görüşdüm, öpdüm üzündən,
Sevinc parlayırdı həm gözlərindən.
Dərhal qonaqları edərək dəvət,
Artıq oyanmışdı evdə də külfət.
Dedilər: – Çox gecdir, səhərdir daha,
Vaxt olar gələrik sonra bir daha".
İsrarla çağırdım dostları evə,
Döşənmiş otağa xalçalar, gəvə.
Düzülmüş otağa bir neçə nalça*,
Divardan asılmış qədim bir xalça.
Dərhal simovara Əşrəf od saldı,
Ocaqdan iri bir qazan asıldı.

*nalça – oturmaq üçün döşəkcə

Əşrəf su gətirdi, əlində təlis*,
Dilində salamı, sözləri səlis .
Qonaqlar əllərin həmən yudular,
Bir az dincəldilər, xoşhal oldular.
Həsən, danışaraq bir neçə kəlmə,
Üzünü hörmətlə tutdu üzümə.
– Cahangir, vaxtında çatdın dadıma,
Yetirdin özünü sən imdadıma.
Ömür bağışladın, can verdin mənə,
Bir həyat borcluyam qardaşım sənə.
İndi hiss edirəm özümü sağlam,
Sizin sayənizdə həyatda varam.
Adım da Həsəndir, ünvanım Bərcan,
Vətənimdir mənim can Azərbaycan!
– Görsəydi yaralı, başqa bir insan,
Kömək əsirgəməz, olmazdı pünhan.
Kim olsaydı bizim kimi edərdi,
Gördüyümüz işi o da görərdi.
– Deyə, cavab verdim, etdim təbəssüm,
Bir daha olaylar oldu təcəssüm.
Biz xeyli danışdıq, tutduq hal-əhval,
Şirin söhbət etdik, cümlələr şan-bal.
Ocaqda közərir, alışır alov,
Süfrəyə verildi ləvəngi pilov.
Süfrə arxasında arabir söhbət,
Çətin güzarandan gedirdi əlbət.
Nəbi də danışdı öz atasından,
Onun da mülkünün alınmasından.
Dedilər: – Çox gecdir, səhərdir daha,

*təlis – əl-üz dəsmalı

Əmanət olunuz gözəl Allaha.
– Yaxşı yol qardaşlar, yol açıq olsun,
Ürəyiniz hər vaxt sevinclə dolsun.
Bir daha görüşdük, verdik əl-ələ,
Həsənlə dostluğum başlandı belə.
Saxlayaq məclisi, yorulduq daha,
Hamınız əmanət uca Allaha.
Sübhan, sözlərimi sən yaxşı dinlə,
Çox qalıb sonuna hekayəm hələ.

## İKİNCİ SÖHBƏT
***(Naməlum qonaq)***

– Birinci məclisdən ötdü bir müddət,
Yenə məclis vardı, gedirdi söhbət.
Qonşular vermişdi evdə baş-başa,
Mehribandı burda qardaş-qardaşa.
Gözlərimdə sual, bəzən də qəhər,
Sordum ki, nə oldu ay baba Kəhər?
Danışın tarixdən, qoy biz də bilək,
Gələcəyə sonra bir bilgi verək.
– O illəri xatırlamaq çox ağır,
Danışanda gözlərimdən yaş axır.
Kəhər hərəkətsiz yerdə yatırdı,
Ged-gedə vəziyyət ağırlaşırdı.
Dövlətə məlumat verərək səhər,
“Axşam həyətimdə vurulub Kəhər”.
Milislər, məmurlar gəlib baxdılar,
Atı qan içində görüb çıxdılar.
Səfərbəylik cədvəlindən silindi,
Yararsız at kimi orda bilindi.

Bir gün sonra bir atlı gəldi bizə,
Salam verdi sonra başladı sözə.
– Lənkəran elindən bir həkiməm mən,
Kəhərə baxmağa göndərib Həsən.
Gözüm işıqlandı, çırağım yandı,
Gözlərim önündə Kəhər dayandı.
Həkim çox diqqətlə yaraya baxdı,
Onun gözlərindən qəm-qüssə axdı.
Otlardan dərmanlar hazırladı həm,
Atın ayaqların bağladı möhkəm.
Tövlənin yanında yandırdı ocaq,
Bir-bir alətləri közərtdi qoçaq.
Atın sinəsini kəsdi, doğradı,
Gülləni çıxartdı, qanı saxladı.
Bir neçə yerdən də ataraq tikiş,
Tez-tez işləyirdi, etmişdi vərdiş.
Təmiz parça ilə yudu, sarıdı,
Əmən də, bu işdə bizə yarıdı.
Silərək dəsmalla həkim öz tərin,
Açdı ayağını həmən Kəhərin.
Əşrəf dəvət etdi bizi süfrəyə,
Allah təamına, halal yeməyə.
Yeməkdən az sonra durdu ayağa,
Başladı bizimlə vidalaşmağa.
Dedi: – Getməliyəm, yolum uzaqdır,
Mən gördüm işimi, Allah dayaqdır.
Qızıl pul gətirib verdim həkimə,
Həkim gülümsəyib baxdı üzümə.
Qızılı Əşrəfə hədiyyə etdi,
Qardaşımın dostu, dostumdur, – dedi.
Almadı pulları o gözəl insan,

Cənub zonasında, o böyük loğman.
Doktor İlkin minərək öz atına,
Baş əymədi nə paraya, altına,
Uğurlar dilədim gözəl insana.
Xırda bir bağlama uzatdım ona,
Çox xahiş, israrla, axır ki, aldı.
Gülümsəyib, yolu əlinə aldı.

## İLK MƏKTƏB

Talış dağlarının zirvəsində qar,
Masallıda soyuq keçirdi bahar.
Buxarı başında əyləşmiş babam,
Əvvəlki şuxluqdan yox əsər, yaşam.
Dərdli-dərdli hey baxırdı ocağa,
Xəyalları çox getmişdi uzağa.
Diqqətini vermiş ocağa, közə.
Ocağın alovu vururdu gözə.
Nə tez bu son ildə qocaldı babam,
Nə az ömür sürür Allahım, adam!
Kaş insan ömründə, olmaya kədər,
Kaş insan, ömrünü sürməyə hədər.
Babam hiss edərək məndəki halı,
Diqqətlə baxaraq mənə mənalı.
– Ocaqlarda olan közə bənzətdim,
Közdən sonra qalan külə bənzətdim,
Açıb tez də solan gülə bənzətdim.
Şam kimi əriyən insan ömrünü.
Xoşbəxt o insandır yanan ömrünü,
Yaxşı əməllərə, günə sərf edir.
Bu fani dünyadan üzü ağ gedir.

– Baba, necə oldu Kəhərin halı?
Çoxdandı yatırdı ağır yaralı.
– Kəhər itirmişdi xeyli çoxlu qan,
Hər gün yarasına tökürdüm dərman.
Baxaraq yaraya, olaraq bihal,
Məsləhət verərək yaşlı ağsaqqal.
"Arpayla birlikdə yedizdir kişmiş,
Qədim kişilərdən bu söz deyilmiş".
İrandakı dosta etdim sifariş,
O, göndərdi mənə bir kisə kişmiş.
Qısa vaxtda Kəhər xeyli dirçəldi,
Ayağı yer tutdu, xeyli kökəldi.
Hər gün çıxarırdım, bayıra, çölə,
Atı suvarmağa dupduru gölə.
Günlər keçdi, Kəhər tamam, sağaldı,
Kişnəyərək dağa-daşa səs saldı.
Hamıdan alındı dövləti, malı,
Aclıq bürümüşdü bütün mahalı.
Narazılıq xeyli artdı, çoxaldı,
Oğurluq, quldurluq son həddi aldı.
Bağlandı məscidlər, izləndi Quran,
Sürgünə yollandı quran oxuyan.
İşğalçı bir dövlət olsa da "Şura"
Müsbət cəhətləri, yarada, qura.
Sağlamlıq mərkəzi, təhsil ocaqlar,
Qurub-yaradırdı ölkədə onlar.
Məktəbə, savada verildi qiymət,
Məktəblər açırdı hər yerdə dövlət.
Evim böyük idi, iki mərtəbə,
İki otağımı verdim məktəbə.
Hər yerdən gəlirdi uşaqlar, böylər,

Dəvət edilmişdi ətrafda köylər.
Oxumaq, yazmağı Mehdiyev Kərim,
Məktəbdə verirdi tərbiyə, təlim.
Mövzudan kənara çıxıram qardaş!
Kərimin haqqında qaldıraq yaddaş.
Getdi ön cəbhəyə, salamat gəldi,
Bakıdan, kəndini xəbərdar etdi.
Alaraq evindən bəd bir xəbəri,
Gözdə yaşa döndü onun kədəri.
"Ailən dağılıb, yoxdur o, daha"
O da qayitmadı, pənah Allaha.
Təzədən qayıdıb getdi bixəbər,
Bir daha gəlmədi ondan iz-xəbər.
Çox uşaq gəlirdi, otaqlar da dar,
Dövlət adamları qalmışdı naçar.
Sonra məktəb köçürüldü "Kontora"*
Kənddən uzaq, gözdən uzaq ucqara.
Böyük din xadimi axund Möhsünü,
Hakim qərar verdi ona "sürgün"ü.
Axundun əmlakı "çalındı" ondan,
Böyük din xadimi getdi diyardan.
Ayırdılar onu obadan, candan,
Sürgünə yollandı Azərbaycandan.
Axundun evini məktəb verdilər,
Əmlakını müsadirə etdilər.

* Kontor - meşə ağacları çəkilən binanın adı

## ÜÇÜNCÜ SÖHBƏT
*(Canavar balaları)*

– Payız fəsli addım-addım gəlirdi,
Yay da öz çuxasın yığıb gedirdi.
Saralıb tökülür bir-bir yarpaqlar,
Üşüyürdü çılpaq qalan budaqlar.
Günlərin birində, dağda gəzəndə,
Mətərə çayından atla keçəndə,
Kəhər at dayandı, atmadı addım,
Ətrafı yoxladım, qayaya baxdım.
Qayanın döşünə baxanda həmən,
Gözümə sataşdı işıltı birdən.
Dişini qıcıyıb iki canavar,
Dəhşətli gözüylə baxırdı onlar.
Qaldırdım tüfəngi, alaraq nişan,
Görmədim onları güllədən qaçan.
Canavarın biri keçdi qabağa,
Güllə ona dəydi, aşdı torpağa.
İkinci canavar qaçmadı, durdu,
Qayanin dibində  yerə oturdu.
Yırtıcı da olsa peşiman oldum,
Əllərim boşaldı, vurmadım, durdum.
Sirri öyrənməyə getdim qabağa,
Baxdım canavara, yuxarı dağa.
Ürəyim, gözlərim heyrətə gəldi,
Çox peşiman oldum, əllərim əsdi.
Bala məhəbbəti üstün gəlmişdi,
Ölümü bax belə üstələmişdi.
Qaçmayıb duraraq yırtıcı ana,
Südünü  veridi  yavrularına.

Həyatını qurban verərək, erkək,
Qorxmadı ölümdən, qorxmadı ürək.
Nə çoxdur sirlərin sənin a dünya,
Canavar da qurban gedir balaya.
Atın cilovunu çəkdim geriyə,
Çox fikirli gəldim Abasbəyliyə.
Kaş bəzi insanlar olaydı belə,
Atmasın körpəsin bayıra, çölə.
Axı körpələrin nədi günahı,
Tutacaq onların göz yaşı, ahı.

## PARÇALANMIS İNSAN

– İki ay keçmişdi, o hadisədən,
Yenə yolum düşdü həmin sahədən.
Maraqlandim görmək üçün onları,
Görən nə yerdədir indi halları?
Kəhər durdu, getmədi ki qabağa,
Hiss etdirdi getmək olmaz uzağa.
Yavaş sürdüm atı ora birtəhər,
Cilovu "gəmirir", az qala Kəhər.
Gördüyüm mənzərə dondurdu qanı,
Bədənim ürpəşdi, yandırdı canı.
Əsəbdən titrədi, bədəndə canım,
Ürəkdə qalmadı bir qətrə qanım.
Bir ana canavar, balası yeddi,
Bir insanın ömrü üzüldü, yetdi.
Ciyəri yeyilmiş, ayrılmış bədən,
Bir əsər qalmamış onun üzündən.
Qolun, qabırğasın yığdım birtəhər,

Çevirdim qibləyə, düzəltdim çəpər.
Xəncərlə doğradım kolu-budağı,
Örtdüm üzərinə sıx-sıx yarpağı.
Əlimi, üzümü yudum bulaqda,
Namazımı qıldım, əyləşdim orda.
"Yırtıcı dost olmaz" – deyib atalar,
Bu söz nəsillərdən nəsilə qalar.
Körpəlikdən saxla, böyüt, əzizlə,
Lap evin içində istəsən bəslə.
Yenə bildirəcək öz naqisliyin,
İmkan düşən kimi öz nacisliyin.
Sonra da Kəhəri minib çaparaq,
Ətrafa, kəndlərə mən saldım soraq.
Yelağac, Zuvandlı, Bərcan, Alaşar,
Agah oldu kəndlər bu işdən aşkar.
Yelağac kəndindən o, bədbəxt insan,
Kənd heyvanlarına gedərmiş çoban.
Özümə söz verdim, bir də heç zaman,
Ürəyim ağrımaz, öldürrəm haman.

***Haşiyə***
Erməniyə torpaq verdik, bəslədik,
Qonşu dedik, hörmət-izzət gözlədik.
Başımız həmişə düşür bəlaya,
Yoxdur yer üzündə belə bihəya.
Gör neçə əsrdən, illərdən bəri,
Yedirtdik onları, quduz itləri.
Yeyib qudurdular, tutdular bizi,
Halal torpağımız, çörəyimizi.
Onların xisləti acgöz canavar,
Süpürüb atasan, sanki bir avar.

## DÖRDÜNCÜ SÖHBƏT
***(Naməlum qonaq)***

– Talış dağlarının sərt qış havası,
Ərıyərək gəldi yazın səfası.
Hər tərəf büründü yaşıl bir bağa,
Bülbüllər başladı nəğmə qoşmağa.
Qartalların qiyyə çəkən nərəsi,
Qaratoyuq çəh-çəhi, zəngulsəsı.
Dağda şəlalənin ecazkar səsi.
Valeh edir ora gedən hər kəsi.
Günlərin birində, günəşli bir gün,
Ağsaqqal bir kişi yorulmuş, üzgün.
Dilində salamı, adı da Musa,
Gəldi evimizə əlində əsa.
Əl verib əlimi sevinclə sıxdı,
Gülümsər gözlərlə üzümə baxdı.
Evin qabağında taxtadan eyvan,
Sərin külək əsir, kölgəlik, səhman.
Həsir* sərilmişdi, üstündə palaz,
Gözəllik bəxş edir kəndimizə yaz.
Qədim samovarın züm-zümə səsi,
Çini çaynikin də həzin nəğməsi.
Çətirlənmiş zümrüddonlu ağaclar,
Qoşa-qoşa qarağaclar, palıdlar.
Günəş şüasından kəsilmiş həyət,
Kölgəlik yaratmış qoca təbiət.
Kəkotu çayından içərək qonaq,
Şirin söhbət etdi, həm yaxın, uzaq.

---
*Həsir – qamışdan toxunan xalça əvəzi

Daha soruşmadım məramın nədir?
Səni üzən, əzən, de hansı dərddir?
Çox qalmadı, qonaq atına mindi,
Mehriban baxışla danışdı, dindi:
“Sən görmək istəsən dostun Həsəni,
Sabah düz günorta gözləyir səni.
Taparsan onları sən “Kor” bulaqda,
Canavar vurduğun,  o qayalıqda.
Gizlin gəldim qardaş sənin yanına,
Sevinc qatmaq üçün həm əhvalına”.
Bunu deyib qonaq atı səyirtdi,
Bir anda çaparaq gözümdən itdi.
Ürəyim sevindi, həm kədərləndi,
Şad xəbər eşitdim, qəlb bədirləndi.
Bəlkə yoxlayırlar hökumət yenə,
Göndərməyə məni uzaq sürgünə.
Bütün əmlakımı “bağışlamışdım”
Hələlik kolxoza yazılmamışdım.
Meşədə var idi çoxlu heyvanım,
Bəlkə Sovet gedə, vardı gümanım.

## BOZATIN BELİNDƏ

– Qalxırdım dağlara meşə yolunda,
Palıd, nil ağaclar sağı, solunda.
Önümdə durmuşdu qoşa qayalar,
Qartallar məskəni, quş qanad salar.
Yəqin dəyişmişdi bu görüş yeri,
Yenə də hayladım gözəl Kəhəri.
Düşündüm ki əgər gəlibsə Həsən,

Yəqin xəbərdarlıq edəcək həmən.
Dağlar sıralənıb dayanıb qat-qat,
Dağlar arxasında kişnədi Bozat.
Kəhər cavab verdi, ucaldı səsı,
Dağlara yayıldı at kişnərtisi.
Artıq bəlli oldu onların yeri,
Mavi bulaq idi görüş yerləri.
Qaya arxasından göründü Həsən,
Güllə  qətərləri çiyinlərindən.
Bozatın üstündə əldə beşatılan,
Ətrafında xeyli silahdaş olan.
O, məni görərək atı səyirtdi,
Qarşılamaq üçün çaparaq gəldi.
İki qardaş kimi biz qarşılaşdıq,
Düşərək atlardan, həm qucaqlaşdıq.
Həsənlə birlikdə on doqquz qaçaq,
Hamısı  silahlı, üstləri  yaraq.
Bulağın üstündə ocaqlar səf-səf,
Təmizdir dörd tərəf, yox idi ələf.
Ağac çəpər tutmuş "Mavi" bulağa,
Gözəllik səpirdi bulaq yaylağa.
Qayanın döşündən pokkur* çıxırdı,
Həzin-həzin nəğmə deyib axırdı.
Axırdı gözündən dupduru suyu,
Axıb süzülürdü hey cığır boyu.
Xəz dərilər döşənmişdi torpağa,
Hamımız baxırdıq "Mavi" bulağa.

---

*Pokkur - qaynamaq

## MÜHASİRƏ

– Həsən gözlərini ayırıb sudan,
Uzatdı əlini süfrəyə haman.
Bulaq üstə kabab, təndir çörəyi,
Talış dağlarının sərin küləyi.
Bulaq suyunun da dadı, ləzzəti,
Tez qurtardı yeddi toğlunun əti.
Başını qaldırıb baxaraq mənə,
Həsən davam etdi yenə sözünə.
Seyid Mirəli də kəsildi qulaq,
Oxucum, birlikdə biz qulaq asaq.
– Niyə görsənmirdim, itmişdim gözdən?
Niyə ayrılmışdım çoxdandı sizdən?
Lənkərana bir dost toyuna getdik,
Yeddi silahdaşla iştirak etdik.
Geri qayıdanda düşdük tələyə,
Əsgərlər aldılar mühasirəyə.
Torpaq təpəciklər yetərək dada,
Şükür ki, bizlərdən getmədi bada.
Atəş aça-aça həqəni yardıq,
Gecə qaranlıqda yol-izə vardıq.
Gedəndə qundaqla vurdum zabiti,
Yəhərə aşırdıq o qara bəxti.
Çaparaq atları biz çıxdıq dağa,
Sərin bulaqlara, gözəl yaylağa.

## BEŞİNCİ SÖHBƏT
***(Erməni zabitinin qaçaq Həsənə etirafı)***

– Tezdən gətirildi yanıma əsir,
Duraraq qarşımda əl-ayaq əsir.
Rus qiyafəsində erməni millət,
Qan uddurub bizə, verib əziyyət.
Batırmış əlini ölkədə qana,
Çox zülmlər etmiş Azərbaycana.
Xoşuna gəlmişdir o, Şaumyanın,
Qafqazın başçısı, hərbi tulanın.
Çağırıb yanına çox təriflәmiş,
Məxvi tapşırıqlar, göstəriş vermiş.
"Türklərdir tarixi düşmənlərimiz,
Əziyyət çox çəkib hey ermənimiz.
Nə qədər bacarsan öldür türkləri
Onlar çox qırıblar biz erməniləri".
– Göstəriş vermişdi ona Şaumyan.
Sonra təlimatı verir Mikoyan,
Qorxudan danışır o, Xaçaturyan.
Leytenant rütbəsi verərək ona,
Qan uddurmaq üçün Azərbaycana.
Axıtmışdı cənubda sel-su kimi qan,
Danışır, əsirdi o Xaçaturyan.
– Ordu tərkibində çoxlu-çoxlu hay,
Yazılmışdı yüzlər, minlər xeyli say.
Bizim əlimizə keçmişdi imkan,
"Verməyin Türklərə heç yerdə aman,
Yansın, alovlansın, qoy Azərbaycan!"
Tapşırıq vermişdi şəxsən Mikoyan.
Qapılar açılır evdə taybatay,

Qundaqla əzirdik başları lay-lay.
Süngünü soxurduq qarınlarına,
Təcavüz edirdik qadınlarına.
Gözləri oyulmuş neçə körpələr,
Yandırıldı neçə baba, nənələr.
Döşləri kəsilmiş xeyli qadınlar,
İşgəncə verilmiş minlərlə canlar.
Evlərin içində tökürdük al-qan,
Belə tapşırmızşdı bizə Mikoyan”.
– Bir-bir danışırdı o, Xaçaturyan.
“Ruslara deyirdik: ey Ruslar, baxın!
Ermənidir sizə silahdaş, yaxın.
Əgər istəyirsiz Sovet dövlətin,
Gərək öldürəsiz bu Türk millətin.
Acımayın Türkün siz göz yaşına,
Oyun açaq onların biz başına.
İnanmayın Türkə, ey insan oyan
Tapşırıq vermişdi bizə Mikoyan.
Salyan, Cəlilabad, həm də Masallı,
Lənkəran, Astara, Lerik, Yardımlı.
Bütün rayonlarda axıtmışıq qan”,
– Danışıb, əsirdi o, Xaçaturyan.
“Həsən öldürülsün, ya da tutulsun,
Dəstə üzvləri dərhal vurulsun.
Qaçaqlara kömək edən adamlar,
Nəzarət altına alınsın onlar”.
Mərkəzdən belə bir tapşırıq aldıq,
Hər yeri izlədik, pusquda qaldıq”.
– Qarşımda titrəyir o, erməni “yan”,
Bunları deyirdi o Xaçaturyan.

## MASALLIDA KÖRPÜ ÜSTÜNDƏ QIRĞIN

“Qaçaqlara kömək edən adamlar,
Nəzarət altına alınsın onlar”
“Bu məxvi göstəriş olaraq əsas,
Hər yerdə ağlaşma, hər yerdə təlaş.
Masallı kəndləri bələndi qana,
Səfalət bürüdü, çatdı hər yana.
İşgəncə verməkdən həzz alırdıq biz,
Çalışıb qoymurduq yerdə qalsın iz.
Yiğdıq yaşlıları həm cavanları,
Silah qabağına qatdıq onları.
Uşaqlar, qadınlar ağlayır zar-zar,
Qocalar yalvarıb edir ahuzar.
Musaküçə yanı ağlaşma, şivən,
Viləşçay üstündə qırılan, ölən,
Onların üzündə yalvarış, dəhşət,
Ölüm qabağında gözlərdə vəhşət.
Əlləri bağlanıb, qışqırır insan,
Gülləylə sulandı neçə-neçə can.
Suyun üzərini boyadı al qan,
Hamını öldürdük, nə bir sağ qalan.
Yüzdən çox insanın meydi qalandı,
Viləşçay körpüsü qana boyandı.
Belə bir göstəriş vermiş Mikoyan”.
– Etiraf edirdi o, Xaçaturyan,
– Mövzudan kənara gəl bir az çıxaq,
Sözün axarıyla keçmişə axaq
Şəhid olanları gətirən zaman,
Onların içində bir nəfər olan.
Görürlər ki, hələ o, alır nəfəs,

Görəsən kimdir ki, yaralı, o kəs?
Üz-gözü yuyulur, təmizlənir qan,
Hələ də çıxmamış onda olan can.
Tanıyır tez onu, o kənddən Heydər,
Aparır evinə gizlincə səhər.
Həmin Qədirdir ki, sağalan, duran,
Sonra Masallıda dəyirman quran.
Ustalar içində yüksəyə qalxdı,
Günəş tək zirvədən zirvəyə qalxdı.
Su dəyirmanları onunla bağlı,
Gözəl insan, gözəl usta soraqlı
Viləşçay üstündə çoxlu dəyirman,
Üyüdürdük buğda, arpa o zaman.
Çayın bir qolundan çəkilərdi arx,
Kəhrizlə su axar, işləyərdi çarx.
Pərlərə axardı şirhaşirla su,
Sərin meh vurardı, gözəl qoxusu.
Çarx da fırladırdı dəyirman daşın,
Bulaşardı una unçunun başı.
Daşa dən tökülür, daş da xırhaxır,
Daşların gözündən bərəkət çıxır".

## ADAMLA DOLU EVƏ OD VURULUR

– Salyandan keçəndə, evlərdən bir-bir,
Hamımız olmuşduq orada əlbir.
Yüzlərlə insanı yığdıq bir yerə,
At döşünə qatıb, saldıq evlərə.
Qışqırtı, ağlaşma, iniltili səs,
Önümüzü kəsən heç kimsə, heç kəs.

Evlərdən yüksələn ağlaşma, fəryad,
Onlardan qışqırıq, yanıqlı imdad.
Qapını bağlayıb evləri yaxdıq,
Kənarda dayanıb gülərək baxdıq.
Alovun dilləri göyə ucaldı,
Yüzlərlə insanlar kül oldu qaldı,
Müjdə xəbərini mərkəzə verdim,
Evlərdə insanlar alışdı – dedim.
"Afərin" – söylədi bizə Mikoyan".
– Danışır, əsirdi o, Xaçaturyan.
"Yaralı Həsənə kim etdi yardım?"
"Xüsusi tapşırıq mərkəzdən aldım.
Mirələmdən, Cahangirdən şübhə var,
Hələ də kolxoza girməyib onlar!
Atın vurulması bir daha şübhə,
Onun ətrafında daralır cəbhə.
Ancaq ki, yox əldə həlalik dəlil,
Amma tutacaqlar, olacaq zəlil.
Sirləri açaraq sizə söylədim,
Buraxın, rəhm edin, qoy çıxım gedim".
– Yalvardı, inlədi, dilədi aman,
Göz yaşı axıtdı o, Xaçaturyan.
Ağlayıb bizlərdən diləmə aman,
İndi mən verirəm burada fərman.
Sızın öldürdüyüz mınlərlə insan,
Qana boyadığız bu Azərbaycan.
Döşünü kəsdiniz, minlərlə yaxdız,
Yanan insanlara gülərək baxdız.
Minlərlə uşağın gözünü oyduz,
Qocanın, cavanın dərisin soyduz.
Acımadız günahsız insanlara,

Niyə rəhm etmədiz sizlər onlara?!
“Rəhm elədik” erməni dığasına,
Yandırmadıq, “güzəştə” getdik ona.
Dar ağac quruldu, “dəmirağac”dan,
Asıldı boğazdan o, Xaçaturyan”.

## ALTINCI SÖHBƏT
***(Təbriz)***

– Həsən danışırdı gözlərində nəm,
Qəmli baxışları, ürəyində qəm.
Həsən danışırdı hadisələri,
Başlarına gələn vaqiələri.
– Gözlərim önünə gəldi el-oba,
Mənə əziz olan qohum-əqraba.
Ağır idi el-obada vəziyyət,
Mənə görə verəcəklər əziyyət.
Atmamaqçün təhlükəyə onları.
Qəbul etdim bu məcburi qərarı.
Gərək müvəqqəti köçək İrana,
O taya, cənubi Azərbaycana.
Toplayıb özümlə həm qohumları,
Mənə yaxın olan silahdaşları.
Bu taydan o taya biz köç elədik,
Qədim paytaxtımız Təbrizə gəldik.
O tay da, bu tay da Azərbaycandır,
Dili bir, qanı bir eyni məkandır.
Ancaq ki, bölünüb iki parçaya,
Bir xalqı, milləti iki araya.
Böldülər ikiyə farslarla ruslar,

Böldülər bir xalqı ikiyə onlar.
Bura gələnlərdən səni sorurdum,
Sizin işinizlə tanış olurdum,
Sorurdum sizlərin vəziyyətini,
Yaralı Kəhərin aqibətini.
Bilirdim izləyir hökumət sizi,
Sübut etmək üçün əlaqəmizi.
Dəridən qabıqdan çıxırdı onlar,
Bunları söylədi çox sadiq dostlar.
Sən tuta bilməsən bir xəbər məndən.
Mən xəbər tuturdum həmişə səndən.
– Eşitmək çox ağır qəmli sözləri,
Kədərdən nəmlənmiş onun gözləri.
Mən də minnətdarlıq bildirdım ona,
Təşəkkür eylədim dağlar oğluna.
Mənə göndərilən, o dəva-dərman,
Sənin köməyinlə keçdi İrandan.
Mənə yollanılan bir kisə kişmiş,
Sənin köməyinlə sərhəddi keçmiş.
Mənə deməsən də bütün bunları,
Demişdilər mənə bu olayları.
Şükrlər olsun ki, görüşdük yenə,
Əlimi aparıb qoydum çiyninə.
Həsən gülümsəyib üzümə baxdı,
Onun gözlərindən məmunluq axdı.

## BAŞSIZ İLAN

– Bir az uzanmağı qərara aldıq,
Qoyun dərisini torpağa saldıq.
Təmiz dağ havası, bir xeli yatdım,
Kəhərin səsinə durdum, oyandım.
Kəhər təpiyini döyür torpağa,
Fınxırıb kişnəyir, baxır bulağa.
Baxaraq Kəhərin baxdığı səmtə,
Bədənim ürpəşdi, gəldim dəhşətə.
Həsənin yanında yekə bir ilan,
Alışıb-yanırdı üz-gözü inan.
Quyruğu üstündə qalxaraq şahə,
Ürəkdə yalvardım uca Allaha.
Görsənirdi onun zəhərli dişi,
Oyanmışdı artiq bir neçə kişi.
Həsən, yorulmuşdu, getmiş yuxuya,
Üz-gözü baxırdı açıq səmaya.
Götürdüm sinəmdən beşatılanı,
Dərhal nişan aldım əfi ilanı,
İlan qıvrılaraq çıxardaraq səs,
Dəhşətə gəlmişdi oyanan hər kəs.
Atılmaq istərkən Həsənin üstə,
Qaçaqlar qışqırıb gəldi dəhşətə.
Yubanmadan atəş açdım başına,
Qayalar da yazdı öz yaddaşına.
Güllənin səsindən oyandı Həsən,
Olaydan xəbərsiz baxaraq həmən.
Əlimdə silaha, bir mənə baxdı,
Onun gözlərindən qəm-kədər axdı.
Təəccüblü halda süzərək məni,

Aşağı endirdi o, gözlərini.
Nəbi sakit-sakit durdu ayağa,
Gedib tez baxaraq qara torpağa.
Həmən götürərək ilanı yerdən,
Həsənin yatdığı dəri yəhərdən.
Başsız ilan bir metirə çatırdı,
Bədəni hey qıvrılırdı, atırdı.
Tapıb gətirdilər, kəsilmişdi baş,
Qaçaqlar qalmışdı hamısı çaş-baş.
Kəsilmiş baş tez-tez ağzın açırdı,
Hələ də, gözləri dəhşət saçırdı.
Tutmuşdu əlində əfi ilanı,
Dəhşətlə qıvrılıb, atır hər yanı
Həsən qalxmamışdı hələ yerindən,
Baxırdı ilanın başına hərdən.
Qaçaqlar hamısı gəldi yanıma,
Söyləndi xoş sözlər həm ünvanıma.
– Heç belə bilməzdik Cahangir səni,
Sərrast atırmışsan sən də gülləni.
Oturduğu yerdən qalxaraq Həsən,
Gələrək yanıma, söylədi həmən.
– Xilas etdin, yenə sən həyatımı,
Qurtardın bu gün də mənim canımı.
Dedim: – Sən də olsan belə edərdin,
İlanın başını vurub kəsərdin.
Əgər etməsəydi Kəhər xəbərdar,
İndi aramızada olmazdı Sərdar!
Kəhəri də o vaxt sən xilas etdin,
Həkimi göndərdin, dərman yetirdin.
Gəl ataq ürəkdən qəmi, kədəri,
Gülsün üzümüzə bu yaz günləri.

Şaqraq şəlalənin xoş nəğməsini,
Dinləyək bülbülün zənguləsini.
Sözlərim onları azca etdi şad,
Olmadı üzləri təmamən gülşad.

## YEDDİNCİ SÖHBƏT
***(Əlvida vətən)***

Kədərli-kədərli baxaraq Həsən,
Dedi: – Keçməliyik bu gün sərhəddən.
Biz gəldik dostlarla vidalaşmağa,
Dostlarla görüşüb halallaşmağa.
Qəmgin-qəmgin baxdı, gözlər ağladı,
Onun bu sözləri ürək dağladı.
Hiss-həyacan artdı, çatdı tarıma,
Qəm-qüssə gətirdi həm ovqatıma.
– Dostlara demədən getdim qürbətə,
Ürəyim olmuşdu üzücü xəstə.
İndi istəyirəm halallıq alım,
Dincəlsin vicdanım, həm də əhvalım.
Zər-ziba içində keçsə də zaman,
Vətənsiz yaşamaq çətindir inan.
“Bülbülü salsan da, qızıl qəfəsə,
Zar-zar ağlayacaq hey bir nəfəsə”
Allahdan yenə də ümid kəsilməz,
Allahımız haqqı nahaqqa verməz.
Bəlkə də qayıda, ola bərqarar,
Müstəqil ölkəmiz bərpa olunar.
– Hamımız birlikdə söylədik: – Amin!
Uca Allahımız qoy olsun zamin.

Çiynimdən silahı əlimə aldım,
Güllə qətərlərin üstümdən saldım.
Öpdüm qundağını, baxdım silaha,
Əlimi qaldırdım uca Allaha.
Silahı Həsənə hədiyyə etdım,
Güllə qətərlərin hamısın verdim.
Almaq istəmədi, qaytardı geri,
İftixarla süzdü məni, Kəhəri.
Evləri bürüyüb axtarış, ahlar,
Yığılır evlərdən odlu silahlar.
Bu silah tutulsa mənim əlimdən,
Qurtara bilmərəm kədərdən, qəmdən.
Bəhanə axtarır indi də düşman,
Dosta qismət olsun qoy beşatılan
Həsən silahımı aldı əlinə,
Öpdü qundağını, asdı çiyninə.
Vidalaşdıq bir-bir, üz-gözdə kədər,
Dostları Vətəndən ayırdı qədər.
Bəlkə də, ömürlük gedirdi onlar!
Bəlkə dönməyəcək geriyə dostlar!
Çətindir ayrılmaq torpaqdan, candan,
Doğma Vətənimiz Azərbaycandan.
Qəmli gözləriylə baxaraq mənə,
Yanıqlı sözlərlə söylədi yenə.
– Məndən salam söylə dosta, tanışa,
Heç vaxt muradınız dəyməsin daşa
Bəlkə qismət oldu, görüşdük yenə,
Xeyir işinizə gəlim evinə.
Qaçaq əmisindən sən salam söylə,
Əşrəfin könlünü şad-xürrəm eylə.
Yaxşı soraqların gəlsin hər zaman,

Doğma evin olsun qoy Azərbaycan!
– Gözdən keçirərək bir-bir onları,
Ayrılırdı bu gün yol-cığırları.
Ayrılıq kədərin ürəkdə əkdim,
Nəmli gözlərimlə şəklini çəkdım.
Kəhərin başını döndərdim kəndə,
Əlvida söylədim dostlara bir də.
Bir az getmişdim ki, baxaraq geri,
Baxır at belindən mənə hər biri.
Dizlərə söykənmiş odlu silahlar,
Onların üzündə kədər, qəm, ahlar.
Baxırdılar onlar bir intizarla.
Dayanıb igidlər baxır vüqarla.
Aldı silahları əlinə onlar,
Açıldı göylərə bir-bir silahlar.
Talış dağlarında güllənin səsi,
Mənə söyləyirdi vida kəlməsi.
"Biz daha gedirik ana Vətəndən,
Çətindir ayırmaq canı bədəndən".
İstədim silahı əlimə alam.
Vida atəşiylə mən verəm salam.
Uzaqdan fikrimi oxudu Həsən,
Mənim silahımı götürdü həmən.
Beşatılan dindi, dağlar inlədi,
Sıldırım qayalar bizi dinlədi.
Mənim silahımla sonuncu güllə,
Getmir qulağımdan səslənir hələ.
– Babam söylədikcə qanlı tarixi,
Yadında qaldığı canlı tarixi,
Bizim ürəyimiz olmuşdu al-qan,
Başın nələr çəkib ey Azərbaycan!

## SON

Gedirəm Vətəndən çox uzaqlara,
Bəlkə buralara heç qayıtmadım.
Vida söyləyirəm qoca dağlara,
Mən vəfasız kimi sizi atmadım.

Doğrandı hər yandan Azərbaycanım,
Getdi əlimizdən torpağım, canım.
Tapdandı namusum, qeyrətim arım,
Öz evimdə dincəlmədim, yatmadım.

Gözüm sizdə qaldı qayalar, dağlar,
Dostların həsrəti qəlbimi daglar,
Gözü yaşlı qalan sevgilim ağlar,
Arzu-muradıma heç vaxt çatmadım.

**KAZAN-2OO9**

# ANA DİLİM

Ana dilim!
San hardasan, mən ordayam,
Səni duyur şərq dünyası.
Sən ki, varsan, mən də varam,
Səni sevir türk dünyası.
Tarixlərdən keçib gəldin,
Yaddaşından qan süzülür.
Haqqın səsi, sədasısan,
Sən həqiqət carçısısan.
Ana dilim!
Nələr çəkmiş başın sənin?
Nə qədərdir yaşın sənin?
Zaman-zaman çıxdın yola,
Tarixlərdən gəldi səsin,
Sən büdrədin, yıxılmadın,
Sən büdrədin, yenə qalxdın,
Qərinələr keçib gəldin,
Əyilmədin, baş əymədin,
Hər dərdinə nikbin baxdın.
Ana dilim!
Müqəddəssən anam kimi,
Ürəyimdə şah damarım,
Şan-şöhrətim, sən qeyrətim!
Beynim, fikrim, xoş amalım,
Etibarım, sədaqətim!
Fəxrimsən elim kimi,
Şirinsən bir dilim kimi.
Hünərim, dizdə taqətim,
Ana dilim!

Nizaminin, Nəsiminin,
Fizulimin sən dilisən.
Səttar xanın, Xətainin,
Babəkimin sən əlisən.
Şəhriyarın qızıl sözü,
Azadlığın görən gözü,
İgidlərin Vətənisən,
Ana dilim!
Harda olsam sən mənimsən,
Vətənimin şah əsəri,
Görən gözüm, ürəyimsən.
Əsrlərdən addım-addım,
Sən yol gəldin bu günümə.
Sinə gərdin yad ellərə,
Ölməzliyin şərbətini,
Dadızdırdın nəsillərə.
Ana dilim!
Azadlığın, varlığınçün,
Bütün dünyaya səs saldın,
Köləliyin zəncirini,
Öz qanınla parçaladın.
Azərbaycan! Türk dünyası,
Sən dikəldin, hey ucaldın.
Meydanlarda hayqırığa,
Zülmətlərdən aydınlığa,
Sən yol açdın azadlığa!
Ana dilim!
Günəş saçdı qəlbimizdə,
"Özgə dilim" geri qaldı.
Qalıb çıxdın yarışlardan,
Ədalətin zəfər çaldı.

Yüksəlmisən zirvələrə,
Xəzərimin sahilində.
Dalğalanan bayrağınla,
Şəfəq saçdın öz elində.
İlk dil açan körpələrim
Ana dedi, yazdı ana,
Vətən sözü hopdu ona.
Baxdı göyə, o, Günəşə,
O, can atdı yüksəlişə.
Ana dilim!
Bənzəyirsən bir Günəşə,
Güneyin var, quzeyin var,
Can atırsan yüksəlişə.
Sən mənimsən qoca diyar!
O tayda sən, bu tayda mən,
İki qardaş, ayrı məkan,
Burda Bakı, orda Təbriz,
Bənd-bərəni kəsib tikan,
Şam tək yanır ürəyimiz…
Ana dilim!
Biz bölündük "Gülüstan"da,
"Türkmənçay" damğa vurdu,
Bir millətin tarixinə.
Düşmən yenə qəsdə durdu,
Yaralandıq hər birimiz,
Saxtalaşdı tariximiz,
Araz çayı sərhəd oldu,
Qardaş orda, qardaş burda,
Bölündü xalq iki yerə,
Vətən oldu pərən-pərən,
Başın nələr çəkdi Vətən?

Ana dilim!
Hissə-hissə sən böləndün,
Parçalandın, sən satıldın,
Hər tərəfə pay atıldın,
Quduz itlər oldu aram,
Millət oldu param-param.
İrandan, həm Türkiyədən,
Köçürüldü ermənilər,
Naxçıvana, İrəvana,
Qarabağa köç etdilər,
Yüz qırx minlik xain millət,
Vətənimdə yerləşdilər.
Ana dilim!
O tay, bu tay nədir bu dərd?
Eyni tarix, eyni millət,
Atamız bir, anamız bir…
Parçalanıb ölkə fəqət…
Ana dilim!
Bütöv görmək istəyirəm,
Yaradandan diləyirəm,
Vahid olsun Azərbaycan!
Canımdan çox ayrılıb can.
Arzularım, diləklərim,
Yetməz inan, yetməz sona,
Ümidimiz var Allaha,
Bakı, Təbriz qoy qarışsın,
Yalvarırıq biz Dərgaha!
İki qardaş yaxınlaşsın,
Dünya olsun buna heyran!!!
Ana dilim!
Şərqdə ilkin addım atdın,

Müstəqillik bayrağımı,
Zirvələrə sən ucaltdın!
Sən dünyaya etdin elan,
Xalqımıza bərabərlik,
Qadınlara hüquq verdin.
Şərqin ey ilk qaranquşu,
Dan ulduzu Azərbaycan!
Bayrağınla ucalasan.
Qisasını yağılardan,
Cəsarətlə sən alasan!
Ana dilim!
Mənim qədim torpaqlarım,
Hissə-hissə qoparıldı,
Ruhumuz, cismimiz yandı.
İrəvan, Şərur, Zəngəzur,
Erməniyə bağışlandı.
Naxçıvana gedən yolum,
Məftillərlə hasarlandı.
Onlar daha quduzlaşıb,
Naxçıvana, Qarabağa,
Mırıldayıb diş ağartdı.
Niyə susdun danışmadın?
Öz səsini ucaltmadın?
Ana dilim.
Bilirəm ki, çarəsizdin,
Sən məcburdun, köməksizdin,
Siz, ey mənim babalarım,
Şəhid gedən qardaşlarım,
Səhid gedən türk əsgərim,
Unutmayır bizlər əlbət,
Ruhlarınız olsun rəhmət.
Ana dilim!
Qayıdaq keçmişə yenə,

Vətən müharibəsinə.
Əli silah tutanlarım,
Qadın, kişi, həm canlarım
Taxılım, qızılım, neftim,
Hazırlanan ton-ton ətim,
“Hər şey qələbə naminə”,
Yol qət etdik ta Berlinə.
Yüz iyirmi bir qəhrəman,
Qardaş idi Azərbaycan.
Qalmadıq heç kimdən geri,
Dəstəklədik sovetləri.
Müharibə bitər-bitməz,
Dinc durmadı ermənilər,
Qarabağa göz dikdilər.
“Mərkəz” yenə yumuşaldı,
Ermənini razı saldı.
Qərb diyarım, torpağımdan,
Qədim Oğuz oylağımdan,
Yüz əlli min qan qardaşım,
Qovuldular Vətənindən,
Ata-bala məskənindən.
Ermənilər “yekələşdi”,
Arzuları gerçəkləşdi.
Göz yaşları axıdanda,
Hay-küy salıb sızlayanda,
“Mərkəz” yollar axtarırdı,
Azərbaycan hesabına,
Paylarına pay qatırdı.
Ana dilim!

Ötdü zaman, ötdü dövran,
Qorbaçova keçdi imkan,
Ermənilər fəallaşdı,
İştahası aşıb-daşdı.
Məkrli əl düşdü işə,
Arxaya dön bax keşmişə.
Köhnə hiylə, köhnə plan,
"Yekələşsin ermənistan".
Diaspora yolun çaşdı,
Quyu qazmaq həddin aşdı.
Moskvada Heydər Baba,
Qovularaq öz işindən,
Bayram etdi bunu düşmən.
Böyük divar uçuruldu,
Onlar deyən hər şey oldu.
Qafan, Mehri, ilk qaçqınlar,
Quqarkda* yandırılanlar,
Leninakanda körpələr,
Turbalarda qaynaqlandı,
Çölə çıxış yasaqlandı.
Ana dilim!
Vəhşiliyin yüksəlişi,
Faşistlərin dirçəlişi,
Ermənidə gerçəkləşdi.
Havadarlar kömək etdi!
Dünya qaldı seyirci, lal,
Torpaqlarım oldu işğal.
Öz elindən, obasından,
Çıxarıldı doğma elim,
Yandırıldı əlim, dilim?!

* Quqark – Ermənistanda rayon adı, hansı ki, orda azərbaycanlılar diri-diri yandırılmışdı

Ey bəlalı Azərbaycan!
Sənə Vətən, bu can qurban!
Qara bəxtim qərb diyarım!
Harayına yandı bağrım
Ana dilim!
İki yuz otuz min xalqım,
Qovuldular ev-eşikdən
Qədim oğuz torpağımdan,
Ata-baba oylağımdan,
Ermənistan boşaldıldı.
Əsrlərlə qurulanlar,
Dığalara belə qaldı.
Axıdıldı günahsız qan,
Çalxalandı Azərbaycan!
Meydan bir anda doldu,
İlk şüar - “Azadlıq” -oldu,
Xalq qurtuluş andı içdi,
Köləliyin zəncirini,
“Qırın, qırın”, – onlar dedi,
Törədildi “Qara Yanvar”,
Öldürüldü silahsızlar,
Şəhid oldu yüzdən çox can.
Yasa batdı Azərbaycan!
Ulu Öndər Heydər baba,
“Od püskürdü” Moskvada:
“Axıdılan günahsız qan,
Yerdə qalmaz bilsin cahan”.
Ana dilim!
Bayrağımız yenə qalxdı,
Sevinc yaşı gözdən axdı.
“Enmişdi bir kərə, bir vəxt”,

Məmməd Əmin olsun rəhmət,
Düşmənimin rəngi qaçdı,
El-obamız çiçək açdı
Arzuların işığında,
Şəhid qanı işıq saçdı.
Yeni tarix yazdı onlar.
Qəhrəmanlıq zirvəsinə,
Qanlarıyla ucaldılar!
Ana dilim!
Siyasətdə yox səriştə.
Baş qarışıb başqa işdə
İçimizdə olan qiyam,
Başçılara yox ehtiram,
Parçalanma, didişmələr,
Rəhbərlikdə çəkişmələr,
Xocalı edildi viran,
Torpaq oldu al-qızıl qan.
Altı yüzdən çox insanlar,
Körpə, qoca, həm cavanlar.
Öz qanına oldu qəltan
Yaralandı Azərbaycan!
Cavanlarım, qız-gəlinim
Əsir düşdü gavurlara.
Nə danışım, mən nə dinim,
Bu ağrını yazım hara?!
Aparaqmı bəlkə gora?!
Ana dilim!
Dünya baxdı, yenə susdu,
İşğalçıya rəvac verdi
Kənardan hey baxıb durdu.
Havadarlar etdi kömək,

Plan cızıb qurdu kələk.
Qoca Şuşam təslim oldu,
Şair gözü yaşla doldu,
Şah Laçınım, Kəlbəcərim,
Cəbrayılım, gözəl yerim.
Füzuli, Ağdam, Zəngilan
Qubadlım alındı nişan.
Hiylə-şərə getdi qurban,
Əsir getdi minlərlə can!
Torpaqlarım oldu işğal,
Dünya qaldı seyirçi, lal…
Can-ciyərim itgin düşdü.
Yağılar bizə gülüşdü.
Haylara qaldı sərvətim,
Talan oldu var-dövlətim.
Axıdıldı günahsız qan,
Yaralandı Azərbaycan!
Ana dilim!
İnanıram uzaqda yox,
Düşmənlərə sancılar ox!
Qoç igidlər nərə çəkib,
O tay, bu tay birləşəcək.
Lap yaxında gün gələcək,
Qarabağın qisas günü,
Açılacaq ordu önü,
Torpaqlarım alınacaq.
Qisas yerdə qalmyacaq!
Ölkəm indi pərvazlanıb,
İşıq salıb ulduzlanıb.
Yüksəlişə ataraq can,
Çiçəklənir Azərbaycan.

Ölkələrin cərgəsində,
Bayraqların öncəsində
Mən dünyanın içindəyəm,
Mən səninəm, səninləyəm,
Ana dilim!
Dünya görür, duyur məni,
Yüksəlişi, bu zirvəni,
İndi özüm, öz söhbətim,
Müstəqildir Məmləkətim!
Uca bayraq öz elimdə,
Dalğalanır sahilimdə.
Dünya qalır, qalacağam,
Əbədiyyət olacağam.
Ana dilim!
Mən Vətənəm, sən mənimsən,
Sızlayan doğma dilimsən,
Ürəyimdən keçənləri
Sənə yazdım, bölüşdüm.
Tariximi vərəqləyib
Kədər-qəmlə görüşdüm.
Bəxtiyarsan Ana dilim,
Sözüm vardır, sana dilim!
Tariximə yalan qatma,
Keçmişimi sən unutma.
Oxusun, bilsin cavanlar,
Vətənin qan yaddaşı var.
Sübhan, gecə keçir, açılır səhər,
Yatmaqçün yumulur bu yorğun gözlər.
Vətən nəğməsini gəl bitir sona
Xoş günlər arzula Azərbaycana!

**SON**

# MÜNDƏRİCAT

**Ön söz ........................................................................ 3**

## ŞEİRLƏR

Əziz Allah ........................................................................ 13
Qarabağ ........................................................................ 15
Yalan ayaq açır gəzir dünyanı ........................................ 19
Adam var ki... ................................................................ 21
Mətərə çayı .................................................................... 22
Uşaq gülüşləri ................................................................ 24
Ay haramzada ................................................................ 25
Həkim ............................................................................ 26
Gətir .............................................................................. 27
Apardı getdi .................................................................. 30
Görüş anları .................................................................. 31
Gedəcək gözəlliyin ........................................................ 32
Sənsiz ............................................................................ 33
Mənmi günahkaram, yoxsa ki, zaman ........................... 34
Mənzum məktub ............................................................ 36
İnsanlar sevincdən ağlayaydı kaş .................................. 39

## POEMALAR

Ana fəryadı .................................................................... 48
Nəsihətnamə .................................................................. 92
Bir tikə çörək ................................................................ 100
Axırıncı güllə ................................................................ 105
Ana dilim ...................................................................... 147

# QEYD

Nəşriyyat redaktoru:  Elvira Nadir qızı
Dizayner və səhifələyici: Tünzalə Tağıyeva

Çapa imzalanmışdır: 29.10.2019
Kağız formatı: 84x108 1/32
Həcmi: 10 ç.v; Sifariş: 69;  Sayı: 300

«ADİLOĞLU» nəşriyyatında nəşrə hazırlanmış
və ofset üsulu ilə çap edilmişdir.
Ünvan: Bakı şəh., Alatava I, Ə.Salamzadə küç 9C.
Tel.: (050) 593 27 77;
Web: www.adiloglu.az;
E-mail: adiloglu2000@gmail.com